Xalqın qəzeti!

# Xalq qəzeti

№ 30 (30434) 11 fevral 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Şərqin Qərbə əsas yolu Azərbaycandan keçir



**Müasir dünyada iqtisadi və ticari əlaqələrin, mal və xidmətlərə sərbəst çıxışın təmin olunmasında beynəlxalq nəqliyyatın əlaqəli fəaliyyəti, müasir çağırışlara qarşı səmərəli tədbirlərin görülməsi, prioritetlərin, daşımaları daha qlobal miqyasda və böyük həcmdə gerçəkləşdirə bilən nəqliyyat sisteminin səmərəli istismarı mühüm məsələlərdəndir. Azərbaycanın xarici ticarət dövriyyəsinin davamlı artması beynəlxalq nəqliyyat xidmətlərinə olan tələbatın da yüksəlməsini, respublikamızın tranzit ölkə kimi mövcud imkanlarından tam istifadə edilməsini şərtləndirir.**

Beynəlxalq yük daşımalarının böyük hissəsini həyata keçirən sahələrdən biri də avtomobil nəqliyyatı sektorudur. Bu sahədə istər parkın yenilənməsi, istərsə də yük daşımalarında keyfiyyətin yüksəlməsi prioritet amil kimi diqqət mərkəzində saxlanılır.

Son 20 il ərzində ölkəmizdə beynəlxalq avtomobil daşımaları bazarının inkişafı, yerli daşıyıcıların təşviqi və onların bazar payının artırılması istiqamətində mühüm işlər görülüb. Nəticədə Azərbaycan daşıyıcılarının sayı, müvafiq bazar payları artıb, daşımalarda istifadə olunan nəqliyyat vasitələri parkı genişlənib. Eyni zamanda, bu müddətdə bir sıra ölkələrlə beynəlxalq avtomobil daşımaları sahəsində hökumətlərarası sazişlər imzalanıb, qoşulduğumuz beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklərin yerinə yetirilməsi ilə bağlı mühüm təşkilati tədbirlər reallaşdırılıb.

Ölkəmizdə nəqliyyat sektorunun fəaliyyətinin daha səmərəli təşkili istiqamətində gerçəkləşdirilən layihələr nəticəsində yük daşımalarının ümumi həcmi getdikcə artıb. Belə ki, 2003-cü ildə respublikamızdan avtomobil nəqliyyatı ilə 59 milyon 100 min ton həcmində yük daşınıbsa, 2023-cü ildə bu rəqəm 134 milyon 200 min tona çatıb.

**(ardı 6-cı səhifədə)**



## Yeni tarixi mərhələdə milli ideya və milli ideologiya

**Milli ideya iki fəlsəfi yanaşmanın işığında**



Birinci məqalədəki yekun tezisimizin davamı olaraq son 20 ildə milli ideya və milli ideologiyanı nəzəri məzmunlaşdıran və praktiki reallaşdıran siyasətin fəlsəfi-elmi dərkinə çalışacağıq. Məsələyə bu cür yanaşmamızın elmi əsası vardır. Bizcə, milli ideya və milli ideologiyaya fəlsəfi prizmada iki istiqamətdən yanaşmaq olar: Birincisi, abstrakt ümumfəlsəfi aspektdən. Ümumiyyətlə, milli ideya və milli ideologiyaya analitik fəlsəfə kontekstində yanaşmaq mümkündür. İkincisi, məsələyə konkret predmet fəlsəfəsi, yəni Azərbaycan təcrübəsi fonunda nəzəri və praktiki-tətbiqi aspektlərin vəhdəti istiqamətindən yanaşmaq olar.

Biz ikinci yanaşmaya üstünlük veririk. Çünki ümumi fəlsəfi analitik yanaşmanın təhlil gücü və yaradıcılıq potensialı nə qədər geniş olsa da, söhbət Azərbaycanın müəyyən dövrü üçün milli ideya və milli ideologiyanın formalaşmasının fəlsəfi və siyasi-nəzəri təhlilindən getməlidir. Ona görə ki, bu prosesin praktiki-tətbiqi aspekti ilə fəlsəfi-nəzəri tərəfinin vəhdət məsələsi çox önəmlidir. Ümumumfəlsəfi analitik təfəkkürünün yüksək nəzəri "məsafəsindən baxışında" konkret mənzərə vətəndaş üçün yayğın və xeyli mücərrəd görünə bilər. Eyni zamanda, onu da vurğulamaq zəruridir ki, bir başqa kontekstdə ümumfəlsəfi analitik tədqiqat olduqca vacibdir və onu mütləq reallaşdırmaq gərəkdir.

Bunlarla yanaşı, bizim yeni tarixi mərhələdə milli ideya və milli ideologiyanın formalaşmasının Azərbaycan təcrübəsi kontekstində mütləq nəzərə almamızı zəruri edən bir arqumentimiz də var. Reallıq ondan ibarətdir ki, müasir mərhələdə Azərbaycanda milli ideya və milli ideologiya "Heydər Əliyev–İlham Əliyev" siyasi varislik, idarəetmə və ideoloji "xətti"nin məhsuludur. Ulu öndər azərbaycançılıq ideologiyasını müasir anlam verdiyi "Müstəqil Azərbaycan" ideyası və konsepti əsasında məzmunlaşdırdı. İlham Əliyev XXI əsrin çağırışları kontekstində onu daha da zənginləşdirdi və faktiki olaraq yeni transformasiya mərhələsinə yüksəltdi.

***(ardı 5-ci səhifədə)***

## TBMM-nin AŞPA-ya Azərbaycanla bağlı çağırışı

Səhifə ⇨ 2

## Sülh gündəmi: Bakı danışıqların konstruktiv olmasını istəyir



Səhifə ⇨ 5

## BBC-nin Məhərrəmi və erməni Qriqor

### *Təəssüf ki, Otenesyanın beynəlmiləl ruhu Zeynalovunkundan daha səmimi təsir bağışladı*

**BBC-nin rus xidmətinin "Bu, nə idi" verilişinin Azərbaycan və Ermənistandakı vəziyyətlə, hər iki ölkə arasındakı münasibətlərlə bağlı mövzusuna diqqət yetirəndə, bir neçə cəhəti vurğulamaq lazım gəlir. Söhbətimiz bu barədədir. Ancaq əvvəlcə qeyd edək ki, verilişdə aparıcı Oleq Antonenkonun qonaqları "BBC-rus"un Azərbaycan üzrə müxbiri Məhərrəm Zeynalovla media qurumunun erməni əməkdaşı Qriqor Otenesyan idilər.**

BBC NEWS

BBC-nin rus xidməti, ümumən BBC ölkəmizə qarşı heç də həmişə ədalətli olmayıb, əksər hallarda tam ədalətsiz mövqe tutub ki, bu yanaşma, ilk növbədə, peşə prinsiplərinə ziddir. Sözügedən verilişdə yayımlanmış fikir və mülahizələr fonunda ortaya çıxan da elə budur – BBC Azərbaycanla bağlı reallıqları təhrif etmək niyyəti güdür.

Beləliklə, ondan başlayaq ki, BBC-nin rus xidməti özünün ölkəmiz üzrə müxbiri M.Zeynalovun dili ilə Azərbaycanda keçirilmiş 7 fevral Prezident seçkiləri ilə əlaqədar yanlış rəy formalaşdırır, seçkini gözdən salmağa cəhd göstərir. Media qurumu elə fon yaradır ki, sanki, Prezident seçkiləri ilə bağlı qərar tez-tələsik verildiyindən, prosesə hazırlaşmağa vaxt qalmadı və guya, buna görə də real müxalifət seçkidə iştirakdan uzaq dayandı. İlk təhrif də elə budur. Halbuki ötən il dekabrın 7-dən, yeni Prezident seçkilərininin keçirilməsi ilə bağlı qərarın qəbul olunduğu vaxtdan 2024-cü ilin fevralın 7-dək, hazırlaşmağa kifayət qədər, müddət var idi. Əgər müxalifət real mobil gücə malik idisə, gərək bəhanə gətirməyəydi. Tam aydındır ki, belə bir güc onda yoxdur və nəticədə seçkinin boykotundan başqa nə isə tapa bilməzdi də.

***(ardı 2-ci səhifədə)***

## Qədim türk yurdu – Azərbaycanın ayrılmaz hissəsi

Səhifə ⇨ 9



## Almaniya sənayedəki liderliyini itirir?



**Almaniyada sənaye istehsalının azalması bir neçə ildir müşahidə olunur. Lakin son illərdə bu tendensiya sürətlənir. Xüsusilə kimya sənayesinin zərər gördüyü bildirilir.**

"Bloomberg" agentliyi yazır ki, buna səbəb Rusiyadan alınan qazın olmamasıdır.

***(ardı 11-ci səhifədə)***

# Çin Xalq Respublikasının Sədri Zati-aliləri cənab Si Cinpinə

**Hörmətli cənab Sədr,**

Sizi və Sizin simanızda dost Çin xalqını qarşıdan gələn Bahar bayramı münasibətilə öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ay təqvimi ilə Yeni ilin gəlişini tərənnüm edən və təbiətlə insanın sarsılmaz vəhdətinə dərin ehtiramın ifadəsi olan qədim Çuntsze bayramı özünün tükənməz yeniləşdirici ruhu ilə səmimiyyət, xeyirxahlıq, başqalarına qayğı kimi duyğuları gücləndirir. Zəngin milli-mənəvi ənənələri yaşadan xalqınıza bu bayramın xoşbəxtlik, firavanlıq və yeni-yeni uğurlar bəxş etməsini diləyirəm.

Fürsətdən istifadə edərək Azərbaycan-Çin dostluq və əməkdaşlıq münasibətlərinin yüksələn xətlə inkişafından məmnunluğumu, dövlətlərarası əlaqələrimizin bundan sonra da birgə səylərimizlə möhkəmlənəcəyinə və genişlənəcəyinə dair əminliyimi ifadə edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər, dost Çin xalqına daim rifah və əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 fevral 2024-cü il**

# Gürcüstanın Baş naziri Zati-aliləri cənab İrakli Kobaxidzeyə

**Hörmətli cənab Baş nazir,**

Gürcüstanın Baş naziri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz tarixən bir-birinə dostluq və mehriban qonşuluq telləri ilə bağlı olan xalqlarımızın iradəsindən güc alan Azərbaycan-Gürcüstan münasibətlərinə xüsusi əhəmiyyət veririk. Qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimizin və əməkdaşlığımızın dinamik və hərtərəfli inkişaf edərək bugünkü səviyyəyə yüksəlməsi və yeni məzmun kəsb etməsi bizi sevindirir.

Əminəm ki, sağlam təməllər üzərində qurulmuş Azərbaycan-Gürcüstan ənənəvi dostluğu, qarşılıqlı faydalı əməkdaşlığı və strateji tərəfdaşlığı ölkələrimizin rifahı, regionumuzun çiçəklənməsi naminə birgə səylərimizlə bundan sonra da yüksələn xətlə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Gürcüstan xalqının əmin-amanlığı və firavanlığı naminə qarşıdakı məsul fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 fevral 2024-cü il**

# Azərbaycan İslam həmrəyliyinə yeni töhfələr verəcək

**Fevralın 10-da İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Taha Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Baş katib İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, ona ölkəmizin inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

O, Prezident İlham Əliyevin İslam həmrəyliyi işinə verdiyi töhfəni xüsusi vurğulayıb, eyni zamanda, işğaldan azad edilmiş torpaqlarımızda geniş abadlıq və quruculuq işlərinin həyata keçirilməsi ilə bağlı dövlətimizin başçısına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbriklərə görə minnətdarlığını bildirərək, öz növbəsində Azərbaycanın bundan sonra da İslam Əməkdaşlıq Təşkilatının beynəlxalq nüfuzunun möhkəmləndirilməsi, təşkilatın inkişafı, üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi işinə töhfəsini verəcəyini qeyd edib.

Dövlətimizin başçısı Hissein Brahim Tahanı yenidən Azərbaycanda görmək istəyini ifadə edərək, onu ölkəmizə səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul olunub.

***Prezidentin Mətbuat Xidməti***

# Liderlər Prezident İlham Əliyevi təbrik edirlər

**Omanın Sultanı Heytəm bin Tariq Al Səid Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.**

Bu barədə Oman İnformasiya Agentliyi (ONA) məlumat yayıb.

Məlumatda qeyd olunub ki, Omanın Sultanı Azərbaycan Prezidentinə səmimi təbriklərini və ən xoş arzularını çatdırıb, ona möhkəm cansağlığı diləyib.

Heytəm bin Tariq Al Səid Prezident İlham Əliyevə dost Azərbaycan xalqını tərəqqi və firavanlığa aparan yolda uğurlar arzulayıb, iki ölkə arasında dostluq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduğunu bildirib.

*

**Keniya Respublikasının Prezidenti Uillyam Samoei Ruto Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi növbədənkənar prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə təbrik edib.**

Keniya Prezidenti bununla bağlı X sosial şəbəkəsindəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ürəkdolusu təbriklərimi çatdırıram. Sizin inamlı qələbəniz uzun illər ərzində Azərbaycan xalqının məharətinizə və liderliyinizə inamını bir daha təsdiqlədi. 2004-cü ildən bəri diplomatik münasibətlərimizin əsası qoyulduqdan sonra uzun illər ərzində Keniya və Azərbaycan arasında güclü, davamlı, səmimi və dostluq münasibətlərindən məmnunluğumu bildirirəm. Biz diplomatik münasibətlərimizin 20-ci ilini qeyd edərkən razılaşdırılmış prioritetlər çərçivəsində ikitərəfli əlaqələrimizi daha da gücləndirmək və onları qarşılıqlı maraq doğuran yeni sahələrə də genişləndirmək üçün mükəmməl fürsətimiz olduğunu məmnunluqla bildirirəm.

Fürsətdən istifadə edərək əminliyimi bildirmək istəyirəm ki, Sizin rəhbərliyinizlə biz ticarət, investisiyalar, enerji, iqlim dəyişikliyi və turizm kimi müxtəlif sahələrdə səmərəli tərəfdaşlıq imkanlarını tədqiq edəcəyik.

Zati-aliləri, mənim və Keniya xalqının ən yüksək ehtiramını qəbul edin".

# TBMM-nin AŞPA-ya Azərbaycanla bağlı çağırışı

**Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş Avropa Şurası Parlament Assambleyasının Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılması ilə bağlı qərəzli qərarını qınayıb. Sədrin bəyanatı Türkiyə parlamentinin rəsmi səhifəsində dərc olunub.**



"Türkiyə Böyük Millət Məclisi AŞPA-nı dəstəklədiyi prinsipləri qətiyyətlə müdafiə etməyə, bölücü deyil, birləşdirici platforma olmağa və Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini təsdiq etməyə çağırır", - bəyanatda deyilir.

Kurtulmuş AŞPA-nın Azərbaycanla bağlı qərarından məyus olduğunu və bu qərara yaxın vaxtlarda yenidən baxılacağını gözlədiyini qeyd edib. Siyasətçi xatırladıb ki, Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür və bu qurumla əməkdaşlıq etdiyi illər ərzində təkcə onun əsas prinsiplərinin həyata keçirilməsinə mühüm töhfə verməyib, həm də mədəni müxtəlifliyin qorunmasında və mədəniyyətlərarası dialoqun təşviqində aparıcı rol oynayıb.

***XQ***

# "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 647 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 aprel tarixli 647 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 646 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**2.** Bu Fərman 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 fevral 2024-cü il**

# BBC-nin Məhərrəmi və erməni Qriqor

**(əvvəli 1-ci səhifədə)**



Digər tərəfdən, məlum idi ki, Azərbaycan Prezidenti İlham Əliyev siyasi opponentlərindən hər baxımdan qat-qat üstün mövqedədir. Yəni, dövlət başçısı ilə mübarizə aparmaq bir yana, mübarizənin adını tutmağın özü gülünc görünür. Əslində, mövcud reallığı xaricilər də yaxşı duyurlar. Həmin xarici anti-azərbaycançı qüvvələrin dili ilə danışan və seçkini gözdən salmaq istəyən BBC və onun rus xidməti də həmçinin.

Ancaq verilişə diqqət yetirəndə, meydana maraqlı nüans çıxdı. M.Zeynalov fikirləri ilə elə təəssürat formalaşdırdı ki, guya, "kampaniya müddətinin azlığı" və bu kimi məsələlər olmasaydı, seçki fərqli nəticələr doğuracaqdı. Ancaq onun yanaşması o qədər gülünc idi ki, aparıcı Oleq Antonenko söhbətə müdaxilə edirmiş kimi davranıb Azərbaycan Prezidentinin mütləq qələbə qazanmasını şübhələndirməyə qarşı çıxdı. Yəni, aydın idi ki, BBC-nin mübahisələndirmək istədiyi motiv Azərbaycanın hazırkı dövlət başçısının qələbəsi deyildi. Bəs, nə idi?

Vurğuladığımız kimi, BBC, ümumən, seçkiləri gözdən salmaq yolu tuturdu. M.Zeynalovun "seçkinin mövcud vəziyyəti təsdiqləməsi" məntiqi də bundan qaynaqlanır. Ancaq o, başqa bir məqamın da üzərinə gəlir. Müxbirin sözlərindən belə çıxır ki, Azərbaycan Xalq Cəbhəsi Partiyası real qüvvədir, onun ölkədə çoxsaylı tərəfdarları var və ən əsası həmin tərəfdarların böyük hissəsi həbsdədirlər. Bəli, BBC-nin demək istədiyi bu idi. Sanki AXCP seçkidə iştirak etsəydi, uğur qazanacaqdı. Bir sözlə, yeni amorf qüvvə uydurmağa hesablanmış cəfəngiyyat.

Əslində, istənilən cəfəng yanaşma özünüinkar təbiətinə malikdir ki, mövcud məqam Azərbaycan iqtidarının, Prezident İlham Əliyevin Qarabağ məsələsini həll etməklə xalqın sevimlisinə çevrildiyi tezisində də aşkar göründü. Yəni, məcburən etiraf edilən Qarabağ ritorikası fonunda, AXCP-ni real qüvvə kimi göstərmək, həqiqətən, də paradoksal durum yaratdı. Həm BBC, həm də M.Zeynalov özünü dolaşıq duruma saldı. Necə yəni, 40 min imza toplamaq çətin vəzifədir? Bir partiya ki, 40 min imza toplaya bilmir, onun hansı elektoratı ola bilər? Həmin partiyanın hansı üzlə seçkiyə qatılması mümkündür?

*

Başlıca məsələ seçkidən sonrakı Azərbaycanın Ermənistanla münasibətləri necə quracağıdır. Əlbəttə, mövcud xüsusdakı diskussiyalar, istər-istəməz, keçmişə ekskurs zərirətini doğurur və haqqında söz açdığımız verilişdə də belə oldu. Əlbəttə, bu, heç bir halda ana mövzunu - "Azərbaycanın Ermənistanın konstitusiyasını dəyişdirmək istəyi"-ni arxa plana atmadı. Yəni, verilişdə məsələnin üzərində xüsusi dayanıldı.

Əslində, erməni jurnalist Qriqor Otenesyanın mövcud istiqamətdə söylədiklərini tamamilə reallıqdan uzaq kimi dəyərləndirmək olmaz. Hiss olunurdu ki, jurnalist Ermənistan hakimiyyətinin konstitusiya dəyişikliyi ilə bağlı irəli sürdüyü arqumentləri doğru təhlil edib. Ancaq onun yanaşmasında da yanlışlıq var. Q.Otenesyanın sözlərindən bu qənaət hasil olur ki, ana qanunu yeniləmək istəyən erməni xalqı deyil, Ermənistan hakimiyyətidir.

Məlumdur ki, baş nazir Nikol Paşinyan və komandasının üzvləri konstitusiya islahatı istəklərini yeni dövrün tələbləri ilə uyğunlaşmaq ehtiyacı şəklində izah edirlər. Əlbəttə, mövcud xüsusda N.Paşinyanın metaforası da diqqət çəkməkdədir. Hökumət rəhbəri konstitusiya dəyişikliyi zərurətindən söz açarkən bildirmişdi ki, hazırkı sənəd, obrazlı desək, əldə qırmızı parça tutub öküzü hirsləndirməkdir. Onun yanaşmasındakı öküz xarici qüvvələrdir, xüsusən də qonşular. Qırmızı parça isə konstitusiyanın əsaslandığı müstəqillik bəyannaməsindəki qonşu ölkələrə qarşı ərazi iddiasıdır. Otenesyan bildirir ki, məsələnin mahiyyətini dərk edən Ermənistan iqtidarıdır, erməni xalqı yox.

Əlbəttə, hazırda erməni cəmiyyətinin avantürist kəsimi aktivdir. Bu kəsimin təmsilçilərinin səsi daha çox çıxır və nəticə etibarilə fikirləri bütövlükdə erməni xalqının düşüncəsi qismində qəbul edilir. Belə bir durumda konstitusiya dəyişikliyi ilə bağlı referendumun hansı nəticələr doğuracağını söyləmək çətindir. Bəs Azərbaycana nə lazımdır? Lazımdır ki, erməni avantürizminin kökü kəsilsin. Bir ölkənin ki, əsas qanununda avantürizm yer alır, deməli, həmin sənədin yenilənməsi tələbi legitimdir. Həm də ona görə ki, Azərbaycan otuz ilə yaxın müddətdə erməni avantürizminin işğalçı mahiyyətindən əziyyət çəkib. Deməli, xalq həmin mahiyyətdən uzaq dayandığını səsi ilə təsdiqləməlidir. Hakimiyyətlər gəldi-gedərdi, əsas xalqdır.

*

Əlbəttə, verilişdə diqqət yetirilən bir məqam da oldu – Paşinyandan sonra gələcək hakimiyyət yenidən konstitusiya dəyişikliyinə gedə və xalqı əvvəlki sənədin vacibliyinə inandıra bilərmi? Çox güman, ehtimalı Azərbaycan tərəfi düşünməmiş deyil. Sadəcə, indi Ermənistanda konstitusiya dəyişikliyi baş versə, bu, maksimum təminat olacaq. Nəzərə alaq ki, yeni gələcək erməni hakimiyyətinin referendum keçirməsi heç də asan məsələ ola bilməz və belə bir hal yaşansa, Bakı durumu Ermənistanın işğalçılıq niyyəti ilə bağlı tutarlı beynəlxalq təbliğatına çevirərək haqq qazanacaq.

Bəli, erməni jurnalist Q.Otenesyan ümumən prosesləri düzgün təhlil edir və vurğulayır ki, 44 günlük müharibədən əvvəl Azərbaycanın Qarabağ ritorikası özünün hərbi-siyasi gücünə əminlik üzərində idi. Paşinyan isə bu qənaətdə idi ki, dünyada demokratik kimi qəbul edilən imici ona Qarabağ məsələsində dəstək qazandıracaq. Ancaq belə olmadı, erməni jurnalistin də vurğuladığı kimi, baş nazir yanıldı. Nəticədə o, özünün maksimalist mövqeyindən geri durdu, reallıqları görməyə başladı. Tam görürmü, əlbəttə ki, yox!

Bəs azərbaycanlı M.Zeynalov nə düşünür? Əslində, onun söylədikləri düşüncə də deyil. Çünki adam dəxli oldu-olmadı "Azərbaycan avtoritar ölkədir" mövzusunu qabardır. Təsəvvür edin, bu şəxs deyir ki, Bakı öz gücünə güvənərək, İrəvanla münasibətlər xüsusunda daha çoxuna iddialıdır və bu, guya, avtoritar ölkələrin tərzidir. Yanaşma həqiqətən də absurddur. Görəsən, BBC-nin rus xidmətinin müxbiri düşüncəsinin yarıtmazlığının fərqindədirmi?

Bəli, M.Zeynalov Azərbaycandakı reallıqları dilə gətirir. Ancaq necə? Məsələ burasındadır ki, o, İkinci Qarabağ müharibəsindən sonra ölkədə iqtidarın xeyli güclü olduğunu bildirir, xalqın onu dəstəklədiyini deyir və nədənsə elə görüntü formalaşdırır ki, bu amil Azərbaycan insanını susqun vəziyyətə salıb. Hər halda, belə bir şey yoxdur. Yəni, Qarabağ müharibəsində qalibiyyət ölkənin digər problemlərini unutdurub kimi ritorika yanlışdır. Həm də ona görə ki, həmin problemlərdən Prezident İlham Əliyevin özü dəfələrlə söz açıb. M.Zeynalovun Qarabağ amilinin cəmiyyətdə, sanki, zombiləşmə yaratdığı təəssüratını formalaşdırması, yumşaq desək, tərbiyəsizlikdir.

Bu, azmış kimi, BBC-nin rus xidməti M. Zeynalovun dili ilə Azərbaycanda jurnalistlərin, guya, təqib olunduqlarını vurğulayır, "Kanal 13"ün və "Abzas media"nın təmsilçilərinin həbsindən söz açır. Yəni, BBC adları çəkilən media orqanlarını yüksək tonda təqdim edir, sanki onlar azad sözün "qaranquşları"dır. Əlbəttə, hər iki media orqanının jurnalist peşəkarlığından uzaq olduğunun əlavə sübuta ehtiyacı yoxdur. Üstəlik, həmin media orqanlarının təmsilçiləri qanun pozucularıdır ki, bunun da peşə fəaliyyəti ilə hansısa əlaqəsi tam istisnadır.

BBC-nin ritorikasındakı sərsəm məntiq həm də onunla əsaslandırıla bilər ki, aparıcı O. Antonenko Azərbaycanda jurnalistlərin həbsini Qarabağ müharibəsindən sonra hakimiyyətin özünü daha da gücləndirmək niyyəti kimi təqdim edir. Yəni, o, fikrini təsdiqləmək üçün M.Zeynalovdan məsələyə münasibət bildirməsini istəyir. M.Zeynalov isə özünün yarımçıq təfəkkürü ilə bildirir ki, "Kanal 13"ün və "Abzas media"nın əməkdaşlarının həbsi Prezident seçkiləri ilə bağlı olub. Cəfəngiyyata diqqət yetirin: Həbsdə olan jurnalistlər seçkini işıqlandıracaqdılar, ona görə də həbsə atılıblar.

BBC-nin sərsəm ritorikasındakı növbəti məqam Qarabağla bağlıdır. O.Antonenko Qarabağdan söz açarkən, "ruh respublikası" ifadəsini işlədir. Təsəvvür edin ki, Qarabağa, işğaldan azad edilmiş Azərbaycan torpaqlarına xarici jurnalistlərin, xarici qonaqların səfərləri adi hal alıb, həmin bölgələrdə nüfuzlu tədbirlər gerçəkləşdirilir, geniş abadlıq və quruculuq işləri aparılır, M.Zeynalov elə danışır ki, elə bil, Qarabağ terrorçu, ekstremist və separatçı xunta rejiminin dövründə olduğu kimidir. Onun sözlərinə görə, adi şəxsin Qarabağda baş verənləri görməsi mümkün deyil. Sanki, orada böyük hüquq pozuntuları, cinayətlər törənirmiş, dünyanın bundan xəbəri yox imiş.

M.Zeynalov Qarabağa və digər işğaldan azad edilmiş bölgələrimizə səfərlər zamanı təhlükəsizlik tədbirlərinin görülməsini keçmiş SSRİ dövründəki "icazəli turizm" ənənəsi ilə uğursuz şəkildə müqayisə edir ki, bunun özü də aşkar qərəzdir. Halbuki, o, İkinci Qarabağ müharibəsindən sonra Ermənistanın mina terrorundan və həmin terror nəticəsində yüzlərlə dinc sakinin həyatını itirməsindən söz aça, bu səbəbdən təhlükəsizlik tədbirlərinə ehtiyacın duyulduğunu önə çəkə bilərdi. Görünür, belə yanaşma BBC-nin "beynəlmiləl ruhu" ilə tərs mütənasibdir.

BBC "Dağlıq Qarabağ" kimi təqdim etdiyi bölgənin "respublika" obrazını canlandırır və bu obrazda M.Zeynalovun hazırkı "qorxulu və qapalı yer" təqdimatı ilə mənfiyə doğru dəyişim trayektoriyası cızır. Müvafiq olaraq, bölgənin Azərbaycana məxsusluğundakı beynəlxalq hüquq normaları heçə sayılır. Halbuki, verilişin müxtəlif bölümlərindəki diskussiyalar zamanı, xüsusən də Ermənistanla münasibətlər baxımından Qarabağın beynəlxalq hüquq nöqteyi-nəzərdən Azərbaycana məxsusluğu etiraf edilir. Bu etiraf nədir, "Dağlıq Qarabağ" nədir, bölgənin qorxunc və qapalı yer olduğu təəssüratını formalaşdırmaq nədir? Belə çıxır ki, məqsəd Azərbaycana məxsus Qarabağın pis duruma düşdüyünü göstərməkdir. Utanmasalar, sabiq separatçı rejimi də tərifləyərlər də. Yəni, bircə bunu etmək qalmışdı. Ən əsası isə vurğu Qarabağda ermənilərin yaşamaması üzərinə qoyulur. Nəzərə alınmır ki, həmin bölgənin erməniləri öz xoşları ilə ərazini tərk ediblər.

Bu yerdə BBC Q.Otenesyanın dili ilə Qarabağ ermənilərinin "məcburi köçkünlükdən" sonrakı durumuna diqqət çəkir. Sən demə, onlar hazırda çox acınacaqlı vəziyyətdə yaşayırlar. Sual olunur: Qarabağ ermənilərini öz evlərindən Azərbaycanmı qovdu? Bunu erməni jurnalist demir, özü bilər, bəs BBC-nin azərbaycanlı müxbiri nə üçün bu barədə söz açmır? Nəyə görə susur?

Maraqlı məqam ondadır ki, Q.Otenesyan Qarabağ ermənilərinin hazırda boş qalmış və vaxtilə azərbaycanlılara məxsus evlərdə yerləşdirildiyini vurğulayanda, M.Zeynalov xatırlayır ki, o da əslən Ermənistandandır və onun da ailəsinin yaşadığı kənd hazırda boş qalıb. Q.Otenesyan məsələni təəccüblə qarşılayır, hətta M.Zeynalovun Ermənistandan olub-olmadığını dəqiqləşdirir də. Bütün bunlara rəğmən Zeynalov azərbaycanlıların hazırkı Ermənistan ərazisindəki dədə-baba yurdlarından zorla qovulduqları faktının üzərindən keçir və beləliklə əsas diqqət Qarabağdan "qovulmuş ermənilərin" üzərində cəmləşir. Hər halda, BBC-nin sifarişi budur və bu çərçivədən çıxmaq, işlədiyi yerin siyasətlə çulğalaşmış korporativ maraqlarını heçə sayıb ədalətli mövqe nümayiş etdirmək azərbaycanlı Məhərrəmin ağlına gəlmir. Təəssüf ki, Q.Otenesyanın beynəlmiləl ruhu M.Zeynalovunkundan daha səmimi təsir bağışladı.

Ancaq təəssüflənməli məqamlar bununla bitmir. BBC-nin Azərbaycan-Ermənistan münasibətləri baxımından tutduğu mövqenin yarıtmazlığı özünü daha bir detalda da göstərdi. Məlum olduğu kimi, Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək istəmir. Əvvəl bunu Qarabağdakı separatçı rejimi, bölgədə ordusunu saxlamaqla edirdi, hazırda isə Naxçıvana gedən yol müstəvisində destruktiv mövqeyinə sadiqdir. Nədənsə, bu, BBC-nin rus xidmətinin "yadından çıxır" və əsas diqqəti "Azərbaycanın Ermənistan ərazisini işğalı niyyətinə" yönəldir və mövcud istiqamətdə sözügedən verilişə dəvət etdiyi qonaqlarının fikir bildirmələrini istəyir. Bu yerdə O.Antonenkonun Naxçıvana yol xüsusunda "Azərbaycandan – Azərbaycana yol" məntiqini xatırlatması yaradılmasına çalışılan ümumi mənzərəni, yəni Bakını işğalçı kimi göstərmək istəyini ikinci plana keçirmir. O.Otenesyan müqayisə aparır və bildirir ki, hazırda rəsmi İrəvanı hüquqi cəhətdən güclü edən Naxçıvana quru yolunun beynəlxalq hüquq nöqteyi-nəzərdən Ermənistan ərazisi hesab olunmasıdır. Erməni jurnalist Qarabağın beynəxalq hüquqla Azərbaycana məxsusluğunu bildirir və əlavə edir ki, Ermənistan vaxtilə bölgəni və ona bitişik rayonları işğalda saxlayırdı və bu, beynəlxalq hüquqa zidd idi. O.Otenesyan onu da deyir ki, Paşinyan İkinci Qarabağ müharibəsi zamanı hüquqa zidd davranışın xeyir verməyəcəyini anladı. Yəni, ortada "indi də Azərbaycan anlamalıdır ki, Zəngəzura hücum nəticəsiz qalacaq" deyimi var.

Əlbəttə, Azərbaycan rəhbərliyi, şəxsən Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, ölkəmiz Ermənistana qarşı heç bir ərazi iddiası irəli sürmür. İstəyimiz yalnız budur ki, İrəvan barəsində danışdığımız üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəliyi yerinə yetirsin. Amma yerinə yetirmir. M.Zeynalovun məsələnin belə qoyuluşundan xəbərinin olmaması mümkünsüzdür. Ancaq, o, bu barədə söz açmır və "Zəngəzura hücum" ritorikasına münasibət bildirərək, faktiki olaraq, erməni həmkarının dediklərini təsdiqləyir: Azərbaycanın beynəlxalq hüquqla tanınan Ermənistan ərazisini işğal etməsi mümkün deyil. Görəsən, üç il əvvəldən həmin Ermənistanın ərazisinin "son dayanacağının" Ağdam və Füzuli olması niyə yada düşmür? Yəqin, cənab Zeynalova bu barədə danışmaq qadağan edilib. Başqa nə düşünək?

Sonda onu da deyək ki, ümumən BBC-nin rus xidmətinin "Bu, nə idi?" verilişində səslənmiş fikirlərin heç də hamısının reallıqdan uzaqlığını vurğulamaq niyyətindən uzağıq. Heç şübhəsiz, verilişin qonaqları bəzi həqiqətləri olduğu kimi dilə gətirdilər. Ancaq bütövlükdə qoyuluş, ümumən Azərbaycan mövzusunun təqdimatı baxımından seçilmiş dəst-xətt və yanaşma, yumşaq ifadə etsək, son dərəcə qüsurlu idi. Heç şübhəsiz, bu cəhət, kifayət qədər, düşünülmüş gedişdir və incə şəkildə dövriyyəyə buraxılıb. Və heç şübhəsiz, məqsəd Azərbaycanla bağlı yanlış beynəlxalq ictimai rəy formalaşdırmaqdır. Çox təəssüf ki, bu rəy "sapı özümüzdən olan baltaların" köməyi ilə yaradılır. Söhbət, əlbəttə ki, Məhərrəmdən gedir. Bizim olmaqdan çıxmış BBC-nin Məhərrəmindən.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu.**

Azərbaycan Respublikasının Prezidenti kimi şərəfli vəzifəyə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycanda keçirilən prezident seçkilərini müşahidə etmək üçün Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) nümayəndə heyətinə rəhbərlik etmək şərəfinə nail olmuşam. Seçkilər zamanı nümayiş olunan mütəşəkkillik, ədalət və inklüzivlik bizim komandamızda dərin xoş təəssürat yaratmışdır.

Son iyirmi il ərzində Azərbaycanın bənzəri olmayan yüksəlişinin təmin edilməsində Sizin uzaqgörən rəhbərliyiniz mühüm rol oynamışdır. Sizin iqtisadi inkişaf, infrastruktur və sosial təminat sahələrində nailiyyətləriniz Azərbaycanı dünya arenasında yüksəltməklə yanaşı, digər ölkələr üçün ilhamverici nümunə olmuşdur. Əminəm ki, yeni prezidentliyiniz dövründə Sizin rəhbərliyinizlə Azərbaycan xalqı və dövləti daha çox uğur əldə edəcəkdir.

Azərbaycan Respublikası Şanxay Əməkdaşlıq Təşkilatının dialoq üzrə tərəfdaşı və "ŞƏT ailəsi"nin vacib üzvüdür. Bu xüsusda, ŞƏT-in fəaliyyətində Azərbaycan Respublikasının fəal iştirakına, həmçinin Sizin təşkilatımızın fəaliyyətinə göstərdiyiniz şəxsi dəstəyə görə minnətdarlığımı ifadə edirəm.

Zati-aliləri, Sizinlə və Azərbaycan hökuməti ilə sıx əməkdaşlığa hazır olduğumuzu bəyan edirəm. Qoy, Şanxay Əməkdaşlıq Təşkilatı və Azərbaycan arasında möhkəm və sarsılmaz tərəfdaşlıq qarşılıqlı anlayışı, sülhü və rifahı təşviq edərək daha da möhkəmlənsin!

Bizim Azərbaycana səfərimiz zamanı ŞƏT nümayəndə heyətinə göstərilən diqqət və qonaqpərvərliyə görə təşəkkür edirik.

Yenidən Prezident seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edirəm. Əminəm ki, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə yeni zirvələrə çatacaq.

**Dərin hörmətlə,**

***Cu MİN,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

*

**Hörmətli cənab Prezident.**

Xalqın böyük dəstəyi ilə prezident seçkilərində qalib gəlməyiniz münasibətilə Sizi "Türk-İş" Həmkarlar İttifaqları Konfederasiyasının üzvləri adından təbrik edirəm.

Bu seçkilərin Türkiyənin strateji müttəfiqi və yaxın qonşusu olan Azərbaycanın bütün ərazisində keçirilməsi milli birliyin təmin edilməsi baxımından böyük önəm daşıyır. Uzun müddətdən sonra işğaldan azad edilmiş bölgələrdə də seçkilərin keçirilməsi tarixi əhəmiyyət kəsb edib.

Azərbaycanda yaşanan bu mühüm dəyişikliklərin və təmin olunan ictimai həmrəyliyin Türk Dövlətləri Həmkarlar İttifaqları Təşkilatının bundan sonrakı fəaliyyətinə müsbət təsir göstərəcəyinə, əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə inanırıq.

**Hörmətlə,**

***Erğ n ATALAY,***
***"Türk-İş" Həmkarlar İttifaqları Konfederasiyasının baş direktoru***

*

**Hörmətli İlham Heydər oğlu.**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan vətəndaşları xalqın əsl lideri, ölkənin sabit inkişafını təmin etməyə, onun suverenliyini qoruyub saxlamağa, dünyanın geosiyasi arenasında respublikanın mövqelərini möhkəmləndirməyə qadir olan güclü müdrik siyasi xadim kimi növbəti dəfə Sizi dəstəklədilər.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və səadət, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Mixail QUTSERİYEV,***
***Rusiyanın "SAFMAR Qrupu" Səhmdar Cəmiyyətinin prezidenti***

*

**Hörmətli cənab Prezident.**

Qafqaz mənşəli Dağ Yəhudilərinin Ümumisrail Birliyinin adından Sizə və bütün Azərbaycan xalqına seçkilərdə qələbəniz münasibətilə səmimi təbriklərimizi çatdırıram.

Azərbaycan ilə İsrail arasında əməkdaşlıq inkişaf edir və möhkəmlənir. Bu istiqamət atanız, Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilib, Siz isə bu yolu uğurla davam etdirərək, Azərbaycanın İsraildə səfirliyini açaraq münasibətləri daha da möhkəmləndirdiniz. Bütün yəhudilər, xüsusən dağ yəhudiləri sevincli və kədərli vaxtlarda həmişə azərbaycanlılar üçün qardaş xalq olublar.

Prezident seçkilərində Azərbaycan xalqının seçimi bizi çox sevindirir. Mütləq əksəriyyət növbəti dəfə sübut etdi ki, Sizə tam etimad göstərir. Onlar müəyyənləşdirilmiş yolun gələcəkdə də davam edəcəyinə inanırlar.

**Dərin hörmətlə və səmimi təbriklərlə,**

***Pavel YELİZAROV,***
***Qafqaz mənşəli Dağ Yəhudilərinin Ümumisrail Birliyinin sədri, Dağ yəhudilərinin parlament lobbisinin baş direktoru, xarici işlər nazirinin Qafqaz mənşəli yəhudilər üzrə müşaviri***

*

**Hörmətli İlham Heydər oğlu.**

İcazə verin, "Beynəlxalq İslam Missiyası" Mərkəzləşdirilmiş Dini Təşkilatı adından Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə təbrik edim.

Siz atanız Heydər Əlirza oğlunun kursunu davam etdirərək Rusiya və Azərbaycan xalqları arasında yaxınlığın davam etməsi üçün çox böyük işlər görürsünüz və bunun sayəsində rusiyalı müsəlmanların böyük ehtiramını qazanmısınız.

Cənab Prezident, əminəm ki, peşəkar təcrübəniz, enerjiniz, idarəçilik istedadınız və təşkilatçılıq bacarığınız Sizə bundan sonra da ölkəni və cəmiyyəti işıqlı gələcəyə aparmağa imkan verəcəkdir.

Bütün qəlbimlə Allaha dua edirəm ki, Sizə çətin və məsuliyyəti fəaliyyətinizdə uğurlar bəxş etsin.

**Hörmətlə,**

***Şafik PŞİXAÇEV,***
***Qafqaz Müsəlmanları İdarəsinin Rusiya Federasiyasındakı səlahiyyətli nümayəndəsi, "Beynəlxalq İslam Missiyası" Mərkəzləşdirilmiş Dini Təşkilatının sədri***

*

**Hörmətli Prezident.**

Beynəlxalq Avrasiya Metal İşçiləri Federasiyasının adından və şəxsən öz adımdan Sizi seçkilərdə qazandığınız qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizə gələcək liderliyiniz dövründə uğurlar, Azərbaycan xalqına və ölkənizə əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***Pevrul KAVLAK,***
***Beynəlxalq Avrasiya Metal İşçiləri Federasiyasının prezidenti***

*

**Möhtərəm Prezident.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu (İƏTGF) adından Zati-alinizə səmimi təbriklərimizi çatdırmaqdan böyük şərəf hissi duyuruq.

Siz İƏT ölkələri gənclərinin inkişafına və onların birliyinin möhkəmlənməsinə davamlı şəkildə diqqət göstərirsiniz. Bunun bariz nümunələrindən biri 2004-cü ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Təsis Baş Assambleyasının keçirilməsi, həmçinin İƏTGF-nin Avrasiya Regional Mərkəzinin ofisinin Bakıda yerləşməsidir.

Bu, regionumuzun liderləri üçün bir nümunədir və İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun İƏT-in nəzdində fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilat kimi institutlaşmasına və inkişafına təkan verir. İƏTGF olaraq biz Zati-alinizin etimadı, dəstəyi və liderliyindən qürur hissi duyuruq, fədakarlığınızı yüksək qiymətləndiririk.

Biz Şuşanın yekdilliklə İƏT-in 2024-cü il üzrə Gənclər Paytaxtı seçilməsinin tarixi əhəmiyyətini böyük məmnunluq hissi ilə qeyd edirik. Bu mühüm nailiyyət Zati-aliniz tərəfindən nümayiş etdirilən müdrik və nümunəvi rəhbərliyin daha bir təsdiqidir. Şuşanın Sizin rəhbərliyinizlə işğaldan azad edilməsi cəsarətin, fədakarlığın, həmçinin sülh, birlik və tərəqqi prinsiplərinə davamlı sədaqətin təntənəsinin rəmzidir. Sizin uzaqgörən siyasətiniz Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı mürəkkəb məsələlərin həllində çox mühüm rol oynayıb. Qazanılmış nailiyyətlər Zati-alinizin müdrikliyinin və strateji baxışının göstəricisidir. Bütün bunlar regionda sabitliyin və rifahın möhkəmləndirilməsinə böyük töhfə verir.

Qarabağ bölgəsinin, xüsusən də Xankəndi şəhərinin əhalisinə 30 ildən artıq müddətdə ilk dəfə seçkilərdə iştirak etmək üçün fundamental hüquqlarından istifadə imkanını təmin etdiyiniz üçün Zati-alinizə səmimi təşəkkürümüzü bildiririk. Demokratik prinsiplərin dəstəklənməsi və vətəndaşların cəmiyyətin həyatında fəal iştirakının təşviqi ilə bağlı gördüyünüz işlər bütün dünyada gənclər üçün ilham mənbəyidir.

Gənclərimiz üçün daha parlaq və firavan gələcəyə doğru addım atarkən üzv dövlətlərimiz arasında əməkdaşlığı dərinləşdirmək və dostluq əlaqələrini möhkəmləndirmək əzmimizə sadiq qalırıq. Sizin liderliyiniz, gənclərin inkişafına, onların arzularının reallaşmasına dəstəyiniz dayanıqlı inkişaf üçün birgə səylərimizdə bizi daha da ruhlandırır.

İƏT həmrəyliyinin təşviqi və Azərbaycan xalqının inkişafı istiqamətində nəcib səylərinizdə Zati-alinizə uğurlar arzu edirik.

Sizə və doğmalarınıza möhkəm cansağlığı, firavanlıq diləyirik.

Möhtərəm Prezident, ən yüksək ehtiramımızı və xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

***Taha AYHAN,***
***İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun prezidenti***

*

**Möhtərəm İlham Heydər oğlu.**

Müdrik xalqınızın Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçəcəyinə şübhə yox idi. Siz titanik səyləriniz və müdrik dövlət xadiminə məxsus şəxsi keyfiyyətləriniz sayəsində Ulu Öndər Heydər Əliyevin bütün vəsiyyətlərini həyata keçirməyi bacardınız. Hesab edirəm ki, digər ölkələrin liderlərinin Sizdən örnək götürmələrinə dəyər.

Sizi təbrik edirəm və işlərinizdə uğurlar arzulayıram.

Yaşasın Azərbaycan!

**Hörmətlə,**

***Xızrı ŞIXSƏİDOV,***
***Rusiya Federasiyasının Dağıstan Respublikası Xalq Məclisinin sabiq sədri***

*

**Hörmətli cənab Prezident.**

Albaniya Müstəqil Həmkarlar İttifaqları Birliyi adından yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırıram. Siz müdrik Lider olaraq regiona sülh və tərəqqi gətirmisiniz.

Demokratik standartlara riayət olunaraq keçirilən seçkilərdə tarixi qələbəniz, həmçinin Azərbaycanın ərazi bütövlüyünün bərpası münasibətilə Zati-alinizi səmimi-qəlbdən təbrik edirik.

Yaşasın Azərbaycan!

Yaşasın Albaniya və Azərbaycan qardaşlığı!

**Dərin ehtiramla,**

***Gezim KALAYA,***
***Albaniya Müstəqil Həmkarlar İttifaqları Birliyinin prezidenti***

*

**Hörmətli İlham Heydər oğlu.**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan xalqının geniş dəstəyi respublikanın firavanlığı və inkişafı istiqamətində həyata keçirdiyiniz kursun uğurlu olduğunu sübut edir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və müvəffəqiyyətlər, bütün Azərbaycan xalqına isə sülh, rifah və əmin-amanlıq arzu edirəm.

**Hörmətlə,**

***Maqomedsalam MAQOMEDOV,***
***Rusiya Federasiyası Prezidenti Administrasiyası rəhbərinin müavini***

*

**Zati-aliləri.**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə BP şirkəti adından Sizə səmimi təbriklərimi çatdırıram. Azərbaycan xalqının rifahının yaxşılaşması istiqamətində bütün səylərinizdə Sizə uğurlar arzulayıram.

Bu fürsətdən istifadə edərək bizim Azərbaycandakı enerji layihələrinə BP-nin davamlı sadiqliyini bir daha vurğulamaq istəyirəm.

BP şirkəti olaraq biz Azərbaycan hökuməti və SOCAR ilə uzunmüddətli tərəfdaşlığın daha da möhkəmlənəcəyinə ümidvarıq.

Zati-aliləri, Sizi bir daha səmimi-qəlbdən təbrik edirəm və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Tezliklə Sizinlə Bakıda görüşməyi səbirsizliklə gözləyirəm.

**Hörmətlə,**

***Mürrey AUKİNKLOS,***
***BP şirkətinin baş icraçı direktoru***

*

**Möhtərəm cənab Prezident.**

Prezident seçkilərində möhtəşəm qələbəniz münasibətilə Sizi təbrik edirəm. Sizə artıq Türk dünyasının Milli Qəhrəmanı deyə müraciət edə bilərik. Bu qələbə xalqın Sizə olan böyük hörmətinin, ehtiramının və inamının göstəricisidir.

Siz son 20 illik fəaliyyətinizlə dövlətinizi dünyada böyük nüfuz və söz sahibinə çevirdiniz. Siz on milyonlarla azərbaycanlının 30 illik Qarabağ həsrətinə elə bir ustalıqla son qoydunuz ki, bütün dünya buna heyran oldu, dostlar sevindilər, düşmənlər isə hikkələrindən boğuldular. Siz Ali Baş Komandan kimi bu möhtəşəm hərbi Qələbənizlə dünyaya separatizmin kökünü kəsməyin ən bariz nümunəsini göstərdiniz. Bu qələbələrinizi həzm edə bilməyən bəzi mənfur qüvvələr anlamalıdırlar ki, Sizin arxanızda dünyada yaşayan 50 milyondan çox azərbaycanlı dayanır. Sizə yeni prezidentlik dönəmində Azərbaycan naminə görəcəyiniz işlərdə uğurlar arzulayıram.

Möhtərəm cənab Prezident, mən bir müddət Azərbaycanda yaşamışam və bu ölkə mənə ikinci vətəndir. Dayanıqlı inkişafa və suverenliyin möhkəmlənməsinə söykənən bu qələbəniz hər birimizin uğurudur. Sizi bir daha təbrik edirəm. Nailiyyətləriniz hər zaman bol olsun, cənab Prezident!

**Hörmətlə,**

***Aleksandr Şapiro-SULİMAN,***
***"İsrailin Dostları" Xaricdə Yaşayan Həmvətənlər Federasiyasının prezidenti, sülh səfiri, Dünya Xalqları Alyansının baş katibi, fəlsəfə və humanitar elmlər doktoru***

*

**Hörmətli İlham Heydər oğlu.**

Çoxmillətli Qaraçay-Çərkəz xalqı adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz xalqınızın həqiqi lideri, müdrik rəhbərsiniz. Müasir və dinamik inkişaf edən Azərbaycanın uğurları haqlı olaraq Sizin adınızla əlaqələndirilir.

Əminəm ki, Azərbaycan ilə Qaraçay-Çərkəz Respublikasının ikitərəfli əməkdaşlığı gələcəkdə də möhkəmlənəcək və respublikalarımızın sosial-iqtisadi inkişafına imkan yaradacaq, xalqlarımızın maraqlarına xidmət edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən Azərbaycan Respublikasının Prezidenti vəzifəsində yeni-yeni uğurlar, səadət, möhkəm cansağlığı, doğmalarınıza və yaxınlarınıza əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***Rəşid TEMREZOV,***
***Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı***

*

**Hörmətli İlham Heydər oğlu.**

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda seçkilərin nəticələri milli lider kimi xalqın Sizə göstərdiyi çox böyük etimadın bariz sübutu və son iyirmi ildə Sizin rəhbərliyinizlə dövlətinizin bir çox sahələrdə və beynəlxalq miqyasda əldə etdiyi uğurların əyani təsdiqidir.

Rusiya həmkarlar ittifaqları Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyətinizi və həmkarlar ittifaqı hərəkatına dəstəyinizi yüksək qiymətləndirir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və ali dövləti vəzifədə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq arzu edirik.

**Hörmətlə,**

***Mixail ŞMAKOV,***
***Rusiyanın Müstəqil Həmkarlar İttifaqları Federasiyasının sədri***

*

**Möhtərəm cənab Prezident.**

Müstəqil və bölünməz Azərbaycanın Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Seçkilərin nəticəsi heç kimdə şübhə doğurmurdu. Xalq onu 30 illik natamamlıq kompleksindən xilas edən Liderə səs verdi.

Sizin regionda liderliyiniz cəmiyyət həyatının bütün sahələrində yüksək nəticələrə nail olmaq səylərində parlaq səmərəli idarəçilik örnəyinə çevrilib. Azərbaycan Sizin rəhbərliyinizlə iqtisadiyyatda, sosial sahədə, milli təhlükəsizlikdə və digər istiqamətlərdə böyük uğurlar qazanıb.

Sizin müasir geosiyasi çağırışlara istiqamətlənmiş strateji baxışınız ölkəyə davamlı iqtisadi artıma, xarici iqtisadi əlaqələrin genişləndirilməsinə və böyük investisiyalar cəlb edilməsinə nail olmağa imkan verib. Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar sayəsində Azərbaycan bir çox ölkələr üçün cəlbedici tərəfdaşa çevrilib. Demokratiyanın inkişafı, vətəndaşların hüquq və azadlıqlarının möhkəmləndirilməsi, həmçinin mədəniyyət və təhsilin, elm və səhiyyənin dəstəklənməsinə yönəlmiş səyləriniz Azərbaycan vətəndaşlarının həyat səviyyəsinin yüksəlməsinə kömək edir. Beynəlxalq hüquq prinsiplərinə əsaslanan müdrik xarici siyasətiniz regionda təhlükəsizliyin və sabitliyin təmin edilməsində mühüm rol oynayır. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan inkişaf yolunu davam etdirəcəkdir.

İcazə verin, inamlı qələbə münasibətilə ən səmimi təbriklərimi bir daha bildirim və Sizə möhkəm cansağlığı, əmin-amanlıq, ölkəyə və xalqa xidmət üzrə fəaliyyətinizdə uğurlar diləyim.

**Dərin ehtiramla, həmişə Sizin,**

***Məmməd ƏLİYEV,***
***Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, "Dostluq", "Şöhrət" ordenləri, Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya Federasiyasının dövlət mükafatı laureatı, Rusiya Hökumətinin mükafatı laureatı, Rusiyanın Əməkdar elm xadimi***

*

**Möhtərəm Prezident, cənab Müzəffər Ali Baş Komandan.**

Azərbaycan Respublikasında keçirilən növbədənkənar prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Yenidən Prezident seçilməyiniz Azərbaycan cəmiyyətinin Sizə olan yüksək etimadının daha bir təsdiqidir.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə bütün sahələrdə yüksək nəticələr qazanır, beynəlxalq arenada nüfuzunu möhkəmləndirir. Sizin uğurlu liderliyinizlə Azərbaycanın əmin addımlarla əldə etdiyi inkişaf bizi daim sevindirir. Ali Baş Komandanlığınızla işğal altındakı torpaqlarımızın azad edilməsi və ölkəmizin beynəlxalq aləmdə getdikcə artan nüfuzu qəlbimizi qürur hissi ilə doldurur.

Heç şübhəsiz, Sizin bu ali vəzifədə fəaliyyətiniz dövlətçiliyin əsaslarının hərtərəfli möhkəmlənməsinə xidmət edəcək. Əminik ki, həyata keçirdiyiniz siyasət ölkəmizə daha böyük uğurlar və qələbələr gətirəcəkdir.

Cənab Prezident, Siz xaricdəki Azərbaycan diasporuna daim diqqət göstərirsiniz. Bu diqqət ölkəmizin xaricdə təbliği işində bizi hər zaman ruhlandırır. ABŞ-da yaşayan Azərbaycan diaspor nümayəndələri olaraq bundan sonra da Vətənimizi qürurla təbliğ edəcəyik.

Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

**Dərin hörmətlə,**

***Azərbaycan Amerika Alyansının İdarə Heyəti və üzv təşkilatları:***

***Minəvvər VAHABOVA,***
***Nyu-York Azərbaycan Amerika Qadınlar Assosiasiyasının sədri***

***Adika İQBAL,***
***Azərbaycan Dostluq Təşkilatının sədri,***

***Əsmər QARAYEVA,***
***Yuta Azərbaycan İcmasının sədri,***

***Aynur AĞAYEVA,***
***Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Cəmiyyətinin sədri,***

***Əli ƏSGƏROV,***
***"Birləşmiş Azərbaycan Evi"nin sədri,***

***Esmira BAYRAMOVA,***
***Florida Azərbaycan Amerika Cəmiyyətinin sədri,***

***Ercan YERDELENLİ,***
***Azərbaycan Nyu-York Assosiasiyasının sədri,***

***Fərid MƏMMƏDOV,***
***Midvest Amerika Azərbaycan Mərkəzinin sədri,***

***Günay MƏMMƏDOVA,***
***Azərbaycan – Amerika Gənclər Federasiyasının sədri,***

***İradə AXUNDOVA,***
***Azərbaycan Mərkəzinin rəhbəri,***

***Cəmilə Cavadova-SPİTZBERQ,***
***Azərbaycan – Amerika Musiqi Fondunun rəhbəri,***

***Nərgiz ƏLİYAROVA,***
***Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin sədri,***

***Nabat EMİNOVA,***
***Azərbaycan – Amerika Gənclər Assosiasiyasının sədri,***

***Rauf ŞAHBAZOV,***
***Azərbaycan Amerika Tibb Assosiasiyasının həmtəsisçisi,***

***Samir NOVRUZOV,***
***ABŞ – Azərbaycan İnteqrasiya Mərkəzinin rəhbəri***

***Tərlan ƏHMƏDOV,***
***Men Azərbaycan Cəmiyyətinin sədri***

***Telman CƏLİL,***
***Azərbaycan Nyu-York Mədəniyyət Mərkəzinin rəhbəri,***

***Töhfə EMİNOVA,***
***Florida Azərbaycan – Amerika Mədəniyyət Assosiasiyasının rəhbəri.***

***Amerika Birləşmiş Ştatları.***

*

**Hörmətli cənab Prezident.**

"Xarı Bülbül" Azərbaycan Mədəniyyət Evi adından növbədənkənar prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edir, ən xoş arzularımızı çatdırırıq. Bu qələbə Azərbaycan xalqının birliyinin, haqq və ədalətin qələbəsidir.

Möhtərəm Prezident, ölkəmizin suverenliyinin bərpası, tarixi torpaqlarımızın geri qaytarılması, iqtisadiyyatımızın inkişafı, xalqın rifahı, əmin-amanlığı Sizin müdrik siyasətinizin və qətiyyətinizin nəticəsidir. Biz dünya azərbaycanlıları hansı ölkədə olmağımızdan asılı olmayaraq, hər birimiz azərbaycanlı olduğumuz üçün fəxr edirik. Bu qüruru bizə yaşatdığınıza görə Sizə hər zaman minnətdar olacağıq və daim Sizi dəstəkləyəcəyik.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, Azərbaycanın rifahı naminə görəcəyiniz işlərdə yeni uğurlar arzulayırıq.

**Hörmətlə,**

***Sevda BADALİOURİ,***
***"Xarı Bülbül" Azərbaycan Mədəniyyət Evinin sədri.***

***Saur KADİRLİ,***
***Almaniya Azərbaycanlıları Alyansının İdarə Heyətinin üzvü.***

***Almaniya Federativ Respublikası, Berlin şəhəri.***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri, hörmətli Prezident.**

Bütün futbol ictimaiyyəti adından yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi arzularımı qəbul etməyinizi xahiş edirəm. Bu, ölkənizin Sizin liderliyinizə olan etimadının göstəricisidir.

Azərbaycanın sabitliyinə və iqtisadi inkişafına olan sadiqliyiniz, liderlik məharətiniz və şəxsi keyfiyyətləriniz son illərdə ölkənizi irəliyə doğru aparmaqda çox mühüm rol oynayıb. Şübhə etmirəm ki, yeni Prezidentlik dövrünüzdə Siz ölkənizin sabit inkişafına və tərəqqisinə mühüm töhfələr verməkdə davam edəcəksiniz.

Mən, həmçinin ölkənizdə futbolun inkişaf etdirilməsi və onun dəyərlərinin təşviqi istiqamətindəki bütün səylərinizə görə Sizə və hökumətinizə təşəkkürümü bildirmək istəyirəm. Sizin səyləriniz mədəni və ictimai maneələrin aradan qaldırılmasında futbolun əhəmiyyətini, eləcə də onun bütün sərhədləri aşan və inklüzivliyi qəbul edən bir idman növü olduğunu nümayiş etdirir.

Sizə yeni mandatınız dövründə fəaliyyətinizdə uğurlar və tükənməz enerji arzu edirəm. Cənab Prezident, tezliklə yenidən görüşüb Sizi şəxsən təbrik etməyi səbirsizliklə gözləyirəm.

**Hörmətlə,**

***Canni İNFANTİNO,***
***Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti***

*

**Hörmətli cənab Prezident.**

Növbədənkənar prezident seçkilərində xalqımız bir daha Azərbaycan Respublikasının Prezidenti vəzifəsini Sizə etibar etdi. Sizin keçdiyiniz yolun, bütün sahələrdə yürütdüyünüz müdrik daxili və xarici siyasətin alternativinin olmadığını göstərdi.

Biz - “Azərbaycan Kültür Qarabağ Dərnəyi” cəmiyyətinin üzvləri, seçkilərin qalibi olan Sizi ürəkdən təbrik edirik.

Ümid edirik ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi yol uğurla davam etdiriləcək və ardıcıl qələbələr davamlı olacaq.

Cənab Prezident, otuz il erməni tapdağında qalan torpaqlarımızın azad olunmasında əsl sərkərdəlik şücaəti nümayiş etdirdiniz. İqtidar-Xalq birliyi bu günümüzün və gələcəyimizin xoşbəxtliyinin təminatçısıdır.

Sizi bir daha ürəkdən təbrik edirik və müvəffəqiyyətlər arzulayırıq. Vətənimizə firavanlıq, sülh və əmin-amanlıq diləyirik.

**Hörmətlə,**

***Abdulla Amir HAŞİMİ (Cavanşir),***
***“Azərbaycan Kültür Qarabağ Dərnəyi”.***
**İsveç Krallığı, Stokholm şəhəri.**

*

**Hörmətli cənab Prezident.**

Müstəqillik dövründə ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində keçirilən növbədənkənar prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımızı bildirməkdən sonsuz məmnunluq duyuram.

Sizin liderliyinizlə torpaqlarımızın işğaldan azad edilməsi, beynəlxalq aləmdə ölkəmizin getdikcə artan nüfuzu və əhəmiyyəti biz Norveç azərbaycanlıları üçün daim qürurverici olub.

Sizə möhkəm cansağlığı, tükənməz güc-qüvvət, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, xalqımıza isə sülh və əmin-amanlıq arzulayırıq.

Bu arzularla zəfərinizin həm Azərbaycan xalqı, həm də bölgəmiz üçün xeyirli olmasını diləyirəm. Sizə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

**Hörmətlə,**

***Əliyev RAMİL,***
***Oslo Azərbaycan Evinin sədri.***
**Norveç Krallığı, Oslo şəhəri.**

*

**Möhtərəm Prezident.**

Qırğızıstanda yaşayan azərbaycanlılar, o cümlədən ötən əsrin 30-cu illərində repressiyaya məruz qalan azərbaycanlılar adından Sizi inamlı qələbəniz və xalqın mütləq etimadını qazanmağınız münasibətilə təbrik edirəm. Biz xoşbəxtik ki, Siz bizim Prezidentimiz, uzun illər düşmən işğalında olan torpaqlarımızı azad edən, qürurumuzu qaytaran Liderimizsiniz.

Cənab Prezident, Siz və atanız - Azərbaycanın Ulu Öndəri ölkənin və xalqın uğurlu taleyini müəyyənləşdirdiniz. Sizin adlarınız Azərbaycanın min illik tarixinə qızıl hərflərlə yazılıb.

Biz Qırğızıstanda yaşayan azərbaycanlılar ölkəmizdəki prosesləri diqqətlə izləyir, Sizin siyasətinizi dəstəkləyir və dünyadakı yüksək nüfuzunuzla fəxr edirik.

Biz Ulu Öndərimiz Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayında səsləndirdiyi “Harada yaşamağınızdan asılı olmayaraq Azərbaycanı təmsil edirsiniz, yaşadığınız ölkənin layiqli vətəndaşı olun” vəsiyyətinə əməl edirik.

Qırğızıstan azərbaycanlıları Sizə və gözəl ailənizin üzvlərinə cansağlığı, xoşbəxtlik və uzun ömür arzulayır. Siz Azərbaycanın xoşbəxt gələcəyinin qarantısınız.

**Hörmətlə,**

***Alaferdov AKİF,***
***“Qırğızıstan-Azərbaycan” Dostluq və Əməkdaşlıq Birliyinin sədri, Qırğız Respublikasının Əməkdar həkimi.***
**Qırğız Respublikası, Bişkek şəhəri.**

*

**Hörmətli cənab Prezident,**

Fevralın 7-də keçirilən növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin müvəffəqiyyətlə başa çatması münasibətilə Xarici İqtisadi Əlaqələr Komitəsinin tərkibində fəaliyyət göstərən Dünya Türk İş Şurası adından Sizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Ali Baş Komandan olaraq rəhbərliyinizlə şanlı Ordunuzun Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağı və ətraf rayonları 30 illik işğaldan azad etməsi, ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması, uzaqgörən siyasətiniz və müdrik liderliyiniz sayəsində Azərbaycanın regionda, eləcə də beynəlxalq aləmdə nüfuzunun artması bizdə böyük məmnunluq doğurur.

Sizin qətiyyətli liderliyiniz və çoxşaxəli fəaliyyətiniz sayəsində Azərbaycanın keçdiyi misilsiz inkişaf yoluna 20 ildən çoxdur şahid oluruq. Azərbaycan Respublikasının bu gün bütün sahələrdə mühüm uğurlara imza atması və hərtərəfli inkişaf yolu keçərək güclü və qüdrətli dövlət olması bizi səmimi-qəlbdən sevindirir və ruhlandırır.

Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətləri xalqlarımızın rifahı və ölkələrimizin dinamik inkişaf maraqlarına uyğun olaraq bundan sonra daha da yüksələn xətlə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Zati-aliləri, bir daha Sizə qələbə münasibətilə ən səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, yeni-yeni müvəffəqiyyətlər, qardaş Azərbaycan xalqına isə daim tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Barış ALTIPARMAK,***
***Dünya Türk İş Şurasının Azərbaycandakı nümayəndəsi***
**Azərbaycan Respublikası, Bakı şəhəri.**

*

**Möhtərəm cənab Prezident.**

Fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi şəxsən öz adımdan və Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin üzvləri adından ürəkdən təbrik edirəm. Sizin qələbəniz bütün Azərbaycan xalqının qələbəsidir. Əminik ki, bundan əvvəlki fəaliyyətiniz dövründə olduğu kimi, bundan sonra da Azərbaycan xalqına və dövlətinə böyük uğurlar, yeni-yeni zəfərlər qazandıracaqsınız.

Sizə və xalqımıza xoşbəxt günlər və işıqlı gələcək arzulayıram.

**Hörmətlə,**

***Muradov MURAD,***
***Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin İcraçı direktoru.***
**Marneuli şəhəri, Gürcüstan.**

*

**Hörmətli cənab Prezident.**

Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) İdarə Heyətinin adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram. Bu ali dövlət vəzifəsinə yenidən seçilməyiniz tarixi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının müstəqillik tarixində ilk dəfədir ki, prezident seçkiləri ölkənin bütün ərazisində keçirildi.

Cənab Prezident, son illər ərzində Sizin rəhbərliyinizlə Azərbaycan dünya miqyasında güc mərkəzinə çevrilib və irəliyə doğru inamla addımlayır. Sizin misilsiz rolunuz və əvəzsiz xidmətləriniz nəticəsində Azərbaycan beynəlxalq arenada özünü etibarlı tərəfdaş, sadiq dost ölkə kimi təsdiq edə bilib. Eyni zamanda, regional və beynəlxalq münasibətlərdə də ölkəmizin nüfuzu artmaqdadır. Sosial-iqtisadi siyasətiniz, genişmiqyaslı islahatlar və böyük quruculuq işləri vətəndaşların hər bir sahədə rifahının yüksəlməsinə, iqtisadi tərəqqiyə səbəb olub. Azərbaycan xalqı Sizin müdrik və uzaqgörən siyasətinizi prezident seçkilərində seçimi ilə bir daha yüksək dəyərləndirdi, bu siyasətə dərin inamını ifadə etdi.

Şübhəsiz ki, Sizin liderliyinizlə Azərbaycan gələcəkdə də yeni uğurlara imza atacaq və şanlı zirvələri fəth edəcəkdir.

Sizə vətən, xalq naminə görəcəyiniz işlərdə müvəffəqiyyət arzulayır, ən dərin ehtiramımızı çatdırıram.

**Hörmətlə,**

***Nəriman QURBANOV,***
***Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) İdarə Heyətinin sədri.***
**Gürcüstan, Tbilisi şəhəri.**

*

**Hörmətli cənab Prezident.**

2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində qalib gəlməyiniz münasibətilə “QALA” Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin idarə heyəti və kollektivi adından, şəxsən öz adımdan səmimi təbriklərimi qəbul edin. Biz, Yunanıstanda yaşayan azərbaycanlılar öz vətənimizlə və liderimizlə fəxr edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan regionda sabitliyə və sülhün möhkəmlənməsinə misilsiz töhfə verir. Seçdiyiniz siyasi kurs həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda bizim vətəndaşların həyatının daim yaxşılaşdırılmasına yönəlib.

Cənab Prezident, Sizə dərin ehtiramımı bildirir, xoşbəxtlik, möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar, xalqımıza sülh və firavanlıq arzu edirəm.

**Hörmətlə,**

***Rəşid MƏMMƏDOV,***
***“QALA” Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri.***
**Yunanıstan Respublikası, Saloniki şəhəri.**

*

**Hörmətli cənab Prezident.**

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Almaniyada yaşayan azərbaycanlılar adından Sizi səmimi-qəlbdən təbrik edirik. Namizədliyinizin təkcə Azərbaycanda deyil, həmçinin dünyada yaşayan azərbaycanlılar tərəfindən hərtərəfli dəstəklənməsi bu xalqın tək bir Liderinin olduğunun göstəricisidir. Biz çox şanslı xalqın nümayəndələriyik ki, Sizin kimi dövlət başçımız var.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, uzun ömür, ölkəmizin tərəqqisi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

**Hörmətlə,**

***Lalə MƏMMƏDLİ,***
***Alman-Azərbaycan Dostluq Cəmiyyətinin sədri.***
**Almaniya Federativ Respublikası, Hannover şəhəri.**

*

**Çox hörmətli cənab Prezident.**

Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbə qazanmağınız münasibətilə Sizi Solikamsk şəhərindəki Azərbaycan diasporunun üzvləri və şəxsən öz adımdan təbrik edirəm.

Bu uğur ölkə vətəndaşlarının Sizə böyük etimadının və dəstəyinin təsdiqidir. Səsvermənin nəticələri seçicilərin güclü və firavan Azərbaycan quruculuğu istiqamətində ardıcıl həyata keçirilən kursla yüksək həmrəyliyini göstərdi. Əminəm ki, Sizin dövlət başçısı kimi məsul vəzifədə fəaliyyətiniz ölkənin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun daha da güclənməsini təmin edəcəkdir.

Böyük siyasi təcrübəniz və yüksək peşəkarlığınız mürəkkəb problemləri Azərbaycan xalqının mənafeyinə uyğun olaraq qətiyyətlə və ardıcıl şəkildə həll etməyə imkan verir.

Sizə şərəfli işinizdə uğurlar arzulayırıq və səmərəli əməkdaşlığa ümid edirik. Biz ümumi məqsəd və məqsədlərə nail olmaq üçün birgə işləməyə hazırıq.

**Hörmətlə,**

***Əfəndiyev Uğur Rəfail oğlu,***
***Solikamsk şəhərindəki Azərbaycan icmasının sədri***
**Rusiya Federasiyası, Perm diyarı, Solikamsk şəhəri**

*

**Hörmətli cənab Prezident,**

Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının çoxsaylı üzvləri adından növbəti dəfə Prezident seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirik.

Azərbaycanımızın dünya dövlətləri sırasında mövqeyinin daha da möhkəmlənməsi, işğaldan azad olunmuş torpaqlarımızın tezliklə bərpa olunması və xalqımızın rifah halının daha da yüksəldilməsi kimi çətin və mühüm işlərinizdə Sizə müvəffəqiyyətlər arzulayırıq.

Ulu Tanrı Sizi və dövlətimizi qorusun!

**Hörmətlə,**

***Ədalət TURAN,***
***Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası İdarə Heyətinin sədri.***
**Türkiyə Respublikası, İstanbul şəhəri.**

*

**Hörmətli cənab Prezident.**

Biz Fransanın Nant şəhərində yaşayan azərbaycanlılar adından Sizi bu mühüm qələbə münasibətilə ürəkdən təbrik edirik.

Biz qürurluyuq, çünki 31 il sonra bütöv bir Azərbaycan olaraq bu möhtəşəm, tarixi seçkilərdə iştirak etdik və Qalib Xalq olaraq Qalib Prezidentimizi seçdik.

Cənab Prezident, Fransada həmvətənlərimizin ən çox yaşadığı Nant şəhərindən Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, xalqımıza isə sülh, əmin-amanlıq arzulayırıq.

**Hörmətlə,**

***Fransız-Azərbaycan Mədəniyyət Təşkilatı (ACAF)***
**Fransa, Nant şəhəri.**

*

**Hörmətli cənab Prezident.**

Seçkilərdə qazandığınız inamlı və parlaq qələbə münasibətilə Meksikadakı Azərbaycan icması olaraq Sizi ürəkdən təbrik edirik. Bu seçkilər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Bütöv respublikamızda keçirilən seçkilər Sizin müdrik və uzaqgörən siyasətinizin şah əsəridir.

Siz Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu layiqincə davam etdirərək ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdiniz.

Cənab Prezident, Vətənimiz Azərbaycanın daha da qüdrətlənməsi naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirik və inanırıq ki, ölkəmizi daha uca zirvələrə qaldıracaqsınız.

Yolunuz hər zaman açıq olsun!

Hörmətlə,

***Meksikadakı Azərbaycan icmasının üzvləri:***
***Atakişiyev NATİQ,***
***Atakişiyeva SEVİNC,***
***Qafarova LALƏ,***
***Məmmədov ÇİNGİZ,***
***Məmmədova ULDUZ,***
***Qafarov FƏRHAD,***
***Verdiyeva SEVDA,***
***Verdiyev MEHMAN,***
***Mehtiyeva GÜLNARƏ,***
***Martinez OSMAN,***
***Saadova KRİSTİNA,***
***Babayeva NANA,***
***Rzayev EMİL,***
***Verdiyeva AYSEL.***
**Meksika Birləşmiş Ştatları.**

*

**Hörmətli cənab Prezident.**

Sizi Tbilisidə fəaliyyət göstərən “Alyans” Gənclər Mərkəzinin işçi və tələbə heyəti adından növbədənkənar prezident seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə səmimi-qəlbdən təbrik edirik. Bu zəfər dünya azərbaycanlılarının Zəfəridir. Siz bütün dünya azərbaycanlılarının Prezidentisiniz. Gürcüstan azərbaycanlıları milli Vətənimiz Azərbaycanın dəstəyini daim hiss edir. Bizə göstərdiyiniz qayğı və diqqət üçün Sizə təşəkkürümüzü bildiririk.

Cənab Prezident, Sizin prezidentliyiniz dövründə Azərbaycan uğurların və sabitliyin parlaq nümunəsinə çevrilmiş, regionda və onun hüdudlarından kənarda öz rolunu və əhəmiyyətini gücləndirmiş, ərazi bütövlüyünü və suverenliyini bərpa etmişdir. Bundan sonrakı fəaliyyətinizdə də Sizə bol uğur, möhkəm cansağlığı və müvəffəqiyyət arzu edirik.

**Hörmətlə,**

***Tbilisi şəhər “Alyans” Gənclər Mərkəzinin idarə heyəti Rəna HÜSEYNOVA və Leyla ƏMRAHOVA***
**Gürcüstan, Tbilisi şəhəri.**

*

**Möhtərəm cənab Prezident.**

Fevralın 7-də xalqımız öz seçimini etdi, yenilməz, müzəffər Liderini seçdi. Siz bizim qürur mənbəyimizsiniz, daim bizə fəxarət hissləri yaşadırsınız. Bu seçkilərə də fəxr və qürur hissi ilə getdik.

Berlin şəhərində Sizə səs verərkən Almaniyada yaşayan azərbaycanlıların, bu ölkədə təhsil alan gənclərimizin səsvermədə necə fəxr hissi ilə iştirakını izlədikcə qəlbim dağa döndü. Belə gözəl hisslər yaşadığıma görə Sizə minnətdaram.

“Biz - Zəfər yoluna davam” təşəbbüs qrupunun üzvü, Dünya Azərbaycanlı Alimlər Birliyinin həmsədri kimi bütün həmkarlarımın adından və şəxsən öz adımdan Sizi inamlı qələbə münasibətilə təbrik edir, Azərbaycanımızın xoşbəxt gələcəyi naminə fəaliyyətinizdə Sizə cansağlığı və uğurlar arzulayıram.

Allah müzəffər xalqımızı və Sizi qorusun!

**Hörmətlə,**

***Əfəndiyev MƏSUD,***
***Azərbaycanın Əməkdar elm xadimi, “Aleksander fon Humboldt” mükafatını alan ilk azərbaycanlı, professor.***
**Almaniya Federativ Respublikası, Münxen şəhəri.**

*

**Hörmətli cənab Prezident.**

Sizi Rostov vilayətində yaşayan azərbaycanlılar icması adından fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində inamlı qələbə qazanmağınız münasibətilə ürəkdən təbrik edirəm. Sizin müdrik rəhbərliyinizlə ölkəmiz böyük uğurlar qazanmışdır.

Əminik ki, bundan sonra da Siz Azərbaycana yeni nailiyyətlər, qələbələr qazandıracaqsınız. Qüdrətli ölkəmizin gələcək inkişafı naminə şərəfli fəaliyyətinizdə Sizə uğurlar arzulayırıq!

Siz qalib ölkənin qalib Liderisiniz!

Biz hər zaman Sizinlə fəxr edirik!

**Hörmətlə,**

***Allahverdiyev ŞAKİR,***
***Rusiyanın Rostov vilayətində yaşayan azərbaycanlılar icmasının sədri***
**Rusiya Federasiyası, Rostov şəhəri.**

*

**Hörmətli İlham Heydər oğlu.**

Azərbaycan Prezidenti seçkilərində qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Uca Yaradan Sizə dahi rəhbərə xas olan möhkəm iradə, xalqına sədaqət və uzaqgörənlik nəsib edib.

Bu parlaq qələbə həmrəyliyi və azərbaycanlıların öz milli Liderinə inamını, Sizin rəhbərliyinizlə ölkənin nail olduğu möhtəşəm uğurların onlar tərəfindən yüksək qiymətləndirildiyini əks etdirir.

Bu gün Azərbaycan geniş beynəlxalq əlaqələrə və dinamik iqtisadiyyata malik müasir, inkişaf edən dövlət, Türk dünyasının nüfuzlu liderlərindən biri və regionun hərəkətverici qüvvəsidir. Siz Prezident vəzifəsində ölkəni bütövləşdirməyə və möhkəmləndirməyə nail oldunuz, xalq isə bu səyləri layiqincə dəyərləndirdi.

**Dərin hörmətlə,**

***Alişer USMANOV,***
***Rusiyalı sahibkar***

# Yeni tarixi mərhələdə milli ideya və milli ideologiya



(əvvəli 1-ci səhifədə)

II MƏQALƏ

*(I məqalə XQ-nin 13 yanvar 2024-cü il tarixli nömrəsində)*

**Yeni dövrün yeni hədəfləri olmalıdır. Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi.**

**İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti**

Deməli, Prezidentin "Azərbaycanda yeni dövr başlayır" fikri milli ideya və milli ideologiyanın mərkəzi müddəasıdır. Bu istiqamətdə aparılacaq fəlsəfi və siyasi-nəzəri araşdırmalarda bu tezis ana xətt kimi keçməli, aparıcı və istiqamətverici fikir rolunu oynamalıdır. Bu isə o deməkdir ki, bizim yanaşmamızda ümumfəlsəfi analitik təfəkkürün Azərbaycan təcrübəsinə "yüklədilməsi" abstraktlıqdan–milli ideyaya doğru istiqamətlənməsi deyil, milli ideyanın Azərbaycan təcrübəsindən fəlsəfi ümumiləşdirmələrə istiqamətlənməsi aparıcılıq təşkil edir.

Beləliklə, məsələyə yeni dövrün özəllikləri kontekstində yeni milli ideyanın konkret Azərbaycan təcrübəsinin fəlsəfi təhlili prizmasından yanaşırıq. Məhz buna görə biz I məqalədə tarixi ədalət, milli qürur və beynəlxalq hüquq faktorlarını araşdırmanın mərkəzinə gətirmişik. Bunlar 3 sütun – təməl prinsiplərdir. Onların fəlsəfi analizinin daha aydın dərk edilməsi üçün öncə, "yeni tarixi mərhələ" tezisinin fəlsəfi izahını vermək lazımdır.

### Dövlətçilik şüurunda mühüm aspekt – tarixiliyin və müasirliyin zaman kəsişməsi

Biz məsələni daha da nəzərildəşdirmirik. Məsələyə dövlətçilik şüuru prizmasında baxmaqla milli ideya kontekstində "başa çatmış mərhələ"dən "yeni mərhələyə" keçidin real ideya transformasiyasının fəlsəfi obrazını yaratmağa çalışırıq. Milli ideya və milli ideologiyada Heydər Əliyev – İlham Əliyev xətti özlüyündə çoxaspektli dinamik prosesdir. Bu xətt davamlı transformasiyaları özündə ehtiva edir və onu bu cür ümumiləşdirici təfəkkürlə adekvat ifadə etmək mümkündür. Konkret faktların prizmasında bu tezisi əsaslandıra bilərik.

Öncəki məqalədə vurğuladığımız kimi milli ideya təfəkkür hadisəsi kimi milli özşüur məsələsinə dayanır. Milli özşüur fərdlərin və onların əməl ə gətirdiyi kollektivin özünüdərki, sosial münasibətləri anlama tərzi, cəmiyyəti və dövləti dərketmə səviyyəsi, dünya duyumu və digər faktorlarla bağlı olduğundan bütövlükdə dövlətçilik şüurunun tərkib hissəsi kimi təsəvvür edilə bilər. Milli özşüur faktiki olaraq fərdi şüurla toplum şüuru arasında münasibətləri yığcam ifadə edir. Deməli, hər hansı milli ideyaya dövlətçilik şüuru prizmasında baxmaq lazım gəlir.

Müasir mərhələdə dövlətçilik şüurunun özü iərarxik struktura malikdir və funksional olaraq mürəkkəbdir. Onda bu fenomenin aparıcı elementlərini müəyyən etmək zərurəti meydana çıxır. Milli ideya aspektində bu, faktiki olaraq hər tarixi dönəmdə dövlətçilik şüuru üçün daha aktual olan faktorların müəyyən edilməsi deməkdir. Lider bu baxımdan yaşadığı tarixi dönəmdə dövlətçilik şüurunun elə elementlərini aktuallaşdırmalıdır ki, yekunda milli ideyaya xidmət etsin. Bunun üçün mütləq keçilmiş tarixi mərhələni həm də fəlsəfi olaraq yaxşı anlamaq lazımdır. Prezident İlham Əliyev fəaliyyətinin konkret punktları ilə bunları daim anlatmışdır. Əlavə olaraq da yerli telekanallara verdiyi son müsahibədə onun fəlsəfi, siyasi-nəzəri və realpolitik aspektlərini gözəl izah etmişdir.

### 1993-2003-cü illər – milli ideyanın başlanğıcı və bir mərhələnin sonu

Azərbaycan xalqının 1993-cü ildəki siyasi seçimi milli ideyanın müstəqil dövlət quruculuğu kontekstində formalaşmasına və onun mükəmməl baza ideologiyaya çevrilməsinə təkan verdi. İndiki yol məhz o dövrdən başlayır. İlham Əliyev bu fikri belə ifadə edir: "Bugünkü reallıqları biz 2003-cü ildə yox, 1993-cü ildə müqayisə etməliyik". Bu tarixi ədalətin bərpasına aparan, milli qüruru yenidən canlandıran və beynəlxalq hüququ təmin edən milli ideyanın başlanğıc mərhələsi idi. 1993-cü ildə milli ideya xilasediciliklə ərazi bütövlüyünün təmini sintezindən yarandı. Xilasedicilikl ə ərazi bütövlüyünün bərpası quruculuq və birləşdiricilik prinsipləri çərçivəsində konkret məzmunlaşırdı. Bu aspektləri azərbaycançılıq məfkurəsi ideologiya səviyyəsində mükəmməl surətdə vahid bir məzmun, semantik və funksional sistemdə birləşdirdi. Bununla milli ideyanın əraziləri azad etmək qayəsi ilə xalqın bu ideya ətrafında birləşməsi vahid bir ideoloji sistemdə təcəssümünü tapdı. Bu proses 2003-cü il ə kimi Ulu öndərin rəhbərliyi ilə rəvan və ardıcıl olaraq inkişaf etdirildi, lazım olan səviyyədə təkmilləşdi.

2003-cü ildə isə taleyin hökmü ilə Azərbaycan xalqı ikinci dəfə tarixi seçim etmək qarşısında qaldı. Prezident İlham Əliyev bununla bağlı demişdir: "Əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi. Çünki hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi".

Seçimin tarixiliyinin əlamətlərindən biri cəmiyyətin liderin güclü olmasının həqiqətini tam qəbul etməsidir. Bu məsələ, adətən, dərindən dərk edilmir. Hesab edilir ki, hər bir cəmiyyət üçün güclü liderlik tələb olunan faktordur. Lakin əsas məsələ ondan ibarətdir ki, cəmiyyətin dövlətçilik və liderlik ənənəsi heç də həmişə bu istiqamətdə düzgün seçim edə bilmir, yəni məhz "hansı keyfiyyətlərə malik lideri güclü hesab etmək olar?" sualına dövrün tələblərinə uyğun cavab tapa bilmir. Nümunə kimi politoloq və diplomat Arçi Braunun Amerika üçün "güclü lider kimdir?" sualına adekvat cavab tapa bilmədiyini göstərə bilərik. O, amerikalıların bir qisminin D.Trampı güclü lider kimi qəbul etdiyi halda, digər qismin onun dövlətçilik üçün təhlükəli fiqur olduğundan bəhs edirdi. Bu dilemmanı ABŞ cəmiyyəti hələ də həll edə bilməmişdir. Amerikalı siyasətçilər qarşıdakı seçkidə D.Trampın qalib gələ biləcəyini faciə kimi qarşılayırlar. Cəmiyyət elektoratının bir hissəsi də bu fikirdədir.

Hesab edirik ki, xalqın düzgün seçimində əsas rollardan birini Heydər Əliyev anlamında "Azərbaycan ideyası" və azərbaycançılıq ideologiyası oynadı. Toplum artıq bu mənəvi-ideoloji prosesin konstruktiv rolunu tam anlayır və ona uyğun seçim edirdi. Müstəqil dövlət quruculuğunun milli ideya və milli ideologiya aspektində ilk böyük qələbəsi bundan ibarətdir. Bu qələbənin konkret parametrlərini də Prezident İlham Əliyev müsahibəsində lakonik ifadə etmişdir. Onlar dövlətçilik prinsiplərinin bərqərar olması, vətəndaş cəmiyyətinin yaradılması və xalq-iqtidar birliyinin dövlətçilik şüurunda önəmli amilə çevrilməsi idi.

Bütün bu nailiyyətlər milli ideyaya necə təsir etdi? Ümumi halda bu ideya dəyişdimi? Birinci mərhələnin xarakterik xüsusiyyəti məhz milli ideyanın ümumi məzmununun yeniləşməməsindən ibarət idi. Burada müəyyən yeni çalarlar meydana gəldi. Lakin, bütövlükdə, milli ideyanın hədəfi dəyişməz qaldı: ərazi bütövlüyünü və suverenliyi tam bərpa etmək! Deməli, Azərbaycan təcrübəsində fəlsəfi baxımdan maraqlı bir özəllik mövcuddur. Milli ideya siyasi varisliyin gözləndiyi, lakin dövlət quruculuğunda faktiki olaraq yeni mərhələnin başlanması fonunda ümumi miqyasda dəyişməyə bilər! Bu da, birincisi, Azərbaycanda yeni liderliyin ciddi surətdə siyasi varislik çərçivəsində təkmilləşdiyini ifadə edir. İkincisi, başlıca məqsəd şəxsiyyət deyil, uğurlu müstəqil dövlət qurmaqdan ibarət olduğu təsdiqini tapır. Üçüncüsü, milli ideyanı reallaşdırmaq üçün qüvvələr yenidən bir yerə toparlanır, nəsillərin tərbiyəsi yeni səviyyəyə yüksəldilir, ordu quruculuğu daha mükəmməl formada aparılır, cəmiyyətin birliyi modeli daha da inkişaf etdirilir və müdafiə fəlsəfəsi yeni məzmun çalarları alır. Bütün bu parametrlər 2003-cü ildən başlayaraq konkret proqramlarda ardıcıl, sistemli və qətiyyətli surətdə reallaşdırılmışdır! Bu prosesin də ümumi əlamətlərini Prezident İlham Əliyev ifadə etmişdir: "Sadəcə olaraq, onu demək istəyirəm ki, bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Hesab edirəm ki, bu, həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda, daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər. Bu, təkcə mənim fikrim deyil, mənim bəzi həmkarlarım da bu barədə kifayət qədər açıq danışırlar.

Aydın olur ki, 2003-cü ildən başlayaraq milli ideyanın həyata keçməsi ərazi bütövlüyünü və suverenliyi tam təmin etməklə yanaşı, Azərbaycanı bir müstəqil dövlət olaraq güclü ölkələr sırasına çıxarmışdır. Bu isə Azərbaycan təcrübəsində güclü liderin siyasi varisliyə və milli ideyaya sadiqliyi daxilində böyük uğurlar əldə edə bilməsinin təsdiqidir.

Güclü lider həm də güclü cəmiyyətin formalaşmasının ümumi istiqamətlərini düzgün müəyyən etmişdir. Bununla da Avrasiya məkanında bir siyasi nümunə meydana gəlmişdir: müstəqil bir dövlətdə güclü lider, güclü dövlət və güclü cəmiyyət ahəngdarlığı, harmoniyası, bir-birini tamamlaması baş vermişdir! Lider-dövlət-cəmiyyət birliyi milli ideyanın əsas funksional parametrlərindən biridir. Bununla millilik keçmişə, indiyə və gələcəyə cəmiyyətin bütün sferaları üzrə legitim təsir etmək imkanı qazanır. Müasir dövlətçilikdə bu məqam xüsusi əhəmiyyət kəsb edir. Onu faktiki olaraq politoloqlar suverenlik və davamlı inkişafın başlıca legitim formulu adlandırırlar.

Deməli, Azərbaycan təcrübəsində milli ideyanı siyasi şüur və liderlik qayəsi tam reallaşdırmaq zəkası, niyyəti, məqsədi və həyata keçirmə üsulları müddətindən asılı olmayaraq, mütləq çatılmalı olan hədəf kimi qəbul edir. Prezident İlham Əliyev bu məqamın da izahını dolğun şəkildə vermişdir.

Bu cür geniş fəlsəfi, nəzəri və siyasi-praktiki anlamda qəbul edilən milli ideyanın həyata keçməsi məhz həmin səbəbdən bir mərhələnin başa çatması kimi qəbul edilir. Bununla dövlətçilikdə milli ideyanın aparıcı və istiqamətverici rolu bir daha təsdiq olunur.

Beləliklə, yeni dövr başlayır və cənab Prezidentin sözləri ilə desək "Yeni dövrün yeni hədəfləri olmalıdır. Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi". Bu, fikir yeni mərhələdə milli ideyanın formalaşdırılmasının əsas istiqamətinin ifadəsidir. Bu prizmada tarixi ədalətin bərpası, milli qürur və beynəlxalq hüquq faktorlarına bir daha fəlsəfi nəzər salmaq lazım gəlir.

***Füzuli QURBANOV, XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Sülh gündəmi: Bakı danışıqların konstruktiv olmasını istəyir

**Hər zaman regionda sabitliyin və əmin-amanlığın hökm sürməsinin tərəfdarı olan, sülhpərvər siyasət yürüdən Azərbaycan Ermənistanla danışıqları bütün platformalarda dəstəkləyir. Ölkəmiz indiyədək qarşı tərəflə görüş keçirilməsinə dair irəli sürülən təşəbbüslərdən, bir qayda olaraq, imtina etməyib. Yeganə istisna 2023-cü il oktyabrın 5-də İspaniyanın Qranada şəhərində Avropa Siyasi Birliyinin III sammiti çərçivəsində keçirilməsi nəzərdə tutulan görüşdə bağlı idi. Həmin görüşdə iştirakdan imtina da Ermənistanın və onun Qərbdəki havadarlarının təqsiri üzündən baş vermişdi.**

Məsələ onda idi ki, Qranadada beştərəfli (Ermənistan, Azərbaycan, Avropa İttifaqı, Fransa və Almaniya) görüş planlaşdırılmışdı. Azərbaycan görüşdə Türkiyənin iştirakını təklif etmişdi. Lakin buna imkan verməmişdilər. Bu məsələdə Fransa və Almaniya xüsusi canfəşanlıq nümayiş etdirmişdi. Bakıya təklif olunan formatda anti-Azərbaycan ab-havası formalaşmışdı. Fransa rəsmilərinin (müdafiə naziri, xarici işlər naziri və sair) ermənipərəst bəyanatları, sabiq XİN başçısı Ketrin Kolonnanın İrəvana səfəri və hərbi əməkdaşlıq, silah-sursat veriləcəyi haqda açıqlamaları, Aİ Şurasının prezidenti Şarl Mişelin Qarabağdan ermənilərin köçü ilə bağlı oktyabrın 3-də Azərbaycanı ittiham edən açıqlaması fonunda ölkəmiz həmin formatda danışıqlarda iştiraka lüzum görməmişdi.

Ümumiyyətlə, belə format Azərbaycana lazım deyil. O vaxt bildirildiyi kimi, Bakı regiondan uzaq ölkələrlə bölgənin problemlərini müzakirə etməyə lüzum görmür. Azərbaycan hesab edir ki, bu məsələlər regional çərçivədə müzakirə və həll oluna bilər. Bununla belə, qeyd edilmişdi ki, əvvəlki Azərbaycan–Ermənistan–Avropa İttifaqı üçtərəfli formatı gündəmə gələrsə, rəsmi Bakının görüşə qatılması mümkündür.

İndi, yəni iki ay davam edən növbədənkənar prezident seçkiləri başa çatdıqdan sonra Azərbaycan öz sözünə sadiq olduğunu bir daha nümayiş etdirdi. Fevralın 8-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Prezident İlham Əliyevə zəng etdi. O, fevralın 7-də Azərbaycanda keçirilmiş seçkilərdə qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik etdi və yeni mandatın icrasında dövlətimizin başçısına uğurlar arzuladı. Mişel telefon danışığı əsnasında üçtərəfli formatda Brüsseldə Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında görüşlərin bərpa edilməsi ilə bağlı Prezident İlham Əliyevdən mövqeyini bildirməsini xahiş etdi.



Dövlətimizin başçısı isə Azərbaycanın həmişə Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə keçirilən üçtərəfli görüşləri dəstəklədiyini bildirdi.

Rəsmi İrəvan isə manevr etməyə, sülhə doğru addım atmaqdan müxtəlif yollarla yayınmağa çalışır. Hərçənd ki, Ermənistan rəsmiləri açıqlamalarında sülhün tərəfdarı olduqlarını bildirirlər. Yanvarın 26-da Tbilisidə Gürcüstanın baş naziri İrakli Qaribaşvili ilə görüşdən sonra keçirilən mətbuat konfransında çıxış edən baş nazir Nikol Paşinyan "döyüşkən və fanatik ritorikanın" (?) nizamlama prosesinə töhfə vermədiyini vurğulamışdı. O ümid etdiyini bildirmişdi ki, danışıqlar prosesi Azərbaycanda prezident seçkilərindən sonra artıq razılaşdırılmış prinsiplər əsasında sülh müqaviləsi üzərində işi başa çatdırmaq üçün intensivləşəcək.

Yeri gəlmişkən, qeyd edək ki, Paşinyan özünü sülhpərvər göstərmək üçün Ermənistan hökumətinin müəllifi olduğu "Sülhün kəsişməsi" layihəsini gürcü həmkarına təqdim etmişdi. O, iddia etmişdi ki, layihə regional əlaqələri təşviq etməyə, dövlətlərin suverenliyinə, bərabərliyinə və qarşılıqlı prinsiplərinə hörmətlə yanaşmağa yönəlib.

Bir neçə gün əvvəl ABŞ-ın Ermənistandakı səfiri Kristina Kuini qəbul edərkən isə N.Paşinyan qeyd etmişdi ki, onun hökuməti Vaşinqtonun Ermənistan–Azərbaycan sülh prosesində səylərinə və regionda sabitliyin bərqərar olunmasına yönəlmiş addımlarını yüksək qiymətləndirir.

Ancaq bütün səslənən bəyanatlara baxmayaraq, Ermənistan sülh gündəmini irəli aparmaqda maraqlı görünmür. İrəvan sülh müqaviləsi üzrə ona Bakıdan göndərilən mətnlərə cavabını xeyli yubadır. Yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verən Prezident İlham Əliyev də bu məsələyə toxundu. Dövlətimizin başçısı bildirdi ki, sentyabr hadisələrindən sonra biz yeni vəziyyətlə üzləşdik: "Ermənistana verilən vədlər, xüsusilə də həm BMT-də, həm Avropa İttifaqında Azərbaycana qarşı sanksiyalar tətbiq ediləcək, Azərbaycan böyük təzyiq altına düşəcək, guya, "bu əməliyyat Azərbaycana baha başa gələcək". Bu əməliyyat, bütün bu kommunikasiyalar Ermənistanda əminlik yaratdı ki, onlar sülh müqaviləsini istədiyi kimi tərtib edə bilərlər və bizə də kimsə təzyiq edib bizi də razı sala bilərlər. Məhz buna görə 70 gün ərzində bizim təklifimizə, – çünki burada təkliflər mübadiləsi 5-6 dəfə gedib, mətnlər göndərilir şərhlərlə, – cavab vermirdi. Biz onu artıq rəsmi qaydada bildirəndə ki, 70 gün, yəni o vaxt deyəsən 60 gün gözləyirik, ondan sonra təklif verdilər və hazırda onların təklifində, yəni onların şərhlərində Qarabağla, Qarabağ erməniləri ilə bağlı bir kəlmə belə yoxdur... Onu da bildirməliyəm ki, biz onlardan fərqli olaraq öz şərhlərimizi 70 gündən sonra yox, 30 gündən sonra göndərdik və ondan iki həftə sonra onlar, bax bu ayın 4-də yeni şərhlər göndərdilər. Yəni, yenə də sual yaranır: Əgər bu şərhləri iki həftə ərzində vermək olarsa, sən keçən dəfə 70 gün nəyi gözləmisən? Yəni, mənim fərziyyəm tam sübuta yetirilir...".

Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov isə bugünlərdə "Azadlıq" radiosuna müsahibəsində Azərbaycan tərəfindən təhlükə mifini şişirdən Ermənistanın bizim ərazi bütövlüyümüzə de-fakto qəsd etməkdə davam etdiyini bildirib. Qeyd edib ki, Ermənistana, guya, ərazi iddialarımızla bağlı Azərbaycana qarşı irəli sürülən ittihamlar ağrımayan başa dəsmal bağlamaq kimi uğursuz və faydasız cəhddən başqa bir şey deyil. Onun sözlərinə görə, Ermənistanın indiki konstitusiyasına və onun qondarma "Ermənistan SSR-nin Dağlıq Qarabağla birləşdirilməsi" haqqında müstəqillik bəyannaməsinə dair istinadlara baxmaq kifayətdir: "Bu cür konkret faktlar çoxdur, ən azı Ermənistanın MDB-yə üzvlüyünün ratifikasiyası prosesində bu ölkənin parlamentinin qəbul etdiyi qərarları, Qarabağın Azərbaycana məxsus olmasını şübhə altına alan və ya 44 günlük müharibə bitdikdən sonra Ermənistanın Azərbaycana qarşı başlatdığı çoxsaylı məhkəmə iddialarını, ölkəmizə qarşı açıq ərazi iddiaları olan sənədləri göstərmək olar. Hələ mən Azərbaycanın Qarabağ bölgəsini "tarixi Ermənistanın" tərkib hissəsi kimi təqdim etməkdə davam edən Ermənistan xarici işlər nazirliyinin rəsmi saytından danışmıram".

E.Əmirbəyov bildirib ki, Azərbaycan qeyd olunan bütün narahatlıqlarımızı erməni tərəfinin diqqətinə dəfələrlə çatdırıb. Lakin təəssüf ki, hələ də onların aradan qaldırılması üçün qarşı tərəfdən konkret addımlar atılmayıb: "Ölkəmizə qarşı ərazi iddialarının qalması ilə paralel olaraq, Azərbaycandan gələn təhlükə barədə cəfəng şayiələrin qəsdən yayılması təkcə hiyləgərlik deyil, həm də sonu görünməyən bir yoldur".

Bu kontekstdə Ermənistan hökumətinin son vaxtlar uzaqlaşmaq kursu götürdüyü Rusiyada danışıqların aparılmasından yayınması da diqqətdən yayınmır. Ötən sayımızda dərc olunan yazıda qeyd etdiyimiz kimi, Ermənistan rəsmiləri hazırda Azərbaycanla danışıqları Qərb ölkələrinin paytaxtlarında – Brüsseldə, yaxud Vaşinqtonda davam etdirməkdə maraqlı olsalar da, İkinci Qarabağ müharibəsinin başa çatmasında Rusiyanın daha çox rol oynadığını unutmamalıdırlar. Müharibəyə Rusiya Prezidentinin aktiv vasitəçilik səyləri ilə imzalanmış üçtərəfli bəyanat son qoyub. Bu gün bəzi erməni rəsmiləri bəyanatın artıq öz əhəmiyyətini itirdiyi kimi cəfəng fikirlər irəli sürürlər. Həmin fikirlərin heç bir əsası yoxdur.

Eyni zamanda, bu xüsusda birbaşa təmasların mühüm rola malik olduğunu da vurğulamaq lazımdır. Bakı və İrəvanın ikitərəfli birbaşa təmasları artıq öz konkret bəhrəsini verib. Ötən ilin dekabrında hər iki tərəfdən saxlanılmış şəxslərin azad olunması üzrə tərəflərin əldə etdikləri razılaşmalar və Bakıda keçirilməsi nəzərdə tutulan COP29 beynəlxalq iqlim konfransı kontekstində qarşılıqlı diplomatik dəstək bunun bariz nümunəsidir.

Bütün hallarda girişdə qeyd etdiyimiz kimi, Azərbaycanın danışıqları hansı müstəvidə aparmaqla bağlı heç bir problemi yoxdur. Ölkəmiz bütün platformalarda, eləcə də ikitərəfli formatda danışıqlara hazırdır. Yetər ki, danışıqlar danışıq xatirinə aparılmasın, məhsuldar və konstruktiv olsun.

***Səxavət HƏMİD, XQ***

### Ekspert rəyi



**Yeganə HACIYEVA, politoloq**

– Ötən müddət ərzində Ermənistanla Azərbaycan arasında müxtəlif platformalarda danışıqlar aparılıb. Onlardan bəziləri məhsuldar, bəziləri qeyri-məhsuldar olub. Moskva və Brüsseldə keçirilən görüşlərdə müəyyən razılaşmalar əldə olunub, bəyanatlar imzalanıb. Müqayisə etdikdə Brüssel formatını daha faydalı hesab etmək mümkündür. Ancaq hazırkı mərhələdə Azərbaycan üçün faydalı və məhsuldar olan ikitərəfli əsasda keçirilən görüşlərdir. Dekabr ayında iki ölkə arasında əsirlərin mübadiləsi də kənar aktorların iştirakı olmadan keçirilən ikitərəfli danışıqlar nəticəsində mümkün olub.

Ümumiyyətlə, Prezident İlham Əliyevin dediyi kimi, indi bəziləri danışıqlara əvsahibliyi etmək üçün sanki yarışa çıxıblar. Bu, bir qədər geosiyasi rəqabətə bənzəyir. Halbuki, ölkəmiz Ermənistan–Azərbaycan münasibətlərinin geosiyasi mövzuya çevrilməsini istəmir. Azərbaycan hesab edir ki, bu, iki ölkə arasındakı məsələdir, özümüz də bunu həll etməliyik. Müxtəlif vasitəçilərə münasibətdə yaranmış etimadsızlıq səbəbindən iki ölkənin öz aralarında müzakirə aparması bölgədə sülhün təmin olunmasında mühüm rol oynaya bilər.

Həmçinin, sərhədlərin delimitasiyası üzrə dövlət komissiyalarının son iki iclası da kənar vasitəçilərin iştirakı olmadan elə ölkələrin sərhədində keçirilib. Birinci görüşdə komissiyaların iclaslarının reqlamenti müəyyənləşdirilib. İkinci görüşdə hansı razılaşmaların əldə olunduğu açıqlanmayıb. İstənilən halda hesab edirik ki, birbaşa təmaslar ümumi işə daha çox fayda verir.

# ABŞ-ın Cənubi Qafqaz prioritetləri: ziddiyyətlər və risklər

I MƏQALƏ



Təəssüf ki, siyasət nəhəngi və böyük dövlət xadimi U.Çörçill bu dəfə də səhv etməyib. Amerika Birləşmiş Ştatlarının son dövrdəki fəaliyyəti, xüsusən Cənubi Qafqaz bölgəsi ilə bağlı səhv siyasəti bunu təsdiqləyir.

Analitiklər rəsmi Vaşinqtonun Cənubi Qafqaz prioritetlərini çoxaspektli mürəkkəb fenomen kimi təqdim edirlər. A.S.Butorov və A.K.Rumyantsevanın 2023-cü ilin mayında dərc olunan analitik məqalələrində də eyni yanaşma saxlanmışdır. Bu, o deməkdir ki, ABŞ-ın Cənubi Qafqaz siyasətinin xarakterinə yanaşma dəyişməmişdir. Onu ümumi miqyasda üç aspektə ayırırlar:

– Bütövlükdə ABŞ-ın regionda maraqları və prioritetləri;

– ABŞ-ın regiondakı iqtisadi və energetik maraqları;

– Azərbaycan, Gürcüstan və Ermənistanın suverenliyi və ərazi bütövlüyünü dəstəklənməsi (Butorov, Rumyantseva, 2023).

Bu zaman başlanğıc tezis kimi Amerikanın Cənubi Qafqaza böyük diqqət yetirməsi götürülür. Həmin tezisin prizmasında müəlliflər Vaşinqtonun Cənubi Qafqaz siyasətinin predmetinin dörd faktor təşkil etdiyini vurğulayırlar.

**Birinci faktor.** Cənubi Qafqaz Avropa ilə Asiyanı əlaqələndirən mühüm geosiyasi dəhlizlərdən biridir. Burada regiona obrazlı şəkildə Avropa ilə Asiyanı birləşdirən əsas "körpü" kimi baxılır. Bu yanaşmanın nəzəri-geosiyasi qaynağını P.Makinderin "Heartland" nəzəriyyəsi təşkil edir. Onu baza baxış kimi götürərək Z.Bzejinski və H.Kissincer Cənubi Qafqazı və konkret olaraq Azərbaycanı "iki qitəni birləşdirən əsas geosiyasi körpü" adlandırmışlar. Yəni ABŞ-ın yanaşmasının dərin nəzəri və geosiyasi anlamı vardır.

**İkinci faktor.** XXI əsrin gəlişi ilə Cənubi Qafqaz Xəzər və ona yaxın bölgələrin enerji daşıyıcılarının əsas nəql yolu kimi qəbul edilməsidir. Bu, olduqca mühüm geosiyasi amildir. Çünki enerji təhlükəsizliyi birbaşa milli təhlükəsizlik kimi dərk edilir və onun təmini ciddi prioritetlərdən biridir.

**Üçüncü faktor.** Region potensial və aktual olaraq qeyri-sabit hesab olunur. Bunun başlıca səbəbi Cənubi Qafqazda münaqişələrin olmasıdır. Rəsmi Vaşinqton hətta Azərbaycan öz gücünə Qarabağ münaqişəsini tam həll etdikdən sonra da onu "potensial qeyri-sabitlik" faktorlarından biri sayır. ABŞ-ın ən böyük səhvi də məhz bu məqamla bağlıdır. Real proseslər göstərir ki, doğrudan da Vaşinqton bu tezisin prizmasında Azərbaycana qarşı yeritdiyi siyasətdə uduzur, regiondan kənarlaşır və rəqiblərinə yeni şanslar verir. Xüsusilə, regionda İranın fəallaşması üçün real mühit yaradır. Bu da ABŞ-ın həqiqi geosiyasi maraqlarına ziddir. Maraqlıdır ki, bu ziddiyyəti Amerikada çox gözəl bilirlər, lakin davranışlarında ciddi dəyişiklik hiss olunmur. Bu reallıq kontekstində ABŞ-ın Cənubi Qafqaz siyasətinin detallarına baxdıqda kifayət qədər təzadlı məqamları görə bilərik. Onlar haqqında bir qədər sonra.

**Dördüncü faktor.** Cənubi Qafqaz Rusiya, Türkiyə və İran arasında rəqabət meydanıdır. Burada da real vəziyyəti qiymətləndirmədə bir yarımçıqlıq vardır. Məsələ ondan ibarətdir ki, Amerikanın Cənubi Qafqaza Rusiya-Türkiyə-İran rəqabəti prizmasında baxması, əvvəlcədən situasiyanı tam qiymətləndirmək istəməməsi fonunda ancaq öz maraqları naminə mübarizə aparmaq iddiasını ortaya qoyur. Aydın olur ki, Amerika bəri başdan regionu qarşıduran iki geosiyasi düşərgəyə ayırır: bir tərəfdə ABŞ və Avropa, digər tərəfdə isə Rusiya, Türkiyə, İran "üçlüyü". O halda ABŞ-ın buradakı fəaliyyəti regionu bir tam olaraq görmək əsasında sabitlik, sülh və əməkdaşlıq yaratmaqdan ibarət deyildir. Məsələnin bu tərəfi əks geosiyasi düşərgəni məğlub edib, sıradan çıxarmaq hesabına özünün diktə etdiyi geosiyasi situasiya yaratmaqla bağlıdır. Bu vəziyyət mütləq surətdə regionda qeyri-sağlam rəqabət mühiti yaradır ki, onun başlıca əlaməti böyük geosiyasi güclərin toqquşması, qarşıdurması, xaos yaratması, riskli siyasi, hərbi və geosiyasi situasiyaların meydana gəlməsindən ibarətdir.

Digər tərəfdən, əvvəlcədən fərqli maraqları olan Türkiyə, Rusya və İranı eyni "geosiyasi qəlibə salmaq" ciddi yanaşma səhvidir. Məsələ ondan ibarətdir ki, regional reallıqlar kontekstində Türkiyənin maraqları və məqsədi ilə Rusiya və İranın mənafeləri bir-birindən ciddi surətdə fərqlənir. Buna görə də onlara "eyni bucaq altında", fərq qoymadan baxmaq real vəziyyəti təhrif etməkdir. Bu da geosiyasi nöqsandır ki, zaman-zaman özünün ziddiyyətli aspektləri ilə regional təhlükəsizliyə çox mənfi təsirlər edə bilər və etməkdədir.

Bu məsələlər "Klinton doktrinası" adlandırılan hadisə ilə bağlı aktual görünür. Həmin doktrinada B.Klinton (Amerikanın keçmiş prezidenti) Cənubi Qafqaz siyasətinin əsas istiqamətlərini və hədəflərini müəyyənləşdirmişdir. Biz bu məsələnin üzərində sonrakı məqalədə geniş dayanacağıq.

Bunlardan əlavə, ABŞ-ın Cənubi Qafqaz siyasətində prioritetlərə bura yaxın geosiyasi bölgələrdə Vaşinqtonun yeritdiyi siyasət də təsir etməkdədir. Onların sırasında biz vacib hesab etdiyimiz iki aspektə baxaq.

## Yaxın Şərq: "Eşşəkarısı yuvası"?

Bəli, politoloqlar və siyasətçilər Yaxın Şərqi bu qaba ifadə ilə xarakterizə edirlər. Bunun altında isə kifayət qədər ciddi geosiyasi məqamlar dayanır. Məsələ birbaşa ABŞ-ın Yaxın Şərq, Avropa və bütövlükdə, Avrasiyanı (Uzaq Şərq də daxil olmaqla) əhatə edən geniş bir məkanda həyata keçirdiyi siyasətlə əlaqəlidir. Təbii ki, Cənubi Qafqaz bu aspektdə mühüm məkanlardan biri kimi Vaşinqtonun siyasətinin hədəfidir.

Yaxın Şərqin "Eşşəkarısı yuvası" halında olması isə bu regionun xaos, qeyri-müəyyənlik, risklər, satqınlıq, aldatma, qarşıdurma, əsas oyunçunun ancaq öz marağını güdməsi ilə xarakterizə olunduğunu ifadə edir. Metaforik mənada "Eşşəkarısı yuvası" anlayışı Yaxın Şərqə nüfuz etmək istəyənlər üçün regionun çox təhlükəli olması mənasını verir. Ora daxil olmaq istəyən mütləq "Eşşəkarısı"nın neştərinə hazır olmalıdır.

Bəs bu fəlakətli siyasətin nəticəsi nə oldu? Yaxın Şərq, sözün həqiqi mənasında, xarabalığa çevrildi. İSİD-in əli ilə Suriyanı dağıtdılar və proses süründürməçi formada davam edir. İndi Yaxın Şərqdə bir neçə dövlət bu və ya digər dərəcədə hərbi münaqişələrə qarışmış durumdadır. Bura Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, BƏƏ, Qətər və İsrail daxildir. Livan, Yəmən və Suriya xarabalığa çevrilib. Müxtəlif radikal qruplaşmalar nüfuz uğrunda mübarizəni hər üsulla aparırlar. Yaxın Şərqdə narkoticarət, qanunsuz ticarətin bütün növləri "çiçəklənir".

Qısa desək, Yaxın Şərq hazırda "idarəolunan xaos" adlandırılan proseslərin məkanıdır. Və bütün bunların baiskarı Amerika Birləşmiş Ştatlarının yeritdiyi "Heartland" siyasətidir". Bu kontekstdə ABŞ-ın Suriyadakı keçmiş səfiri Robert Fordun Amerikanın İŞİD-ə dəstəyini "Vaşinqtonun tarixi səhvi" adlandırması da U.Çörçilin Amerika haqqında yanılmadığının verdiyi təsəllidən başqa müsbət emosiya yaratmadığını göstərir. Bununla yanaşı, indi situasiya elədir ki, "böyük bumeranq" geri dönə bilər: ABŞ-ın özü "Eşşəkarısı yuvası" olar! Bu, sadə məsələ deyil. Xüsusilə, analitiklərin ABŞ-ın Yaxın Şərq siyasətindən hansı "geosiyasi dividendləri" əldə etdiyi haqqında qənaətləri tük ürpədir.

## Vaşinqton: 3 istiqamətdə geosiyasi turbulentliyə doğru

Siyasi ekspertlərə görə, Vaşinqtonun Yaxın Şərqdəki geosiyasi fəaliyyəti o regionun dağıdılması və milyonlarla insanın bədbəxt olması hesabına üç istiqamətdə ABŞ-ın irəliləməsi üçün şərait yaratmışdır ("irəliləməsi üçün" yazmaq psixoloji olaraq insanlıq naminə çox çətindir – F.Q.). Belə ki, rəsmi Vaşinqton, birincisi, Rusiyaya zərbə endirmək imkanı əldə etdi (əsas hərbi rəqib kimi), ikincisi, əsas iqtisadi rəqib kimi Çinə zərbə endirmək şansına vardı, üçüncüsü, Avropa İttifaqının dağıdılması üçün imkan yarandı, çünki orada hazırda anqlo-saks deyil, franko-alman alyansı aparıcıdır.

Deməli, böyük bir tarixi regionun xarabalıqları və milyonlarla günahsız insanın bədbəxtliyi üzərində üç istiqamətdə "problemləri həll etmək şansı"nı qazanmaq müasir geosiyasətdə "uğur" sayılır. Əslində isə bu, amansız surətdə dünyanı uçurumun kənarına sürükləməkdən başqa real məna daşımır. O cümlədən, vurğulanan hər üç istiqamətin Cənubi Qafqaza region kimi birbaşa aidiyyatı vardır. Həm yanaşmanın riskliliyi və təhlükəliliyi, həm də real mübarizə meydanından ikili standartın, şəxsi maraqların, qərəzli diplomatik gedişlərin at oynatması baxımından, bu, belədir. Başqa məntiqi nəticə çıxarmaq mümkün deyildir. Ona görə də hər üç istiqamətdə özünü göstərən əsas faktorlara Azərbaycanın geosiyasi taleyi mövqeyindən baxaq.

## Çin istiqaməti: qlobal layihələrin bloklanma riski kontesktində

ABŞ – Çin münasibətlərinin indi təsadüfən dünya üçün risk daşıdıığını demirlər. Yuxarıdakı təhlil də göstərir ki, bu, kifayət qədər təhlükəli bir gedişatdır. Onun əsas "risk qolları"ndan biri də məhz Cnubi Qafqazdır. Cənubi Qafqaz Z.Bzejinski mənasında Avropadan Asiyaya uzanan körpüdürsə, ilk yanğın burada çıxa bilər. Qədimdən bəşər övladı müharibələrdə körpüləri sıradan çıxarmağı əsas taktikalardan biri kimi istifadə etmişdir.

Çinlə Amerika arasında amansız rəqabət, demək olar ki, bütün istiqamətlərdə gedir. Bura informasiya texnologiyaları, kommunikasiya yolları, energetika, kosmos, iqtisadiyyat, siyasət, ideologiya və sair sferalar daxildir. COVID-19 pandemiyası göstərdi ki, Amerika hətta ən sərt üsullara əl ata bilər. O da məlumdur ki, bu prosesdə dünya dövlətlərinin böyük əksəriyyəti, o cümlədən Azərbaycan zərər gördü. Eynilə, digər sferalardakı ABŞ-Çin qarşıdurması Cənubi Qafqaza və onun lideri Azərbaycana öz mənfi təsirini göstərir. Bu sırada "Bir kəmər, bir yol" layihəsinin risk altına düşməsinin özü böyük risk qaynağıdır. Azərbaycan bu layihədə aktiv iştirakçıdır. Bakının iştirakı çoxaspektlidir. Bura nəqliyyat, enerji, informasiya, loqistika və s. layihələr daxildir. O cümlədən, "Orta dəhliz" Bakı üçün ciddi geosiyasi və təhülkəsizlik əhəmiyyəti daşıyır.

Orta dəhliz kontekstində Zəngəzur dəhlizi olduqca əhəmiyyətli məsələdir. Bakı bunun reallaşması istiqamətində aktiv fəaliyyət göstərir. Lakin belə görünür ki, daha geniş geosiyasi miqyasda çox şey ABŞ-Çin münasibətlərinin hansı yöndə transformasiya edəcəyindən asılıdır. Məsələni Azərbaycan üçün riskli edən də bu məqamla əlaqəlidir.

## Rusiya istiqaməti: böyük hərbi gücü məhv etmək məqsədi və Cənubi Qafqaz

Yaxın Şərqdəki xaosun fonunda Rusiya məsələsi çox aktual görünür. Rusiya həm Yaxın Şərqdə, həm də Şərqi Avropada fəal olmağa çalışır. Şübhə yoxdur ki, Kreml üçün Cənubi Qafqaz da xüsusi əhəmiyyət kəsb edir. Məhz buna görədir ki, Ukrayna cəbhəsində vəziyyət ağır olsa da, Moskva Cənubi Qafqazda da nüfuzunu saxlamaq üçün ciddi addımlar atır. Bir sıra ekspertin "Rusiya Qafqazda zəifləyir" kimi səthi qiymətləndirməsi Qərbə sərf edən təbliğati ritorikadan başqa bir şey deyildir. Bu regionda Rusiyanın əleyhinə olan hər hansı ciddi geosiyasi proses getmir. Ümumi tendensiya kimi Aİ-nin, ayrıca Fransanın müəyyən addımları vardır. Lakin onların hamısı cəm halında belə Rusiyanın mövqeyinə əsaslı təsir etmək potensialına malik deyil. Digərləri ilə yanaşı, bu məqam da regional təhlükəsizliyi çox həssas nöqtəyə gətirir. Xüsusilə, Azərbaycanın yeritdiyi siyasətin ABŞ-Rusiya rəqabəti fonunda vacibliyi yeni səviyyədə dərk edilməlidir.

***Füzuli MƏHƏMMƏDOĞLU***
***XQ***

# Şərqin Qərbə əsas yolu Azərbaycandan keçir



(əvvəli 1-ci səhifədə)

Beynəlxalq daşımalarda iştirak edən yerli avtonəqliyyat vasitələrinin sayı isə dəfələrlə artaraq 12 min 700-ü keçib. Eyni zamanda, beynəlxalq daşıyıcılar tərəfindən avtomobil nəqliyyatı ilə ölkəmiz üzərindən aparılan tranzit yükdaşımaları son illər ərzində 6 dəfə artaraq 4,4 milyon ton təşkil edib.

Keyfiyyət Xartiyasının Azərbaycan Respublikasında tam tətbiqi ilə işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarlara cavab verən daşıyıcıların, habelə peşəkar sürücülərin beynəlxalq yük daşımalarına cəlbi təmin edilib. Bununla da milli daşıyıcıların beynəlxalq daşımalar bazarında payları əsaslı dərəcədə artıb və beynəlxalq səviyyədə rəqabətə daha dayanıqlı olmaları təmin olunub.

Beləliklə, həyata keçirilən layihələr nəticəsində bütün ikitərəfli daşıma istiqamətləri üzrə milli daşıyıcıların bazar payı 2022-ci illə müqayisədə 46 faizdən (101 min 843 ton) 2023-cü ildə 54 faizə (135 min 441 ton) yüksəlib.

Burada bir məqamı da xatırlatmaq istərdik. Belə ki, 2022-ci ildə Azərbaycan və digər xarici ölkə daşıyıcıları tərəfindən, ümumilikdə, 221 min 841 ikitərəfli daşıma həyata keçirilib. Bu daşımaların 101 min 843-ü Azərbaycan daşıyıcıları tərəfindən yerinə yetirilib. Bu da ümumi daşımaların 46 faizini təşkil edib. Keçən il ərzində isə Azərbaycan və digər xarici ölkə daşıyıcıları tərəfindən, ümumilikdə, 256 min 653 daşıma reallaşdırılıb. Bu daşımaların 135 min 441-i Azərbaycan daşıyıcıları tərəfindən yerinə yetirilib. Bu da ümumi daşımaların 54 faizini təşkil edib.

Son illərdə ölkəmizin milli daşıyıcılarının yeni istiqamətlərdə beynəlxalq yük daşımaları göstərmələri də müşahidə olunub. Məsələn, Azərbaycan daşıyıcıları tərəfindən Monqolustan və İraq kimi ölkələrə beynəlxalq yükdaşımaları xidməti göstərilib. Bu isə beynəlxalq daşımalarda iştirak edən yük avtomobillərinin sayında ciddi artımı şərtləndirib. Belə ki, beynəlxalq daşımalarda iştirak edən yük avtomobillərinin sayı 2021-ci ildə 3432, 2022-ci ildə 9225 və 2023-cü ildə isə 12 min 593 ədədə çatıb.

Bütün bunlar barədə "Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası"nın 2023-cü ildəki fəaliyyətinin yekunlarına həsr olunan hesabat yığıncağında ətraflı bəhs edilib. Toplantıda sözügedən dövrdə ölkə daşıyıcılarına 1235 ədəd "TİR Karnet" kitabçası verildiyi, bu kitabçaların isə yüklərin sərhəd-keçid məntəqələrində açılmasına imkan yaratdığı bildirilib.

Xatırladaq ki, 1993-cü ilin may ayında təsis edilən Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyası öz sıralarında beynəlxalq avtomobil yük daşımalarını həyata keçirən ölkəmizin hüquqi və fiziki şəxslərini birləşdirən qeyri-kommersiya təşkilatıdır. Assosiasiya 1998-ci ilin noyabr ayında mənzil-qərargahı Cenevrə (İsveçrə) şəhərində yerləşən beynəlxalq yük daşımaları kitabçalarının "TİR Karnet" tətbiqi üzrə dünyada təminat orqanı olan Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (İRU) üzvlüyünə qəbul olunub.

Yeri gəlmişkən, son illərdə ölkəmizin beynəlxalq avtomobil daşımaları bazarının inkişafına müsbət təsir göstərən bəzi məsələləri də xatırlatmaq istərdik. Qeyd edək ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2023-cü il 24 fevral tarixli Qanunun icrası ilə əlaqədar 29 mart 2023-cü il tarixli Fərman imzalayıb. Bununla da beynəlxalq avtomobil daşımalarını yerinə yetirən nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsi sahəsində gömrük orqanları üzərinə düşən vəzifə ləğv olunub. Eyni zamanda, beynəlxalq daşımalarla bağlı nəqliyyat vasitələrinə sərhəddə icazə blanklarının verilməsinə görə "Dövlət rüsumu haqqında" qanunla müəyyənləşdirilən dövlət rüsumu da aradan qaldırılıb.

Beləliklə, xarici dövlətlərdə qeydiyyatda olan nəqliyyat vasitələrinə icazə blanklarının dövlət sərhədinin buraxılış məntəqələrində reallaşdırılmasının ləğvi ilə kvotadan artıq xarici nəqliyyat vasitələrinin ölkə ərazisinə daxil olmasına imkan verilməməsi şərtləndirilib. Həmçinin beynəlxalq daşımaların iştirakçısı olan respublikamıza məxsus avtomobil daşıyıcılarının Azərbaycanın geniş nəqliyyat-logistika imkanlarından fəal və səmərəli istifadəsinə müsbət təsir göstərib. Bu cür qayda beynəlxalq daşımalar bazarında milli daşıyıcıların payının artmasına və beynəlxalq səviyyədə rəqabətliliyin yüksəlməsinə münbit zəmin yaradıb.

Nəqliyyat vasitələrinin sayında artım, eyni zamanda, bazarın şəffaflaşması nəticəsində "kölgə"də fəaliyyət göstərən daşıyıcıların qeydiyyata alınması, fəaliyyəti olmayan daşıyıcıların işini bərpa etməsi, bəzilərinin daxili bazardan beynəlxalq bazara keçidi və idxal olunan nəqliyyat vasitələrinin hesabına yaranıb.

Göründüyü kimi, dövlət başçısının yuxarıda adıçəkilən fərmanı Azərbaycanın son illərdə beynəlxalq daşımalar üzrə əldə etdiyi nəticələrin daha da yaxşılaşdırılması məqsədi daşıyır. Elə hazırda ölkə sərhədlərini keçən avtomobillərin sayının getdikcə artması da bu sahədə böyük perspektivlər vəd edir.

Sonda qeyd edək ki, Rusiya–Ukrayna müharibəsi başlayandan indiyədək dünyanın ən böyük yükdaşıma şirkətləri tərəfindən Azərbaycan üzərindən daşımaları şərtləndirən Orta Dəhlizdən istifadəyə start verilib. Bu isə ölkəmizin ərazisindən tranzit yükdaşımaların həcmində kəskin artıma gətirib çıxarıb.

Orta Dəhlizin tam gücü ilə işə düşməsi üçün gömrük sənədləşdirilməsinin unifikasiyası, "vahid pəncərə" sistemi və tarif siyasəti çərçivəsində ümumi prinsiplərin hazırlanması da sürətlənib. Bütün bunlar isə marşrutun həm kommersiya dəyərini, həm də geosiyasi önəmini artırmağa hesablanıb.

***Vaqif BAYRAMOV***
***XQ***

# Azərbaycan mallarına xarici bazarlarda tələbat artır

## *Bu ilin ilk ayında ölkəmizin qeyri-neft məhsulları ixracı 222 milyon dollar olub*

**Son illər ölkəmizin ixrac potensialının gücləndirilməsi istiqamətində bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.**




Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın fevral sayına əsasən, ötən ay Azərbaycanın ümumi ixracı 1,8 milyard dollar, qeyri-neft sektoru üzrə ixracı 222 milyon dollar təşkil edib. Bu müddətdə yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,5 faiz artaraq 70 milyon dollara, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 152 milyon dollara bərabər olub.

İcmal məlumatlarına əsasən, həmin dövrdə bitki və heyvan mənşəli piylər və yağların ixracı 31,9 faiz, meyvə-tərəvəz ixracı 21,2 faiz, alüminium və ondan hazırlanmış məmulatların ixracı isə 17,4 faiz artıb.

Cari ilin yanvar ayı ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,5 faiz artaraq 74 milyon dollar təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər isə 15 milyon dollar olub.

Bu göstəricilərin əldə edilməsi, başqa sözlə, ixrac potensialının gücləndirilməsi üçün bir sıra mühüm layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmə sürətli inkişaf mərhələsinə daxil olub, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

Yuxarıdakı göstəricilərin əldə olunmasında təbii ki, sadalanan amillərlə yanaşı, digər səbəblər də mühüm rol oynayıb. Məsələn, respublikamız "Ümumiləşdirilmiş Preferensiyalar Sistemi+" Proqramına ("GSP+") qoşulandan sonra ixrac potensialı nəzərəçarpacaq dərəcədə güclənib, ixrac mallarının çeşidi artıb. Bu, ölkəmizə Avropa İttifaqı (Aİ) bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradıb. Belə bir tədbirin gerçəkləşdirilməsi həm də ixrac potensialının genişləndirilməsinə və ixrac strukturunun diversifikasiyasına önəmli təsir göstərib. Bütün bunlarla bərabər, ixrac potensialının güclənməsini son illər Vergi Məcəlləsinə edilən düzəlişlər, sənaye məhəllələrinin, texnoparkların, azad iqtisadi zonaların genişləndirilməsi də sürətləndirib.

Azərbaycanın ixrac potensialının gücləndirilməsindən danışarkən bir məqamı da xatırladaq. Qeyd edək ki, biznes ekomühitinin yaxşılaşdırılmasının mühüm qolu iqtisadiyyatın gömrük-vergi tənzimlənməsi sisteminin təkmilləşdirilməsidir. Bu baxımdan ölkəmizdə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müəyyən layihələrin gerçəkləşdirilməsi ümumi prosesə təkan verir. Bu gün yerli istehsalatda istifadə olunan 300-ə yaxın aralıq malın idxal rüsumundan azad edilməsi yerli istehsalın maya dəyərinin azaldılmasına, yerli malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına müsbət təsir göstərməsi də deyilən fikrin bariz ifadəsidir.

Hazırda da bu proses davam edir. Belə ki, ixracda hesablaşma qaydalarının təkmilləşdirilməsi, yerli istehsalda xammal ehtiyacının ödənilməsi, əhalinin idxaldan asılı olan bir sıra zəruri istehlak malları ilə etibarlı təminatı məqsədilə tətbiq olunan tarif tədbirləri, o cümlədən güzəşt müddətlərinin uzadılması istiqamətində qanunvericilik layihələri hazırlanaraq aidiyyəti dövlət orqanları ilə müzakirə olunur.

Yuxarıda qeyd edilənlər və bununla bağlı əldə olunan müsbət göstəricilər hazırda ölkə iqtisadiyyatı üçün yeni istiqamətlərin formalaşdığını deməyə əsas verir. Bu, istiqamətlər idxaldan asılılığın azaldılması, qeyri–neft əmtəə və xidmət ixracı həcminin yüksəldilməsi, qeyri–neft emalı sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun gerçəkləşdirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və "kölgə iqtisadiyyatı"nın səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr isə müsbətdir.

Yeri gəlmişkən, ölkədə ixrac potensialının gücləndirilməsi Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də qarşıya mühüm vəzifə kimi qoyulub. Belə bir vəzifənin gerçəkləşdirilməsinin əsas şərti kimi davamlı və yüksək iqtisadi artıma nail olunması göstərilib.

Buna görə də Milli Prioritetlərə əsaslanaraq hazırda milli iqtisadiyyat şaxələndirilir, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün qeyri-neft iqtisadiyyatının inkişafı diqqət mərkəzində saxlanılır. İqtisadi artımın qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməsi, dövlət və özəl əməkdaşlığın gücləndirilməsi istiqamətində layihələr gerçəkləşdirilir. Bütün bunlarla bərabər, yeniliyə meyilli özəl sektorda aktivlik daha da canlandırılır, qeyri-neft sektorunun maliyyələşməsində bu sahənin payı artırılır.

Özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühitin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına, məhkəmə-hüquq sistemində şəffaflıq artırılmasına, haqsız rəqabətin qarşısı alınmasına xüsusi önəm verilir. Yeni və şəffaf özəlləşmə strategiyası həyata keçirilir. Həmçinin biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsi getdikcə artırılır. Təbii ki, bu zaman vergi və gömrük siyasəti dövlət büdcəsinin xərclərinin təmin edilməsi üçün adekvat imkanlar yaratmaqla yanaşı, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına yönəldilir.

***Vaqif BİNYATOĞLU***
***XQ***




# "AzerGold" – ən yaxşı ekoloji tərəfdaş

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "Korporativ sosial məsuliyyət çərçivəsində ətraf mühit layihələrinə dəstək olan ən yaxşı tərəfdaş" nominasiyası üzrə təltif edilib.**

Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev tərəfindən təqdim olunan nominasiyanı "AzerGold" QSC adından qurumun idarə heyəti sədrinin müavini, Korporativ Sosial Məsuliyyət Komitəsinin sədri Xəyyam Fərzəliyev qəbul edib.

Təqdimat mərasimində, həmçinin ətraf mühitin sağlamlaşdırılması, biomüxtəliflik və ekosistemin bərpasına önəm verən, bu istiqamətdə layihələr həyata keçirən, ekoloji maarifləndirmə sahəsində təşəbbüskarlıq göstərən digər sahibkarlıq subyektləri və qeyri-hökumət təşkilatları təltif edilib.

Qeyd edək ki, "AzerGold" QSC dağ-mədən sahəsində həyata keçirdiyi fəaliyyəti ilə ölkəmizin qeyri-neft sektorunda aparıcı yerlərdən birini tutan əsas ixracatçı dövlət şirkətlərindən biri kimi iqtisadi inkişafa töhfə verməklə yanaşı, məsuliyyət zonalarında dayanıqlı inkişaf məqsədlərini də daim diqqətdə saxlayır, ətraf mühitin mühafizəsi tədbirlərinə ardıcıl və sistemli dəstək göstərir.

Xatırladaq ki, ötən il səhmdar cəmiyyəti tərəfindən Daşkəsən rayonunun ərazisində bitən, adları "Qırmızı kitab"a daxil edilmiş nadir, nəsli kəsilmək təhlükəsində olan bitki növlərinin çoxaldılması, onların tarixən yetişdiyi ərazilərə reintroduksiyası layihəsi icra edilib. 2021-ci ildən icrasına başlanılan ekoloji layihə çərçivəsində Daşkəsən rayonunda yerləşən "Çovdar" qızıl mədəni ətrafındakı dağlardan nəsli kəsilmək təhlükəsində olan bitkilər aşkarlanaraq toxumları yığılıb.

Ötən bir il ərzində həmin toxumların çeşidlənməsi və müvafiq dərman vasitələri ilə qurudulması həyata keçirilərək təcrübə sahəsində yetişdirilib. Bunun da nəticəsində "Rosa zangezura Jarosch." (Zəngəzur itburnusu), "Rosa nisami Sosn." (Nizami itburnusu) və digər nadir bitkilərin tarixən yetişdiyi ərazilərdə çoxaldılması həyata keçirilib.

Yeri gəlmişkən, nadir bitkilərin mühafizəsi tədbirlərinə dair məlumatlar ötən il işıq üzü görmüş Azərbaycan Respublikasının "Qırmızı kitabı"nın yeni – 3-cü nəşrinə daxil edilib. Eyni zamanda, "AzerGold" QSC ötən il hasilat bölgələrində reallaşdırdığı ağacəkmə, yaşıllaşdırma və çaykənarı təmizlik aksiyaları ilə ətraf mühitin mühafizəsi tədbirlərinə önəmli töhfələr verib.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il dekabrın 25-də imzaladığı sərəncamla 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Sözügedən sənədə əsasən, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq hazırda ölkədə ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Ətraf mühitin və ekoloji tarazlığın qorunmasını fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirən "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti də "Yaşıl dünya naminə həmrəylik ili"nə mühüm töhfələr verməyi planlaşdırır. Geoloji-kəşfiyyatla bağlı tədqiqatlarda innovativ texnologiyaların tətbiqinə üstünlük verən qurumun 2023-2024-cü illər üzrə hazırladığı strategiyaya uyğun olaraq ötən il Daşkəsən, Göygöl, Balakən, Kəlbəcər, eləcə də Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda yerləşən sahələrdə aktiv geofiziki və geoloji tədqiqat işləri həyata keçirilib. Tədqiqat sahələrində perspektivli filizləşmə zonalarının müəyyənləşdirilməsi üçün axtarış-qiymətləndirmə işlərinin bu il də davam etdirilməsi nəzərdə tutulub.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2023-cü il tarixli Sərəncamına uyğun olaraq "AzerGold" QSC-yə dövlət sifarişi əsasında 2023-2024-cü illər ərzində ölkədə ümumi geoloji axtarış işlərinin bir hissəsinin icra edilməsi tapşırılıb. Bu məqsədlə Daşkəsən, Göygöl, Kəlbəcər rayonları, eləcə də Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ilə yanaşı, Goranboy, Ordubad və Şahbuz rayonlarında da geoloji tədqiqatların icrası nəzərdə tutulub. Sözügedən ərazilərdə qısa zamanda ilkin tədqiqat nəticələri əldə etmək üçün bu ildən innovativ texnologiyaların geniş tətbiqinə başlanılır. Belə ki, cari ildə tədqiqat işlərində qeyri-invaziv hiperspektral peyk görüntülərinin çəkilişləri davam etdiriləcək, eləcə də helikopter və dronlar vasitəsilə aeroelektromaqnetik tədqiqatlar aparılacaq. Bu tədqiqat metodları yer səthində axtarış-qiymətləndirmə işlərinin növbəti mərhələsi üzrə perspektivli tədqiqat sahələrinin müəyyənləşdirilməsinə, beləliklə də, xeyli vəsait tələb edən buruqqazma işlərinin daha kiçik arealı əhatə edən koordinatlar üzrə aparılmasına imkan verəcək.

Dövlət başçısının məlum sərəncamında işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritet məsələ kimi müəyyənləşdirilib. Fəaliyyətə başladığı dövrdən Qarabağ və Şərqi Zəngəzurda qanunsuz istismar faktlarının araşdırılmasına xüsusi diqqət ayıran "AzerGold" QSC bu istiqamətdə fəaliyyətini İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ilə birgə əməkdaşlıq şəraitində həyata keçirir.

2022-ci ildən Kəlbəcər rayonunun inzibati ərazisində yerləşən "Tutxun" nəcib metal təzahürləri sahəsində mərhələli kəşfiyyat-axtarış işlərinə başlayan şirkət 2023-cü ilin sonuna qədər minalardan təmizlənmiş 57 kvadratkilometr ərazidə geoloji axtarış işləri həyata keçirib. "Yaşıl dünya naminə həmrəylik ili"ndə isə daha 32 kvadratkilometr sahənin geoloji axtarış işləri üçün ayrılması nəzərdə tutulub.

Bundan əlavə, ölkə Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq QSC-nin öhdəliyinə mineral xammal ehtiyatlarının monitorinqi, təftişi, axtarışı, qiymətləndirilməsi kimi bir sıra vacib tapşırıqlar qoyulub. "AzerGold" 2022-2026-cı illəri əhatə edən Dövlət Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurun mövcud təbii sərvətlərindən Azərbaycan xalqının mənafeyi naminə istifadə edilməsi istiqamətində Azərbaycan dövlətinin yürütdüyü siyasətə dəstəyini davam etdirir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Bu il AÇG-də yeni 18 quyu qazılacaq

**Cari ildə Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri–Çıraq–Günəşli" yataqlar blokunda (AÇG) 18 quyunun qazılması planlaşdırılır. Onların da 12-si hasilat quyusu olacaq.**



Bunu Bakıda keçirilən Caspian Drilling konfransında BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda quyular üzrə vitse-prezidenti Kim O'Leary bildirib. Onun sözlərinə görə, ötən il AÇG-də 17 quyu qazılıb ki, bunun da 9-u hasilat quyusu olub. Digər quyularlar isə injektor və axtarış işləri aparmaq məqsədilə qazılıb.

Xatırladaq ki, "Azəri-Çıraq-Günəşli" layihəsinin iştirakçıları BP (operator–30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), "Inpex" (9,31 faiz), "Equinor (keçmiş "Statoil"– 7,27 faiz), "ExxonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), "Itochu" (3,65 faiz) və "ONGC Videsh Ltd." (2,31 faiz) şirkətləridir.

Yeri gəlmişkən, 1994-cü il sentyabrın 20-də 30 il müddətinə imzalanmış müqavilənin müddəti artırılaraq 2050-ci ilədək uzadılıb. Belə ki, 2017-ci il sentyabrın 14-də Azərbaycan hökuməti və SOCAR, beynəlxalq tərəfdaş şirkətlərlə birlikdə AÇG-nin birgə işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş saziş imzalayıblar.

***XQ***



# "Şirvan-3" kran gəmisi əsaslı təmir olunub

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasına məxsus "Şirvan-3" kran gəmisinin əsaslı təmiri yekunlaşıb.**

ASCO-nun yaydığı məlumatda daha sonra bildirilir ki, təmir "Bibiheybət" Gəmi Təmiri Zavodunda yerinə yetirilib. Təmir müddətində 100 ton yükqaldırma qabiliyyətinə malik olan kranda cari işlər görülüb. Köməkçi mühərriklər əsaslı, baş mühərriklər, nasoslar, boru sistemləri elektrik mühərrikləri isə cari təmir olunub.

"Şirvan-3" gəmisi tərsanəyə qaldırılaraq gövdənin sualtı və suüstü hissəsində zədələnmiş sahələr dəyişdirilib, gəmi üzrə rəngləmə işləri görülüb, hərəkət-sükan kompleksi, dibyan armaturları, protektor qurğuları yenilənib.

İşlər başa çatdıqdan sonra gəminin 100 tonluq yükqaldırma qabiliyyətinə malik kran qurğusunun sınaq işləri aparılıb və test uğurla başa çatıb. Bundan sonra mexanizm və elektrik avadanlıqlarının hərəkətdə yoxlanılması məqsədilə gəmi dəniz sınağına çıxarılıb. Müvəffəqiyyətlə başa çatan sınaqdan sonra uzunluğu 98,55, eni 17 metr olan gəmi registr təsnifatı nümayəndələrinə təhvil verilib.

***XQ***

# AYİB yatırımlarının 26 faizi özəl sektora yönəldilib

**Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycandakı aktiv portfelinin 90 faizini (809 milyon avro) dayanıqlı infrastruktura yatırımlar, 7 faizini (62 milyon avro) sənaye, ticarət və aqrobiznes investisiyaları, 3 faizini (26 milyon avro) isə maliyyə institutlarına yatırımlar təşkil edir.**

AYİB-in mediada yayılan məlumatına əsasən, bank indiyədək Azərbaycana 189 layihə çərçivəsində 3 milyard 624 milyon avro həcmində investisiya yatırıb və sözügedən həcmin 83,6 faizi (3 milyard 24 milyon avro) borc götürənlər tərəfindən artıq xərclənib. Ümumi investisiyaların 26 faizi özəl sektorun payına düşüb.

***XQ***



# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 74** **Bakı şəhəri, 8 fevral 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 322 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nın 18-ci, 20 - 46-cı, 46-1 - 46-7-ci hissələri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 75** **Bakı şəhəri, 8 fevral 2024-cü il**

***"Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları"nın təsdiq edilməsi haqqında***

"Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanının 2.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 78** **Bakı şəhəri, 8 fevral 2024-cü il**

***"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 931-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 931-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 195 (Cild I) ilə təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 5.1-1-ci və 5.1-2-ci bəndlər əlavə edilsin:

"5.1-1. "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş qaydada utilizasiyaya verilməzdən əvvəl nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Bu məqsədlə nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində nəzərdə tutulmuş orqanlara müraciət edilir. Müraciət qəbul edildikdən sonra 3 (üç) iş günü müddətində həmin orqan tərəfindən araşdırma aparılaraq nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılması və ya aşağıdakı hallardan hər hansı biri mövcud olduqda səbəbləri göstərilməklə dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmasından imtina barədə qərar qəbul edilir və müraciət edən şəxsə bu barədə yazılı məlumat verilir:

1) nəqliyyat vasitəsinin inzibati tənbeh etmə qismində müsadirə edilməsi və ya cinayət-hüquqi tədbir qismində xüsusi müsadirə edilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

2) nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs barəsində icrası təxirə salınmamış və ya icrasına möhlət verilməmiş yol hərəkəti, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalar haqqında iş üzrə səlahiyyətli orqanın (vəzifəli şəxsin) və ya məhkəmənin qanuni qüvvəyə minmiş və icra edilməmiş yekun qərarı olduqda;

3) nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs barəsində hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər üzrə cəza və ya digər cinayət-hüquqi tədbirlər qismində cərimənin tətbiq edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş və icra edilməmiş yekun qərarı olduqda;

4) nəqliyyat vasitəsi üzərində həbs və ya yüklülük olduqda;

5) dövlət müəssisə, idarə və təşkilatlarına, habelə nizamnamə kapitalında dövlətin payı olan hüquqi şəxslərə məxsus olan nəqliyyat vasitələrinin silinməsinə dair normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda və qaydada rəy verilmədikdə.

5.1-2. Nəqliyyat vasitələri utilizasiyaya "Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun 14-7-ci maddəsinin birinci hissəsinin üçüncü abzasına uyğun olaraq dövlət qeydiyyatını həyata keçirən orqan tərəfindən verildikdə, bu Əsasnamənin 5.1-1-ci bəndinin 1-ci, 4-cü və 5-ci yarımbəndlərinin tələblərinə əməl olunmaqla, həmin dövlət qeydiyyat orqanının qərarı ilə dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılır. Bu zaman bu Əsasnamənin 5.1-1-ci bəndinin 2-ci və 3-cü yarımbəndlərində nəzərdə tutulan ödənilməmiş cərimələrin olması nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmasına mane olmur.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 196 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 yanvar tarixli 44 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bəndin beşinci abzasına və 3.2-ci bəndin 4-cü yarımbəndinə "dövlət rüsumunun" sözlərindən sonra "və "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilən utilizasiya haqqının" sözləri əlavə edilsin;

2.2. 1.6-cı bəndə "dövlət rüsumu," sözlərindən sonra "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilən utilizasiya haqqı," sözləri əlavə edilsin.

**3** Bu Qərarın 1-ci hissəsi 2024-cü il sentyabrın 1-dən, 2-ci hissəsi isə 2024-cü il fevralın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 79** **Bakı şəhəri, 9 fevral 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının 11-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 182 (Cild I) ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nın 3.2-ci bəndində "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 76** **Bakı şəhəri, 8 fevral 2024-cü il**

***"Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 373 (Cild I) ilə təsdiq edilmiş "Torpaqların monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə"nin 4-cü hissəsinin birinci abzasına "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi," sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 sentyabr tarixli 146 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 9, maddə 556 (Cild I) ilə təsdiq edilmiş "Balıqçılıq su obyektlərinə zərərli təsirin yol verilən normaları"nın 15-ci hissəsinə "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi," sözlərindən sonra "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və" sözləri əlavə edilsin və həmin hissədən "və Azərbaycan Milli Elmlər Akademiyası" sözləri çıxarılsın.

**3** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 360 (Cild I) ilə təsdiq edilmiş "Ekzogen geoloji proseslərə məruz qalmış torpaqlarda mühəndis-texniki və kənd təsərrüfatı işlərinin aparılmasına icazə verilməsi Qaydası"nın 8-ci hissəsinin ikinci cümləsinə "xüsusi hallarda" sözlərindən sonra "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin," sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 13 iyul tarixli 117 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 564 (Cild I) ilə təsdiq edilmiş "Ekoloji təhlükəsizlik normativləri və vəhşi heyvanların əldə edilməsi Limitləri"nin III bölməsinin 6-cı hissəsində "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 iyul tarixli 125 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 572 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının "Qırmızı Kitabı" haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

5.1. I bölmənin 3-cü hissəsində və V bölmənin 1-ci hissəsində "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

5.2. I bölmənin 4-cü hissəsində "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 15 fevral tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 141 (Cild I) ilə təsdiq edilmiş "Ətraf mühitə dair alınması məhdudlaşdırılan informasiya üzrə müraciət və ya sorğunun göndərildiyi dövlət hakimiyyəti orqanlarının təsnifatı"nın 3-cü hissəsinin altıncı abzasında "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

**7.** "Xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına daxil edilən heyvanların mühafizəsi və istifadəsi Qaydaları" və "Heyvanlar aləmi obyektlərinin Azərbaycan Respublikasına gətirilməsi və onun hüdudlarından kənara aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 iyul tarixli 100 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 591) aşağıdakı dəyişikliklər edilsin:

7.1. həmin Qərarla təsdiq edilmiş "Xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına daxil edilən heyvanların mühafizəsi və istifadəsi Qaydaları" üzrə:

7.1.1. I bölmənin 2-ci hissəsində "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

7.1.2. III bölmənin 5-ci hissəsinə "Azərbaycan Milli Elmlər Akademiyasının" sözlərindən əvvəl "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və" sözləri əlavə edilsin;

7.2. həmin Qərarla təsdiq edilmiş "Heyvanlar aləmi obyektlərinin Azərbaycan Respublikasına gətirilməsi və onun hüdudlarından kənara aparılması Qaydaları" üzrə:

7.2.1. 1.4-cü bəndə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin" sözlərindən sonra ", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri əlavə edilsin;

7.2.2. 2.2-ci bəndin "ç)" abzasında "Kənd Təsərrüfatı Nazirliyinin və Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin;

7.2.3. 2.9-cu bəndə "Milli Elmlər Akademiyasının" sözlərindən əvvəl "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Azərbaycan" sözləri əlavə edilsin və həmin bənddə "rəyi" sözü "rəyləri" sözü ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 30 sentyabr tarixli 147 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 759 (Cild I) ilə təsdiq edilmiş "Vəhşi heyvanların təsərrüfat subyektləri tərəfindən yetişdirilib ov yerlərinə buraxılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. II bölmənin 18-ci abzasında "Milli Elmlər Akademiyasının" sözləri "Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin;

8.2. 3.1-ci və 3.6-cı bəndlərdə "Milli Elmlər Akademiyasının" sözləri "Elm və Təhsil Nazirliyinin aidiyyəti elmi müəssisəsinin və təşkilatlarının" sözləri ilə əvəz edilsin.

**9** "Nərə cinsli balıq ehtiyatlarının istifadəsi və dövriyyəsinin tənzimlənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli 206 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1066 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2-ci hissədə "Milli Elmlər Akademiyasına" sözləri "Elm və Təhsil Nazirliyinə" sözləri ilə əvəz edilsin;

9.2. həmin Qərarla təsdiq edilmiş "Nərə cinsli balıq ehtiyatlarının istifadəsi və dövriyyəsinin tənzimlənməsi Qaydaları"nın 2.1-ci bəndinin altıncı abzasında "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1230 (Cild I) ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin qanunvericiliklə müəyyən edilmiş siyahısındakı malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) kateqoriyaları və bölmələri üzrə xüsusi icazə verən, ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanlarının Siyahısı"nın "1D; 1E" bölməsinin 3-cü sütununda "Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 iyul tarixli 169 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 637) ilə təsdiq edilmiş "Təbiət abidələrinin və onların yerləşdiyi ərazilərin təşkili Qayda-ları"nın 5-ci hissəsinin ikinci cümləsinə "Azərbaycan Milli Elmlər Akademiyasının" sözlərindən əvvəl "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və" sözləri əlavə edilsin və həmin cümlədə "rəyi" sözü "rəyləri" sözü ilə əvəz edilsin.

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 17 sentyabr tarixli 138 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 9, maddə 915 (Cild I) ilə təsdiq edilmiş "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti arasında Elektrik enerjisinin satınalınma Müqaviləsi"nin 13.3-cü bəndinə "İqtisadiyyat Nazirliyi," sözlərindən sonra "Elm və Təhsil Nazirliyi," sözləri əlavə edilsin.

**13** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 669 (Cild I) ilə təsdiq edilmiş "Rayonlaşdırılmamış arı cinslərinin Azərbaycan Respublikasının ərazisinə gətirilməsi Qaydası"nın 5-ci hissəsində "Milli Elmlər Akademiyasının" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin" sözləri ilə əvəz edilsin.

**14.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 avqust tarixli 159 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 768 (Cild I) ilə təsdiq edilmiş "Ekoloji təmiz kənd təsərrüfatının elmi təminatının həyata keçirilməsi Qaydaları"nın 2.1-ci bəndində və 2.4-cü bəndinin birinci abzasında "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin.

**15.** "Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə bölməsinin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabine-tinin 2013-cü il 8 oktyabr tarixli 293 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1212) 2-ci hissəsindən ", Bioresurslar İnstitutunun, Nəbatat Bağının, Ekologiya və Təbii Ehtiyatlar İnstitutunun və Aqrar Problemlər İnstitutunun" sözləri çıxarılsın.

**16.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 203 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 974 (Cild I) ilə təsdiq edilmiş "Təbii balıqçılıq su obyektlərinə balıq və digər su bioresurslarının yeni növlərinin və hibrid formalarının buraxılması halları və Qaydası"nın 3.3-cü bəndinə "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyini," sözlərindən sonra "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyini və" sözləri əlavə edilsin və həmin bənddən ", Azərbaycan Milli Elmlər Akademiyasını" sözləri çıxarılsın.

**17.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 12 may tarixli 204 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 975 (Cild I) ilə təsdiq edilmiş "Balıq və digər su bioresurslarının iqlimləşdirilməsi və iqlimləşdirilmə obyektlərinin daşınması Qaydaları"nın 2.3-cü bəndində "Azərbaycan Milli Elmlər Akademiyasını" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyini" sözləri ilə əvəz edilsin.

**18.** "Azərbaycan Milli Elmlər Akademiyasında elmi tədqiqatların maliyyələşdirilməsinin yeni mexanizminin tətbiqi ilə bağlı AMEA-nın İqtisadiyyat İnstitutunda 2021-2024-cü illər üzrə pilot layihənin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 3 oktyabr tarixli 375 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1264) aşağıdakı dəyişikliklər edilsin:

18.1. adında və 1-ci hissədə "Azərbaycan Milli Elmlər Akademiyasında elmi" sözləri "Elmi" sözü ilə, "AMEA-nın" sözləri isə "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki" sözləri ilə əvəz edilsin;

18.2. preambulada və 2-ci hissədə ismin müvafiq hallarında "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri ismin müvafiq hallarında "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

18.3. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasında elmi tədqiqatların maliyyələşdirilməsinin yeni mexanizminin tətbiqi ilə bağlı AMEA-nın İqtisadiyyat İnstitutunda 2021-2024-cü illər üzrə pilot layihənin həyata keçirilməsi Qaydası" üzrə:

18.3.1. adında "Azərbaycan Milli Elmlər Akademiyasında elmi" sözləri "Elmi" sözü ilə, "AMEA-nın" sözləri isə "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki" sözləri ilə əvəz edilsin;

18.3.2. 1.1-ci bənddə "Azərbaycan Milli Elmlər Akademiyasında elmi" sözləri "Elmi" sözü ilə, "AMEA-nın İqtisadiyyat İnstitutunda" sözləri "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki İqtisadiyyat İnstitutunda (bundan sonra – İnstitut)" sözləri ilə, "Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İqtisadiyyat İnstitutunun (bundan sonra – İnstitut) və" sözləri isə "İnstitutun, habelə" sözləri ilə əvəz edilsin;

18.3.3. 3.1-ci bənddə "AMEA" akronimi "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi" sözləri ilə əvəz edilsin;

18.3.4. 3.2-ci bənddə "AMEA-nın Rəyasət Heyəti" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla İnstitut" sözləri ilə əvəz edilsin;

18.3.5. 3.4-cü bənddə "AMEA" akronimi "dövlət büdcəsindən maliyyələşdirilən elmi müəssisə və təşkilatların" sözləri ilə əvəz edilsin;

18.3.6. 3.6-cı bənddə "AMEA-nın Rəyasət Heyətinə" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə" sözləri ilə əvəz edilsin;

18.3.7. 4.6-cı bənddə "Elm haqqında" Azərbaycan Respublikası Qanununun 11.4-cü maddəsinə uyğun olaraq öz əməkdaşlarından, AMEA-nın digər elmi müəssisələrinin" sözləri "öz əməkdaşlarından, digər elmi müəssisələrin" sözləri ilə əvəz edilsin;

18.3.8. 4.7-ci bənddə "AMEA-nın Rəyasət Heyətinə" sözləri "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə" sözləri ilə əvəz edilsin.

**19** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 103 (Cild I) ilə təsdiq edilmiş "Startapın müəyyən olunması meyarları"nda aşağıdakı dəyişikliklər edilsin:

19.1. aşağıdakı məzmunda 3.9.2-1-ci yarımbənd əlavə edilsin:

"3.9.2-1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyindən – 2 nəfər;";

19.2. 3.9.5-ci yarımbənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Naxçıvan Muxtar Respublikası – 100**

# Qədim türk yurdu – Azərbaycanın ayrılmaz hissəsi

**(əvvəli XQ-nin 9 fevral 2024-cü il tarixli sayında)**

1918-ci ilin may–iyun aylarında ermənilər və A.Ozanyanın başçılığı ilə daşnak yaraqlıları Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətlərini daha da genişləndirdilər. Silahlı quldur dəstələri diyarda azərbaycanlı əhaliyə divan tutur, yaşayış məntəqələrini dağıdır, etnik təmizləmə siyasəti aparır, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün hər cür vəhşi vasitələrə əl atırdılar. Onlar Naxçıvanın ən yaxın vaxtlarda daşnak hökumətinə birləşdiriləcəyi barədə yalan məlumatlar yayır, bu yerlərin yenicə elan edilmiş Ermənistanın bir hissəsi olduğunu iddia edirdilər.



### Yerli idarəetmə sisteminin yaradılması

Erməni daşnakları Naxçıvan qəzasının bir sıra kəndlərini və Culfanı işğal edən zaman – 1918-ci il mayın 17-də kapitan Xəlil bəyin başçılığı ilə türk hərbi heyəti Naxçıvana gəldi. O, bölgəyə gəldikdən sonra Naxçıvanı gözlənilən erməni təcavüzündən qorumaq üçün yerli gənclərdən könüllü hərbi dəstələr təşkil etməyə başladı.

Batum müqaviləsini əsas götürən Osmanlı dövləti qəti tədbirlər görməyə məcbur oldu, IX Orduya Naxçıvana kömək etməyi tapşırdı. IX Ordunun tərkibində olan XI Qafqaz diviziyası 1918-ci il iyulun əvvəlində erməni dəstələrini məğlub edərək Naxçıvan şəhərinə yaxınlaşdı. İyul ayının 20–21-də baş vermiş döyüşlərdən sonra şəhər erməni qüvvələrindən təmizləndi, Culfa isə azad edildi.

Naxçıvan bölgəsi türk qoşunlarının nəzarətinə keçdikdən sonra burada Osmanlı sisteminə uyğun inzibati idarəetmə sistemi yaradılmağa başlandı. Alay komandiri Sürəyya bəy qəza rəisi təyin edildi. Sürəyya bəyin əmri ilə Naxçıvan Milli Komitəsi ləğv edilərək yerində jandarm, ədliyyə və bələdiyyə idarələri yaradıldı. Jandarm komandalığına Məmməd Əli xan, onun müavinliyinə Qəni bəy Vəzirov, Bələdiyyə İdarəsinə rəis Cəfərqulu xan, üzvlər isə Hacı Abdulla Şeyxov və Tağı Nağdalıyev təyin edildilər. Ədliyyə məhkəməsinə isə Şeyx Kərim Axundzadə, Cabbar Kələntərov, Vəliağa Kəndlinski, Abbasqulu bəy Tahirov və İbrahim paşa Kəngərlinski təyin olundular.

Bir müddət sonra ordunun Təbrizə getməsi ilə əlaqədar Sürəyya bəyin yerinə mayor Əli Şəfiq bəy təyin olundu, o isə öz növbəsində bir sıra inzibati dəyişikliklər etdi. Türk komandanlığı Naxçıvanda hərbi vəziyyət elan etdi, yerli əhalidən özünümüdafiə dəstələri təşkil edərək onlara hərbi təlim keçməyə başladı.

Birinci Dünya müharibəsində məğlub olan Osmanlı dövləti oktyabrın 30-da Mudros sazişini imzalamağa məcbur oldu. Müqaviləyə görə Osmanlı dövləti Azərbaycanı, eləcə də Naxçıvanı ingilislərin himayəsinə verməli idi. Siyasi vəziyyət həddindən artıq çətin və mürəkkəb idi.

### Araz-Türk Cümhuriyyəti

Noyabrın ilk günlərindən osmanlı qüvvələri Naxçıvanı tərk etməyə başladılar. Ordu komandanı Yaqub Şövqü paşanın teleqramında göstərilirdi ki, tərxis olunan ehtiyat zabitlərindən Naxçıvan bölgəsində yaradılan təşkilatda işləmək istəyənlər orada qala bilərlər, ancaq osmanlı forması geyməsinlər. Alınan əmrə görə Xəlil bəy və yoldaşlarının bir qrupu Naxçıvanda qalırdı. Türk ordusu Naxçıvandan çıxandan sonra bölgədə 5 zabit və 300 əsgər qaldı.

1918-ci il noyabrın 18-də Naxçıvan diyarını və ətraf əraziləri erməni daşnaklarının işğalından qorumaq üçün Araz-Türk Cümhuriyyəti yaradıldı. Araz-Türk Cümhuriyyətinin yaradılması təşəbbüsü ilə Naxçıvan, Şərur müsəlmanları çıxış etmiş və onların təklifi ilə ordubadlılar da bu siyasi tədbirə qoşulmuşlar. Araz-Türk Cümhuriyyətinin hakimiyyət strukturu formalaşdırılmış və Əmir bəy Nərimanbəyov hökumətin sədri seçilmişdir. Hökumətin tərkibi hərbi, maliyyə, inzibati, ədliyyə, xarici işlər, şeyxülislam və aşirətlər rəisindən ibarət idi. Xəlil bəy Türkiyə dövlətinin Araz-Türk Cümhuriyyətində hərbi müşaviri idi.

Araz-Türk Cümhuriyyətində dövlət, parlament və digər idarəçilik orqanları, 20 tabordan ibarət könüllü xalq dəstələri yaradıldı. Araz-Türk Cümhuriyyətinin sahəsi 8 min 696 kvadratkilometr, əhalisi 1 milyon nəfərə çatırdı. Naxçıvan, Şərur–Dərələyəz, Ordubad qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və b. ərazilər cümhuriyyətin tərkibində idi. General Vesəl Ünüvar yazmışdır ki, Araz-Türk hökuməti Ordubaddan Sürməliyədək olan torpaqlar bu respublikanın ərazisinə daxildir. Cümhuriyyətin yaradılması məsələsi Qəmərlidə müzakirə edilmiş və sonra Naxçıvan şəhərində yaradılmış və paytaxtı da Naxçıvan şəhəri idi.

Respublika ərazisində milis idarələri, onların sahə şöbələri, taborlar (batalyonlar), süvari alayı yaradıldı. Araz-Türk Cümhuriyyətinin yaratdığı özünümüdafiə qüvvələri, süvari alayı yerli əhali ilə birlikdə diyarın və əhalinin təhlükəsizliyini, ərazinin qorunmasını, onun erməni işğalına düşməsi üçün əzmlə mübarizə aparırdı.

Araz-Türk Cümhuriyyəti 1918-ci ilin 18 noyabrından 1919-cu ilin 10 martınadək davam edən fəaliyyəti Azərbaycan Xalq Cümhuriyyəti, Osmanlı dövləti, Cənubi-Qərbi Qafqaz Respublikası ilə əlaqələr yaratdı Naxçıvan diyarını qoruyub saxladı.

### Naxçıvana İngiltərə və ABŞ müdaxiləsi

İngilis qüvvələri 1918-ci ilin noyabrında Bakıya, 1919-cu ilin yanvarında Naxçıvana gəldilər. Mudros müqaviləsinin şərtlərinə görə Cənubi Qafqaz ingilislərin təsir zonasına daxil edilmişdi. Mayor V.Hibbon Naxçıvana gəldi, bölgədəki vəziyyəti öyrənmək istəyirdi. Əslində ingilislərin Naxçıvana gəlməsində bir məqsəd də Araz-Türk Cümhuriyyətinin iqtisadi və siyasi vəziyyəti, silahlı gücü ilə tanışlıq, onun Osmanlı Türkiyəsinin hakim dairələri ilə münasibətlərinin səviyyəsini və xarakterini aydınlaşdırmaqdan ibarət idi.

İngilislər burada general-qubernatorluq yaratdılar və diyarı Ermənistanın hakimiyyətinə vermək istəyirdilər. Onlar Naxçıvanı işğal etmək istəyirdilər. Araz-Türk Cümhuriyyətinə Türkiyə tərəfindən yaradılmış qurum kimi baxaraq, onu tanımaq istəmədilər.

Milli Şuranın sədri Cəfərqulu xan 1919-cu il fevralın 26-da general-qubernator F.Lautenə məktub göndərərək bölgənin müsəlmanların iradəsinin əksinə olaraq, Ararat (Ermənistan) Respublikasına verilməsinə etiraz etdi. İngilislər bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, digər tərəfdən daşnak Ermənistanının hakimiyyətinə verilməsi təklifini irəli sürürdülər. General Tomson erməni rəhbərlərinə təklif edirdi ki, Qarabağın və Zəngəzurun Azərbaycana verilməsini qəbul edərlərsə, Qars və Naxçıvanın onların nəzarəti altına keçməsinə kömək edəcəkdir.

1919-cu il iyulun əvvəllərində ingilis qoşunları Naxçıvanı tərk etməyə başlayanda Naxçıvan əhalisi erməni işğalçılarına qarşı mübarizəyə başladı. Ermənilərə qarşı vuruşan könüllülərin sayı 10 min nəfərə çatırdı. İrəvandakı səlahiyyətli nümayəndə M.Təkinski vasitəsi ilə Azərbaycan hökuməti naxçıvanlılara geniş siyasi, diplomatik və maliyyə yardımı göstərirdi.

Ermənilərin bölgədəki fəaliyyətinə son qoyulması ilə nəticələnən əsas hərbi hadisələr iyulun son günlərində baş verdi. Naxçıvan şəhəri ətrafında, Şahtaxtı, Yengicə və Noraşen stansiyalarında hərbi cəhətdən üstün olmalarına baxmayaraq erməni qüvvələri məğlub edildilər, çoxlu silah-sursat, zirehli qatar ələ keçirildi. Xanlıqlar kəndi döyüşsüz təslim oldu, 5 zabit, 95 əsgər əsir alındı, 600 tüfəng qənimət götürüldü. Düşmənin Vedidə möhkəmlənmək cəhdi baş tutmadı, ermənilər burada 4 min canlı qüvvə itirdi.



Ermənilərin 1918-20 illərdə Naxçıvanda törətdikləri soyqırımlar.
*Genocides committed by armenians in 1918-20 years in Nakhchivan.*



Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışlarında Naxçıvanın öz gücü ilə erməniləri məğlub edərək ərazidən qovduqlarını və Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi.

İngilislərdən sonra ABŞ hərbi qüvvələri də Naxçıvana gəlib burada “bitərəf, neytral zona” yaratmaq istəyirdi. 1919-cu il avqustun 22-də Paris konfransının Ermənistana Ali komissar təyin etdiyi polkovnik V.Haskel Ermənistandakı çıxışında daşnakların bu ərazilərə qarşı irəli sürdükləri iddialarını müdafiə etmişdi. Bakıda AXC rəhbərləri ilə görüşündə isə bölgənin Azərbaycanın idarəçiliyində saxlanacağını bildirmişdi. V.Haskelin Naxçıvan və Şərur–Dərələyəz torpaqlarını əhatə edən “bitərəf zona” layihəsi AXC hökuməti tərəfindən qəbul edilmədi. Həmin layihəyə görə yerli hakimiyyət orqanları Amerika qubernatoruna tabe olmalı idi.

ABŞ heyətinin layihəsi əsasında Naxçıvanda general-qubernatorluğun yaradılması yerli azərbaycanlı əhalinin də kəskin etirazına səbəb oldu. Onların ABŞ nümayəndəsi ilə görüşündə Naxçıvan, Şərur, Dərələyəz, Vedibasar və Milistan əhalisinin əksəriyyətinin Azərbaycan türkləri olduğunu, bu ərazilərin iqtisadi, siyasi, mədəni və strateji cəhətdən Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu və öz qanları ilə azadlıq qazandıqları nəzərə çatdırıldı. Bunları nəzərə almayan V.Haskel polkovnik Edmond Dellini ərazinin general-qubernatoru təyin etdi. Naxçıvan rəhbərləri və ictimaiyyətin nümayəndələri bunu qəbul etmədiklərini amerikalı nümayəndələrə çatdırdılar və əhalinin ancaq Azərbaycan hökumətini tanıdığını bildirdilər.

Beləliklə, Naxçıvan əhalisinin inadlı mübarizəsi və Azərbaycan hökumətinin ciddi səyləri nəticəsində amerikalıların bölgəni “bitərəf zona”ya çevirmək və orada Amerika general-qubernatorluğu yaratmaq yolu ilə Naxçıvanı Azərbaycandan ayırmaq cəhdləri boşa çıxdı.

### AXC hökuməti ilə əlaqə

Hadisələrin ən mürəkkəb vaxtında da belə Naxçıvan əhalisi və rəhbərləri özlərini Azərbaycandan ayrı təsəvvür etmirdilər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1919-cu il 28 fevral tarixli qərarı ilə Naxçıvan general-qubernatoru yaratmış və Bəhram xan Naxçıvanskini general-qubernator təyin etmişdi.

Araz-Türk Cümhuriyyəti AXC ilə sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün yollar aramışdı. AXC qarşılaşdığı çətin vəziyyətə baxmayaraq Araz-Türk Cümhuriyyətini müdafiə etmək üçün müəyyən tədbirlər görürdü. Azərbaycan hökuməti Naxçıvan əhalisinin iradəsini ifadə edərək bildirdi ki, Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir və bu diyar milli hakimiyyət orqanları tərəfindən idarə olunacaqdır.

Naxçıvan bölgəsindəki vəziyyət Azərbaycan Xalq Cümhuriyyəti dövlətini və hökumətini ciddi surətdə narahat edirdi. 1919-cu il yanvarın 8-i və 25-də Naxçıvandakı vəziyyət Azərbaycan parlamentində müzakirə edilmiş, yanvarın axırlarında isə İrəvan müsəlmanların həmyerlilər cəmiyyətinin nümayəndəsi Mirabbas Mirbağırovu kömək üçün Araz-Türk Cümhuriyyətinə göndərdi. M.Mirbağırovun heyəti 23 və 25 fevralda hökumət üzvləri və nümayəndələrlə görüşdü. Müzakirələr zamanı Naxçıvanın Azərbaycana birləşdirmək barədə akt tərtib edildi. Akt siyasi, hərbi, iqtisadi, maddi və mənəvi məsələlərə aid bəndlərdən ibarət idi. Aktı hökumət üzvləri, Milli Şura üzvləri və əhalinin nümayəndələri imzaladılar və hökumət möhürü ilə təsdiq edildi.

M.Mirbağırov Naxçıvan səfərindən maraqlı nəticələr əldə etmiş və bu nəticələri Azərbaycan Nazirlər Şurasına təqdim etmişdi. Təkliflər Azərbaycan hökuməti tərəfindən nəzərə alındı. Azərbaycan hökuməti Naxçıvan bölgəsinin problemləri ilə sistematik məşğul olmağa başladı. Martın 16-da Bəhram xan Naxçıvanskini general-qubernator vəzifəsində Ə.Haşımbəyov əvəz etdi.

Erməni işğalına son qoyulduqdan sonra bölgənin idarə edilməsində çox mürəkkəb vəziyyət yaranmışdı. Əslində, hakimiyyət 3 qüvvənin: Azərbaycan hökumətinin bölgədəki nümayəndəsi-general-qubernator S.Cəmillinskinin, Türkiyənin hərbi nümayəndəsi Xəlil bəyin və Kəlbəli xan və onun tərəfdarlarının əlində idi. Bölgənin ermənilərdən azad edilməsində onlar birgə mübarizə aparsalar da hakimiyyət bölgüsündə, diyarın idarə edilməsində onlar arasında fikir ayrılıqları var idi. Bu ziddiyyətləri aradan qaldırmaq məqsədi ilə S.Cəmillinski Xəlil bəyi Naxçıvan qoşunlarının baş komandanı, rütbəsi artırılmış Kəlbəli xanı isə onun köməkçisi, eyni zamanda, Naxçıvan qoşun dəstəsinin komandiri təyin etmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədrləri olmuş ətəli xan .Xoyski və Nəsib bəy Yusifbəyli imkanları daxilində Naxçıvan diyarına hərbi və maliyyə köməkliyi göstərir, onun Azərbaycanın ərazisi kimi qorunub saxlanılması üçün siyasi və diplomatik dəstək verirdilər.

**(ardı var)**

**İsmayıl HACIYEV,**
**AMEA Naxçıvan bölməsinin sədri, akademik**

---

# “Möhtəşəm minilliklərin şanlı 100 ili”

**AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr etdiyi “Möhtəşəm minilliklərin şanlı 100 ili” adlı yeni kitabı çapdan çıxıb.**

Yubiley nəşri “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsinin təmin edilməsi haqqında” Prezident sərəncamı və Tədbirlər Planının mətni ilə başlayır. Kitabda Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Naxçıvanın muxtariyyət statusu və Naxçıvan Muxtar Respublikasının yaradılması haqqında söylədikləri fikirlər də oxuculara təqdim olunur.

Moskva və Qars beynəlxalq müqavilələrində Naxçıvanla bağlı maddə və əlavələri, Naxçıvan Muxtar Respublikasının yaradılması haqqında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 9 fevral 2024-cü il tarixli qərarını kitaba daxil edən müəllif Rusiyada Fevral inqilabından sonra baş verən hadisələrin Cənubi Qafqaza təsirlərini müstəqil Azərbaycan, Gürcüstan və Ermənistan (Ararat) respublikalarının yarandığı dövrədək təhlil edir. Nəşrdə türk hərbi heyətinin Naxçıvana gəlməsindən, yeni idarəetmə sisteminin yaradılmasından, Araz-Türk Cümhuriyyətinin fəaliyyətindən, ingilis və ABŞ hərbi qüvvələrinin Naxçıvana gəlməsi və yürütdükləri ikili siyasətdən, habelə Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələrin möhkəmləndirilməsindən bəhs olunur.

“Naxçıvanda hərbi-siyasi vəziyyət və diyarın sovetləşməsi”, “Sovet Rusiyasının ikili siyasəti”, “Gümrü müqaviləsi və Naxçıvan”, “Naxçıvan hadisələri”, “Moskva müqaviləsi və Naxçıvan”, “Qars müqaviləsi və Naxçıvan”, “Naxçıvanın inzibati idarəçilik sistemindəki dəyişikliklər”, “Naxçıvan Muxtar Respublikasının yaradılması”, “Ermənilərin beynəlxalq Moskva və Qars müqavilələrini ləğv etmək və Naxçıvana yiyələnmək cəhdləri”, “Muxtariyyətin və müstəqilliyin bəhrələri”, “Böyük yolun davamı” adlı bölmələrdə Naxçıvan diyarının ictimai-siyasi vəziyyəti, ermənilərin Naxçıvana qarşı ərazi iddiaları, Moskva və Qars beynəlxalq müqavilələri, Naxçıvan Muxtar Respublikasının yaradılması və keçdiyi tarixi inkişaf yolu təqdim olunur.




Kitabın “Əlavələr” adlanan hissəsinə tarixi şəxsiyyətlərin, böyük tarixi önəm daşıyan yer və hadisələrin, o cümlədən muxtar respublikanın bugünkü inkişafının əks olunduğu fotoşəkillər daxil edilib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***
**Naxçıvan**

# Gənclər Kitabxanasının yubiley töhfəsi

**Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi münasibətilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında “Naxçıvan Muxtar Respublikası – 100” adlı elektron məlumat bazası hazırlanıb.**

Kitabxanadan bildirilib ki, elektron məlumat bazasında müxtəlif illərdə muxtar respublikaya dair imzalanan rəsmi sənədlər, Naxçıvan diyarının qədim tarixi, inzibati - ərazi vahidləri, mədəniyyət, təhsil, iqtisadiyyat, səhiyyə sahələri, görkəmli şəxsiyyətləri haqqında məlumat verilir. Bazada Naxçıvan Muxtar Respublikası haqqında Azərbaycan və xarici dillərdə qələmə alınan kitabların, məqalələrin biblioqrafik təsvirləri, Naxçıvan Muxtar Respublikası Baş nazirinin sabiq müavini Təranə Quliyevanın “Naxçıvanlılar Heydər Əliyevi, Ulu Öndər isə Naxçıvanı qorumuşdu...”, Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyevin “İlham Əliyevin yeni Naxçıvan modeli”, AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin “Azərbaycanın dövlət müstəqilliyinin Naxçıvan təməli və dərsləri” və Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının baş müəllimi Yunis Xəlilovun “Moskva və Qars beynəlxalq müqavilələri müstəvisində Naxçıvanın hüquqi statusu” məqalələrinin tam




mətni təqdim edilir.

Kitabxana əməkdaşları tərəfindən hazırlanan elektron məlumat bazasında “Naxçıvan - İslam mədəniyyətinin paytaxtı - 2018”, “Avtoreferatlar, dissertasiyalar”, “Notlar”, “İzomateriallar”, “Foto və videoqalereya”, “Virtual sərgi” bölmələri də mövcuddur.

“Naxçıvan Muxtar Respublikası – 100” adlı elektron məlumat bazası kitabxananın rəsmi saytında yerləşdirilib.

**XQ**

Rəmziyyə Veysəlova – 110

# Gəncə Teatrının acar aktrisası

**Unudulmaz aktrisa Rəmziyyə Veysəlovanı yaxşı tanıyırdım. Çalışdığı Gəncə Dövlət Dram Teatrında bu sənətkarla dəfələrlə təmasda olmuşam, səhnədə yaratdığı silsilə obrazlarını görmüşəm. Həm də çox səmimi və həlim qəlbli bir xanım kimi yaddaşımda yaşayır.**

...Heç yadımdan çıxmır. 1986-cı ildə Gəncə teatrının səhnəsində Yusif Əzimzadənin tərcüməsində tatar dramaturqu Şərif Xusainovun "Ana vüqarı" iki hissəli dramı quruluşçu rejissor Arif Ağayevin traktovkasında səhnəyə qoyuldu. Bu tamaşada mən də rol aldım, Kənan obrazını hazırladım. Premyera günü tamaşanın başlanmasına 10 dəqiqə qalanda qrim otağının qapısı qəfil açıldı. Bu böyük sənətkar əlində bir bardaq su və şokolad içəri girərək: "Anar, oğlum, səni təbrik edirəm. İnanıram ki, mənim kimi, sənin də arzuların yoluna işıq salacaq və yolun bu su kimi aydın olacaq" – dedi. Sənətkarın xeyir-duası müqabilində nə edəcəyimi bilmədim. Onun əllərindən öpüb, təşəkkürümü bildirdim. Beləcə, ilk səhnə xeyir-duamı bu əfsanəvi sənətkardan – Xalq artisti Rəmziyyə Veysəlovadan aldım.



1914-cü il fevral ayının 11-də Gürcüstanda anadan olan Rəmziyyə xanım əslən acar qızı idi. 1920-ci ildə Gürcüstanda sovet hakimiyyəti qurulanda onun valideynləri öldürülüb, evləri müsadirə olunub, bütün qohumları isə Qazaxıstana sürgün olunub. Ailəyə çox yaxın olan Petinov adlı bir şəxs həm 6 yaşlı Rəmziyyəni, həm də qardaşı Neməti Nəriman Nərimanovun yanına gətirib. Böyük dövlət xadimi onları Bahar Ağalarovanın Bakıdakı uşaq evinə yerləşdirib. Bahar xanım uşaqları öz otağında saxlayıb, onları əsl analıq qayğısı ilə əhatə edib. Təəssüf ki, Rəmziyyə xanımın qardaşı Nemətin sonraki taleyi barədə məlumat yoxdur. Rəmziyyə isə Bakıda yeni tipli qız məktəbində bir müddət təhsil alıb, 7-ci sinfi bitirəndən sonra, 1929-cu ildə təhsil ala-ala sənət müəllimlərinin tövsiyəsi ilə Bakı Teatr Məktəbinin aktyorluq fakültəsinə daxil olub.

İlk illərdə Bakı Türk İşçi Teatrının yardımcı heyətinə qəbul olunan Rəmziyyə Veysəlova kütləvi səhnələrdə epizodik rollar oynayıb. F. Pavlovun "Çin tanrısı"-da Viyen, N. Paqodinin "Balta poeması"-da Qız, V. Kirşonun "Küləklər şəhəri"də Qadın, Ə. Hamidin "Hind qızı"da Stelina, Ə. Fövzinin "Gizli əl"də Əsli, H. Nəzərlinin "Yollar"da Gülbahar obrazları onun ilk səhnə uğurlarındandır. Cazibədar görkəmi, məlahətli səsi, canlı və plastik hərəkətləri, iti yaddaşı Rəmziyyə Veysəlovanı fərqləndirən əsas amillərindən hesab olunub. O, ifadə vasitələrinin əlvanlığı ilə seçilib, orjinal, bədii-estetik cəhətdən kamil görünüb.

Rəmziyyə xanım bir müddət Şəkidə, sonra da Aşqabadda fəaliyyət göstərib. 1932-ci ilin sonlarında ömür-gün dostu – gənc fırça ustası, sonralar Gəncə Dövlət Dram Teatrında tərtibatçı rəssam və baş rəssam işləyən Bəhram Əfəndiyev Aşqabad teatrında işləməyə dəvət alıb. Bu minvalla aktrisa orada 3 ilə yaxın "Rəmziyyə" və "Rəmziyyə Əfəndiyeva" kimi çıxışlar edib. Aşqabad teatrının səhnəsində C. Cabbarlının "Yaşar"ında Yaqut, "Od gəlini"ndə Solmaz, V. Şekspirin "Otello"sunda Dezdemona, Ş.Saminin "Dəmirçi Gavə"sində Mehriban, Ə. Hamidin "Hind qızı"nda Elampa, A. Niyazovun "Qızıl orden"ində Ceyran və digər obrazları məharətlə oynayıb.

Sonra ailə Gəncəyə gəlir və Bəhramla o, teatr kollektivinə qəbul olunur. Qeyd etmək lazımdır ki, həmin dövrdə Gəncə teatrında geniş ampluada parlaq çıxış edən aktrisa yox idi. Rəmziyyənin həmyaşıdı Barat Şəkinskaya teatrdan inciyib, Bakıya getmişdi. Ona görə də təzə işçi tezliklə teatrın aparıcı aktrisasına çevrilə bilir. Klassik əsərlərdə möhtəşəm romantik xarakterlər, dünya ədəbiyyatı nümunələrində poetik realist obrazlar yaradan aktrisa Rəmziyyə Veysəlova Gəncə səhnəsində lirik-psixoloji üslubun aparıcı sənətkarlarından hesab edilir. Daim axtarışlar aparır, istedadını cilalayır və rejissorların ümidini doğruldur. Bu baxımdan onun M. F. Axundzadənin "Hacı Qara"da Tükəz, H. Cavidin "Şeyx Sənan"da Xumar, "Səyavuş"da Nina və Südabə, Ə. B. Haqverdiyevin "Bəxtsiz cavan"da Mehri xanım, C.Cabbarlının "Nəsrəddin şah"da Sitarə, "Od gəlini"ndə Gülsüm, "1905-ci ildə" tamaşasında Nabat, "Almaz"da Mariya Timofeyevna və Almaz, S.Vurğunun "Vaqif"ində Gülnar, Xuraman və Tükəzban, "Fərhad və Şirin"ində Məryəm, S. Rəhmanın "Küləklər"ində Firuzə xanım, "Toy"unda Kamilə, "Xoşbəxtlər"ində Sənubər obrazları maraqla baxılır və tamaşaçılar tərəfindən sevilirdi.

Rəmziyyə Veysəlova haqqında söhbət düşəndə oğlu Çingiz Yusifzadənin ömür-gün yoldaşı olan yazıcı-dramaturq Nüşabə Əsəd Məmmədli deyir: "Rəmziyyə xanım bütün varlığı ilə Azərbaycana bağlı insan idi. Həmişə fəxr edirdi ki, onun müəllimi böyük Hüseyin Cavid olub. Bakı Teatr Texnikumunda o, sənət korifeylərimiz Mehdi Məmmədov və Əli Zeynalovla birgə Cavid əfəndidən də dərs alıb. Həmişə deyirdi ki, böyük sənət əsərlərində rol alanda özünü xoşbəxt sayır. Teatrımızda qədim yunan dramarturgiyası, həmçinin böyük Şekspirin, Şillerin, Brextin və əlbəttə, Azərbaycan klassiklərinin ölməz əsərləri səhnə təcəssümünü Gəncə teatrında tapanda çox sevinirdi. Mən Rəmziyyə xanım haqqında fikirləşərkən ilk növbədə onun böyük sənətkar, teatr fədaisi olduğunu düşünürəm".

Gəncə Dövlət Dram Teatrının aktrisası, Əməkdar artist Rəhilə Məmmədova onu özünün sənət müəllimi adlandırır: "Yaxşı yadımdadır, Əlibala Hacızadənin "İtkin gəlin" pyesində Cahan Rəmziyyə Veysəlovadan sonra mənə tapşırıldı. Ancaq obraz həvalə olunsa da, sözlərini əzbərləmək üçün mətni vermədilər. Onda Rəmziyyə xanım məni öz evinə çağırıb, obrazın həm sözlərini, həm də mizanları öyrətdi. Həmin axşam gəlib tamaşanı oynadım. Səhnədə həddən artıq tələbkar Xalq artisti Sədayə Mustafayeva ilə tərəf-müqabil olmaq mənim üçün böyük imtahan idi. Buna baxmayaraq, bu sınaqdan çıxa bildim. Hətta teatrın o zamanlar baş rejissoru və bu tamaşanın quruluşçu rejissoru olan Respublikanın Əməkdar incəsənət xadimi Yusif Bağırov gəlib dedi ki, tamaşada Rəmziyyə Veysəlovanın yoxluğu heç bilinmədi, sanki yenə də o, özü oynayırdı... Etiraf edim ki, qocaman səhnə ustaları Rəmziyyə Veysəlova və Sədayə Mustafayeva olmasaydı, səhnə uğurunu heç vaxt dada bilməzdim".

Xalq artisti Rəmziyyə Veysəlovanın Azərbaycan mədəniyyəti tarixində xidmətləri yüksək qiymətləndirilib. 1955-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 1958-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb. Rəmziyyə Osman qızı Veysəlova 1993-cü il avqust ayının 22-də Gəncədə vəfat edib.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas***

Zəfər yolçuları

# "Mən sənin uğrunda ölmək istərəm..."

## Bu gün şəhid, Milli Qəhrəman Təbriz Xəlilbəylinin 60 yaşı tamam olur

**Unudulmaz Vətən oğullarını qədirbilənliklə anmaq hər birimizin vətəndaşlıq borcumuzdur. Vətənimizin müqəddəratı uğrunda öz şirin canından keçən igid oğullarımızdan biri də "Azərbaycanın Milli Qəhrəmanı" Təbriz Xəlilbəylidir. O, Vətən uğrunda döyüşün ən qaynar nöqtəsində qəhramanlıqla şəhid olub. Şəhid olmaq, Tanrı tərəfindən seçilmiş olmaq böyük səadətdir. Şəhid verən millət, dövlət, Vətən daim var olub. Hər daim də var olacaq...**



O, 1964-cü il fevralın 12-də Bakı şəhərində – "Ana torpağı azad görmək üçün ölümə qaçmaq hünər işidir, kişilik işidir", – deyən Xalq şairi Xəlil Rza Ulutürkün ailəsində dünyaya göz açıb. 1981-ci ildə Bakıda Mikayıl Müşfiq adına 18 nömrəli orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə daxil olub. Kütləvi tamaşalar üzrə rejissor fakültəsində qiyabi təhsil alıb və eyni zamanda, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında işıqçı işləyib. Sonra Azərbaycan radiosunda montajçı olub.

...Ermənilərin Azərbaycana təcavüzü və torpaq iddiaları Təbrizi gecə-gündüz narahat edirdi. Yağılar ulu yurd yerlərimizə hücum çəkməklə sanki onun ürəyinə dağ çəkirdi... Vətənsevər qəlbində atasının haraylı misralarının təsiri ilə onu ər savaşına səsləyən müqəddəs bir arzu, istək vardı. O, bütün varlığı ilə cəbhəyə getməyə can atır, Qarabağın işğalçılardan təmizlənməsində birbaşa iştirak etmək istəyirdi. Bilirdi ki, bizim yad torpaqlarında gözümüz yoxdur. Buna görə də özümüzün əzəli torpaqlarımızın işğaldan azad olunmasına müntəzir idi. Nəhayət, bir gün, daha doğrusu, 1991-ci ilin sonlarında Təbriz də düşmənə həddini bildirmək üçün döyüşlərə atıldı.

Bəli, Vətənin başı üzərini qara buludlar alanda neçə-neçə igid oğullarımız qeyrətini qılınc kimi qınından sıyırdı, düşmənlə savaşa getdi. Onların sırasında qorxmaz, cəsur Vətən oğlu Təbriz Xəlilbəyli də müsəlləh olmuşdu. Yaxşı bilirdi ki, Vətən sevgisi bütün sevgilərdən ucada dayanır. Ona görə də xalqımızın keçirdiyi müsibətlərə dözmürdü... Ölüm–itim, qaçqınlıq, köçkünlük, Qarabağ dərdi, zülm içində çadır şəhərciklərində yaşayan insanlarımızın taleyi ona bir an da olsa, rahatlıq vermirdi...

Vətən torpağına and içib, könüllü olaraq cəbhəyə yola düşən Təbriz Xramord və Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərib. 1992-ci il yanvarın 31-i isə onun son döyüşü olub. Həmin döyüşdə Təbriz Xəlilbəyli qəhrəmancasına həlak olaraq, şəhidlik zirvəsinə ucalıb.

Təbriz öz təbiəti etibarı ilə qorxmaz oğul idi. Şeirləri od-alov saçan vətənpərvər şair Xəlil Rza Ulutürkün övladı başqa cür ola da bilməzdi. Şair öz oğlu Təbrizin xatirəsinə həsr etdiyi şeirdə deyir:

*Min illər keçsə də, sağam – diriyəm,*
*Yaşaram, sənintək döyüşə bilsəm,*
*Sanaram ən böyük Xalq şairiyəm,*
*Bircə qəsbkarı məhv edə bilsəm.*
*Çələng sənin olsun, avtomat mənim,*
*Şövqümü səninlə bölmək istərəm.*
*Sən Vətən uğrunda keçdin canından,*
*Mən sənin uğrunda ölmək istərəm...*

...Təbriz qısa döyüş yolu keçsə də, yoldaşları arasında böyük nüfuz və hörmət qazanmışdı. Onu cəsur bir döyüşçü kimi tanıyırdılar. Az müddətdə hər qarış torpaq uğrunda gedən döyüşlərdə o, dəfələrlə qəhrəmanlıq nümunəsi göstərmişdi. Neçə-neçə yaralı əsgəri atəş xəttindən çıxarmış, düşmənin xeyli canlı qüvvəsini məhv etmişdi. Döyüş şücaətlərinə görə, o, Daxili İşlər Nazirliyinin (DİN-nin) "Boz qurd" mükafatına layiq görülmüşdü.



Şəhidlər Xiyabanında uyuyan Təbrizin rəşadəti dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib və o, ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layıq görülüb. Həmçinin, Bakıdakı küçələrdən biri Təbriz Xəlilbəylinin adını daşıyır, yaşadığı evin qarşısına Xatirə lövhəsi vurulub. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasına məxsus dalğıc gəmisi və Salyan rayonundakı Xıdırlı kənd məktəbi Milli Qəhrəman Təbriz Xəlilbəylinin adını daşıyır.

Təbriz Xəlilbəyli kimi qəhrəman oğullarımız ürəklərdə heykələ dönüb. Bu gün Vətənimizin başı üstündəki qara buludlar dağılıb, millətimizin qüruru qayıdıb, qəddi düzəlib. Hər birimiz başımızı dik tutub gəzirik. Bu günəşli, sevincli günlərə görə ürəklərdə yaşayan qəhrəman şəhid oğullarımıza borcluyuq. Ruhları şad olsun!

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

Gənc istedadlar

# Böyük sənətdə ilk addımlar

**Haqqında danışmaq istədiyimiz Dinara Məmmədova Azərbaycan milli baletinin əfsanələri Ədilə və Qəmər Almaszadələrin, Leyla Vəkilovanın, Sara Mirəliyevanın, Xumar Zülfüqarovanın, Rəfiqə Axundovanın, Mədinə Əliyevanın sənət yolunun layiqli davamçılarındandır. Onun adı ötən ilin yekunlarına görə, çalışdığı sahədə fərqləndiyinə görə Prezident mükafatına layiq görülən 10 gəncin sırasına düşüb.**



Tanınmış opera müğənnisi, tenor, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru, beynəlxalq Qran-pri mükafatı laureatı, Xalq artisti Yusif Eyvazovun sosial şəbəkələrdə yazdığına görə, ölkəmizdə balet artistinin gənclər üçün Prezident mükafatına layiq görülməsi ilk dəfədir. Dinara artıq bir neçə ildir ki, özünü istedadlı və çalışqan gənc kimi göstərməklə bu sahədə peşəkarların və sənətsevərlərin diqqətini çəkə bilib.

Gənc balerina 1998-ci ildə Bakıda dünyaya gəlib. O, 7 yaşında Bakı Xoreoqrafiya Məktəbinin klassik bölməsinə daxil olub, son siniflərdə oxuduğu zaman Azərbaycan Dövlət Musiqili Teatrında çalışıb. 2016-cı ildə balet artistlərinin Qəmər Almaszadə adına I Beynəlxalq müsabiqəsində 2-ci mükafata layiq görülüb. 2017-ci ildə məktəbi uğurla bitirən Dinara həmin ildən fəaliyyətini Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasında davam etdirir.

Dinara 2019-cu ildən teatrın repertuarındakı seçilən əsərlərdə aparıcı partiyaları – Qara Qarayevin "Leyli və Məcnun" baletində Leyli, "Yeddi gözəl" baletində Od, Pyotr Çaykovskinin "Şelkunçik" baletində Maşa, həmçinin Kukla, Şeytan, Markiza və Çin gəlinciyi, "Qu gölü" baletində kiçik qu quşunun rəqsi və Neapolitan rəqsi (solo), Polad Bülbüloğlunun "Eşq və ölüm" baletində Baycan, Astor Pyatsollanın "Məhəbbət tanqosu"nda Tereza, Fikrət Əmirovun "Min bir gecə" baletində 1-ci nağılda Qız, Adolf Adanın "Korsar" baletində Kəniz (solo), Lüdviq Minkusun "Don Kixot" baletində Amur, Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletində Şirin obrazlarını məharətlə ifa edib.

Gənc balet artisti Dinara Məmmədovanın dedikləri: "Prezidentin gənclər üçün mükafatına layiq görüldüyüm üçün çox sevincliyəm. Gənclərə daim diqqət və sevgi ilə yanaşan cənab İlham Əliyevə sonsuz minnətdaram. Bir gənc kimi müəyyən çalışmalarımın qiymətləndirilməsi mənə yeni yaradıcılıq stimulu verir. Çalışacağam ki, dövlətimizin və sənətimizin adını bundan sonra da uca tutum. Həmyaşıdlarıma da sevib-seçdikləri sahədə yorulmadan çalışmağı tövsiyə edirəm".

***XQ***

# "Bir dəlinin qeydləri" 30 ildən sonra

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Nikolay Qoqolun "Dəlinin gündəliyi" əsəri əsasında hazırlanan "Bir dəlinin qeydləri" monotamaşasının 30 illiyi qeyd olunub.**

Teatrdan verilən məlumata görə, ilk dəfə 1994-cü ilin oktyabr ayında Xalq artisti Cənnət Səlimovanın quruluşunda teatrsevərlərə təqdim olunan tamaşada Poprişşin obrazını Əməkdar artist Şövqü Hüseynov canlandırıb. Tamaşanın nümayişindən əvvəl teatrın truppa rəhbəri Ələsgər Muradxanlı çıxış edərək səhnə əsərinin yaranma tarixindən, qazandığı uğurlardan söz açıb və yaradıcı heyəti təbrik edib, Şövqü Hüseynova teatr rəhbərliyi adından gül dəstəsi verib. Sonra tamaşa nümayiş olunub.

Bu səhnə əsəri dünyanın bir çox ölkələrində nüfuzlu festivallarda iştirak edib. Şövqü Hüseynov dəfələrlə "Ən yaxşı kişi rolu"na görə mükafatlara layiq görülüb.



Tamaşada xırda dəftərxana məmuru Poprişşin öz müdirinin qızına vurulur. Lakin o, getdikcə ağlını itirməyə başlayır. Gah itlə danışır, gah özünü İspaniyanın kralı zənn edir, gah da gündəliyə "43 aprel 2000-ci il" kimi absurd tarix qoyur. Qeyri-adi qeydlərin sonunda Poprişşin dəli olur. Tamaşaçı xırda bir məmurun dəli olma prosesinin canlı şahidinə çevrilir.

***XQ***

# İslam ölkələri jurnalistlərinin həmrəyliyi zəruridir

**Səudiyyə Ərəbistanının Azərbaycan Respublikasındakı səfiri İsam bin Saleh əl-Cuteyli mərkəzi Azərbaycanda yerləşən İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasını ziyarət edib.**

Assosiyasiasnın sədri, Əməkdar jurnalist, ərəb filologiyası üzrə fəlsəfə doktoru Fazil Abbasov qonağa rəhbərlik etdiyi beynəlxalq qurumun yaranması və fəaliyyəti barədə məlumat verərək bildirib ki, təşkilatın əsas məqsədi islam ölkələri, eləcə də ərəb dövlətləri arasında jurnalist həmrəyliyinə nail olmaq, birbaşa informasiya mübadiləsinə dəstək verməkdir: "Biz niyə islam ölkələri haqqında Röyter, BBC, Assoşieytid Press, Frans Press kimi Qərb mənbələrinin təhriflərlə yayılan, birtərəfli, bəzən də qərəzli, islamofobiya yönlü xəbərlərini yaymalıyıq? Azərbaycan və Səudiyyə jurnalistləri ortaq mövqeləri, birgə fəaliyyətləri ilə İƏT dövlətlərindəki həmkarlarına bu sahədə yol xəritəsi hazırlayıb təqdim edə bilərlər.



Səfir İsam bin Saleh əl-Cuteyli Prezident İlham Əliyevin həm mahir diplomat, güclü siyasətçi, həm də hərbi işi mükəmməl bilən strateq kimi Qarabağı düşməndən təmizləyib ölkənin sərhədlərini bərpa etməsinin bütün İslam dünyasında məmnunluq və öyünc yaratdığını söyləyib: "Azərbaycan Prezidenti Qərb dövlətlərinin Ermənistanla birgə planlarını alt-üst etməklə beynəlxalq hüquqa hörmət gətirdi, dünya hegemonluğunun yolverilməz olduğunu təsdiqlədi".

Görüşdə iki ölkə jurnalistlərinin qarşılıqlı səfərlərinin və daimi əlaqələrinin vacibliyi vurğulanıb.

***T.RÜSTƏMLİ***
***XQ***

# Bütün Avropa fermerləri birləşir

**“Köhnə qitə”nin siyasi mədəniyyətində tətillər və etirazlar qeyri-adi hadisə deyil, sadəcə cəmiyyətin orqanik hissəsidir. Avropa İttifaqının (Aİ) aparıcı dövlətləri, inteqrasiyanın “mühərrikləri” sayılan Almaniya və Fransa buna bariz nümunədir.**

Fransada zəhmətkeşlərin öz hüquqlarının müdafiəsi uğrunda mübarizə forması kimi tətillərin populyarlığı belə bir faktla təsdiq olunur ki, 1791-1849-cu illərdə bu ölkədə həmkarlar ittifaqlarını və tətilləri qadağan edən 4 qanun qəbul edilib. Fransada ilk dəfə tətilləri 1864-cü ildə leqallaşdırıblar, 1946-cı ildə isə tətil hüququ IV Respublikanın Konstitutsiyasına daxil edilib. Buna baxmayaraq, fəaliyyətdə olan 1958-ci il Konstitutsiyasında tətil hüququ xatırlanmır. Düzdür, bu, nə dövlət qulluqçuları üçün, nə özəl sektorda çalışanlar üçün qadağan edilir, lakin onun keçirilməsi 1963, 1979, 1982, 1983-cü illərdə qəbul edilmiş bir sıra qanunlar və hakimiyyət orqanlarının qərarları ilə tənzimlənir.

Almaniya qanunvericiliyində isə tətil hüququ tənzimlənmir, lakin ölkənin 1949-cu il Əsas Qanunu peşə assosiasiyalarının, həmkarlar ittifaqlarının yaradılmasına və iş şəraitinin yaxşılaşdırılması uğrunda mübarizəyə icazə verir ki, bu da tətillərin keçirilməsi hüququ kimi şərh olunur. Sonralar isə məhkəmə presedentləri əsasında muzdlu işçilərin “kollektiv şəkildə razılaşdırılmış məqsədlərə nail olmaq üçün” tətil edə bilməsi qərara alınıb. Dövlət qulluqçuları bu hüquqdan məhrumdurlar.



2023-2024-cü illərin qış mövsümündə Aİ ölkələrindən mütəmadi olaraq fermerlərin, dəmiryolçuların və digər sektorlarda çalışanların genişmiqyaslı tətilləri ilə bağlı xəbərlər yayıldı. Bunların eyni bir xəstəliyin simptomları olduğu barədə yanlış təsəvvürdə bulunanlar da var. Ancaq bu, belə deyil: həm Almaniyada, həm də Fransada fermerlərin etirazları dəmiryol tətillərindən fərqli xarakter daşıyır. Fermerlərin çıxışları bütün aqrar sahənin maraqlarını ifadə edən peşəkar birliklər tərəfindən təşkil edilir. Onların etirazları siyasi və iqtisadi xarakter daşıyır və hökumətlərin və qismən Aİ-nin qərarlarından narazılıqların açıq ifadəsidir. Həmkarlar ittifaqlarının rəhbərlik etdikləri dəmiryolçuların tətilləri isə dövlətə qarşı deyil, işəgötürələrin - şirkət rəhbərliyinin (Almaniyada “DeutscheBahn”, Fransada “SNCF”) hərəkətlərinə qarşıdır. Bu hərəkətlər siyasi xarakter daşımır, üstəlik hökumət münaqişəyə birbaşa müdaxilə etməməlidir.

Avropada fermerlərin etiraz dalğası Fransa və Almaniya ilə məhdudlaşmır və getdikcə bütün qitəyə sirayət edir. Bağlanan magistral yollar, küçələrdə axan şərab, şəhər meydanlarından sürülən qoyun sürüləri, müxtəlif dövlət idarələrinin qarşısına tökülən peyinlər artıq Almaniya və Fransanın hüdudlarından çox kənara çıxır. Etirazlarda Belçikadan olan fermerlər də fəal iştirak edirlər, İspaniya və Portuqaliyadan olan kəndlilər isə artıq aksiyalara hazırlaşırlar. İğtişaşların bir çox səbəbləri hamı üçün ümumidir, lakin hər bir ölkədə fermerlərin narazılığının özəl səbəbləri var.

Əlbəttə, fermerlərin etirazları, ilk növbədə hökumətin kənd təsərrüfatı sahəsində tədbirlərindən narazılığı əks etdirir. Almaniyada fermerlərin etirazına səbəb hökumətin kənd təsərrüfatına subsidiyaları 2,5 milyard avro azaltmaq qərarı olub. 2022-ci ildə Ukrayna münaqişəsinin başlaması ilə Berlin iqtisadiyyatın zərər çəkmiş sektorlarını dəstəkləmək üçün xərclərin artırılması, maaşların və pensiyaların indeksləşdirilməsi, Bundesverin yenidən silahlanması və Kiyevə yardım ehtiyacı ilə üzləşdi. Bundan əlavə, 2023-cü ilin sonunda Almaniya Konstitusiya Məhkəməsi dövlətin bu vəsaiti Pandemiya ilə Mübarizə Fondundan Transformasiya və İqlim Dəyişikliyi Fonduna köçürmək qərarını qanunsuz hesab edərək, 60 milyard avronu blokladı. Üstəlik ötən ilin sonunda məhkəmə əlavə büdcə borcları üçün xüsusi hüquqlardan istifadəni qadağan etdi və hakim koalisiya çətin maliyyə vəziyyəti ilə üzləşdi. Bu qərar 2024-cü il büdcəsində 17 milyard avroluq defisit yaratdı. Belə olanda, xərcləri ödəmək üçün hakim koalisiya 2024-cü ildə kənd təsərrüfatı texnikasına vergi tətbiq etmək və “kənd təsərrüfatı dizelinə” subsidiyaları ləğv etmək qərarına gəldi. Məqsəd büdcəyə əlavə 1 milyard avro gəlir gətirmək idi.

Nəticədə alman fermerləri indi həddindən artıq bədbinləşdilər. Sənayenin vəziyyətini ölçən iqtisadi barometr 2023-cü ilin sonunda 9,2 səviyyəsinə düşüb. Bu, son onilliklər ərzində ən pis göstəricidir. Müqayisə üçün qeyd edək ki, 2010-cu illər ərzində iqtisadi barometr 20-30 bal aralığında dəyişib. Son vaxtlar Almaniyada təsərrüfatların sayı hər il 1 faiz azalır. Təəccüblü deyil ki, subsidiya hekayəsi onsuz da tez alışan benzin tökülmüş ocaq üçün bir qığılcım oldu. Ona görə də adətən çılğın etirazlara meylli olmayan Almaniyanın təmkinli fermerləri ayağa qalxdılar.

Fermerlərin peşəkar assosiasiyaları qısa müddətdə kütləvi etiraz aksiyaları təşkil edə bildilər: traktoru olan kənd təsərrüfatı işçiləri paytaxta gedib, yolları bağladılar. Muxalifət partiyaları öz mövqelərini gücləndirmək ümidi ilə etirazçıların tələblərini dəstəklədilər. Yəqin ki, etirazlar nəticəsində ən böyük siyasi kapitalı ənənəvi elektoratı fermerlər olan sağçı mühafizəkar Xristian Demokrat İttifaqı/Xristian Sosial İttifaqı (CDU/CSU) bloku qazandı.

Nəticədə hakim koalisiya güzəştə getməyə məcbur oldu. Dövlət kənd təsərrüfatı texnikası vergisindən imtina etdi. “Kənd təsərrüfatı dizelinə” subsidiyalar, 2024-cü ildə birdən-birə yox, 2026-cı ilə qədər tədricən ləğv ediləcək. Lakin kompromis tədbir bütün fermerləri qane etmir, qatı radikal qüvvələr ölkədə güzəştli yanacağın qiymətlərinin gələcəkdə də saxlanmasını tələb edərək öz çıxışlarını davam etdirirlər.

Bu ilin yanvarından Fransada da oxşar vəziyyət yaranır. Etirazların əsas səbəbi bu ölkədə kənd təsərrüfatının iqtisadi problemləridir.

Fransızlar nəyi sevmirlər? Birincisi, Almaniyada olduğu kimi, hökumət subsidiyaları məhdudlaşdırmaq qərarına gəlib. Fransada kənd təsərrüfatına böyük həcmdə subsidiyalar ayrılır və ildə təxminən 9 milyard avro təşkil edir. İkincisi, məmurların ərzağın qiymətlərini məhdudlaşdırmaq cəhdi fermerlərdə qıcıq yaradıb. Hələ avqust ayında maliyyə naziri Bruno Le Maire ölkədə təxminən 13 faizə çatan ərzaq inflyasiyasının qarşısını almaq üçün pərakəndə satış şəbəkələrinə təzyiq göstərirdi.

Satış şəbəkəçiləri buna qulaq asdılar və təchizatçılar üçün bütün qiymət məhdudiyyətlərini aşağı saldılar. Yeri gəlmişkən, əgər başqa ölkələrdə qiymətlər az-çox sərbəst dəyişirsə, Fransa kimi paternalist dövlətdə ərzağın qiymətləri ildə yalnız bir dəfə - dekabrdan mart ayına qədər tənzimlənə bilər. İndiyə qədər ərzaq mağazaları 2024-cü ildə qiymətləri 10 faiz artırmağa razılaşıblar, lakin bu artımın hansı hissəsinin fermerlərə və pərakəndə satışçılara çatacağı bəlli deyil.

İdxal Fransa aqrar-sənaye kompleksinin işçilərini və sahibkarlarını narahat edən üçüncü problemdir. Aİ Cənubi Amerikanın MERKOSUR bloku ilə azad ticarətlə bağlı danışıqları bərpa edib və onlar uğurlu olarsa, Argentina, Braziliya və Uruqvaydan daha ucuz məhsullar Fransa bazarına daxil olacaq. Çox güman ki, minlərlə yerli təsərrüfat onlarla rəqabətə tab gətirə bilməyəcək və fəaliyyətini dayandıracaq. Bundan əlavə, Ukraynadan, hətta Cənubi Amerika ilə müqayisədə daha ucuz olan məhsulların idxalı ilə bağlı narazılıqlar davam edir. Həmçinin Aİ daxilində, Fransa mağazalarının rəflərini şərabla dolduran qonşu İspaniya ilə də rəqabət var.

Daha bir problem, fransız fermerlərin xərclərinin artmasıdır - 2022-ci ildə Ukrayna münaqişəsinin təsiri altında elektrik enerjisinin, kimyəvi maddələrin qiymətləri artıb. Fransa hökuməti, Almaniya kimi, dizel yanacağının qiymətlərini tədricən artırmağa məcburdur.

Nəhayət, Fransanın aqrar-sənaye kompleksi “yaşıl siyasət”lə bağlı daha ciddi problemlə üzləşir. Burada sudan istifadədən tutmuş çoxsaylı məhdudiyyətlərə və usandırıcı bürokratiyaya qədər çox problemlər yığılıb. Fermerlər buğda və üzüm yetişdirmək əvəzinə blankları doldurmaqla və məktublar yazmaqla məşğuldurlar.

Aqrar sahə sahibkarlarının daha ciddi problemi Brüsselin 2030-cu ilə qədər qeyri-ekoloji pestisidlərin həcmini 50 faiz azaltmaq siyasəti və 14 tənzimləyici standartdan ibarət yeni paketin tətbiqi ilə əlaqədardır. Fransız fermerlərinin dincə qoyulmuş əkin sahələrini becərməyə icazə vermək tələbləri rədd edilir. Bütün bunlar təbii olaraq kəndliləri qəzəbləndirir.

Amma fermerlərin etirazları bu ölkələrlə məhdudlaşmır. “Reuters” agentliyi xəbər verir ki, Polşada siyasətçilər Aİ-nin kənd təsərrüfatı üzrə komissarı Yanuş Voyçexovskini istefaya çağırıblar. Etiraz edən fermerlər ölkənin yollarını və Ukrayna ilə sərhəd keçidlərini traktorlarla bağlayıblar.

Xəbər verilir ki, hazırda ölkə üzrə 250-dən çox yol bloklanıb. Sosial mediada yayımlanan görüntülərdə yolları bağlayan traktor karvanları və “Biz olmasaq siz ac, çılpaq və ayıq olacaqsınız” kimi şüarlar yazılmış plakatlar əks olunub.

İtaliya və İspaniyada da fermerlər əmək haqlarının artırılmasını və ədalətsiz rəqabətə qarşı mübarizə tədbirləri görməyi tələb edirlər. Məsələn, fermerlər avtomobil karvanında polisin müşayiəti ilə Romanın tarixi mərkəzindən keçiblər. Baş nazir Corciya Meloni dəfələrlə hökumətin fermerlərin əsas istəklərini qismən təmin etdiyini desə də, etirazların davam etdirilir.

İspaniyada isə fermerlər dördüncü gündür ki, tətil edirlər. Ölkə ictimaiyyətinin fəalları fermerləri şənbə günü Sosialist Partiyasının qərargahı yaxınlığında keçiriləcək etiraz aksiyası üçün gecə yarısı Madridə yürüş etməyə çağırıblar. Telekanalın məlumatına görə, etirazlar daha bir neçə həftə davam edəcək və onların ən böyüyü fevralın 21-də Madriddə keçiriləcək.

Belçika da fermerlərin qızğın etirazları ilə üzləşib. Hazırda Brüsseldə mağazalarda ərzaq qıtlığı var. Buna qədər fevralın 2-də Brüsseldə Avropa Parlamentinin binası qarşısında etiraz aksiyası keçirən fermerlərin törətdiyi dağıntıların nəticələri aradan qaldırılmışdı. Həmin aksiyada XIX əsrdə ucaldılmış 200 kiloqramlıq tuncdan hazırlanmış fəhlə heykəlini postamentindən aşırmışdılar.

Fermer tətillərinin intensivləşməsi, Almaniya, Fransa, İspaniya, Portuqaliya və İtaliyanın spesifik inkişafına baxmayaraq, ilk növbədə, Aİ ölkələrində artan iqtisadi gərginliyin göstəricisidir. Əsas odur ki, bu etirazlar daha böyük problemləri üzə çıxarır: Ukrayna münaqişəsi ilə bağlı artan xərclər – inflyasiya, enerji qiymətlərinin artması, Kiyevə yardım və s.

Vaxt isə gözləmir. Aİ-yə üzv ölkələrin hökumətləri bu çətin iqtisadi problemləri həll etməlidirlər: ya müxtəlif iqtisadi sektorları dəstəkləmək üçün büdcə borcunu artırmalı, ya da büdcə vəsaitlərini yenidən bölüşdürməlidirlər. Amma nə Berlin, nə Paris, nə də adlarını çəkdiyimiz digər ölkələr büdcə kəsirini artırmağa hələlik hazır deyillər. Almaniyanın "svetofor" koalisiyası artıq borc intizamına sadiqliyini təsdiqləyib – ölkədə büdcə kəsiri ÜDM-in 0,35 faizindən çox ola bilməz. Büdcə kəsirinin ÜDM-in 4,9 faiz – 173,3 milyard avro təşkil etdiyi Fransaya gəlincə, Maliyyə Nazirliyi bu kəsiri azaltmaq üçün 12 milyard avro tapmağı hökumətin prioritetlərindən biri olduğunu açıqlayıb.

“Azad” vəsaitlərin az olduğu şəraitdə onların paylanması üçün rəqabət təbii olaraq artır. Almaniya, Fransa və digər Aİ ölkələrindəki fermerlər mütəşəkkil qüvvə olduqlarını sübut etdikcə, hökumətlər qiymətli pula qənaət etmək üçün başqa sahələr axtarıb tapmalı olacaqlar. Bu axtarış uzandıqca, Avropa fermerlərinin birləşməsi prosesi daha da güclənəcək və o zaman “köhnə qitə” etiraz və tətillərə çətin tab gətirə bilsin.

***İlqar RÜSTƏMOV***
***XQ***

# Almaniya sənayedəki liderliyini itirir?



**(əvvəli 1-ci səhifədə)**

İqtisadiyyatı avrozonada ən böyük hesab olunan Almaniyada sənaye istehsalı 2017-ci ildən indiyədək azalır. Bununla bağlı “Bloomberg” yazır ki, bu azalma Almaniyanı sənayedəki liderliyindən məhrum edə bilər. Statistik məlumatlara görə, bəzi sənaye sahələrində tənəzzül yavaş gedir və bu tendensiya özünü investisiya planlarının azalmasında göstərir. Geriləmə digər sahələrdə daha çox nəzərə çarpır: Şirkətlər istehsal xətlərini dayandırır və ya işçiləri ixtisar edirlər. İstehsal sahələrini bağlayan şirkətlər də az deyil. Məsələn, boru istehsalında dünya liderlərindən biri olan Fransanın “Vallourec” şirkətinin Almaniyadakı iki zavodunu bağladığı bildirilir. Almaniyalı iş adamları vəziyyətin gərgin olduğunu etiraf edirlər. İçki istehsalı və əczaçılıq üçün sistem və komponentlərin tədarükçüsü GEA Group AG-nin baş direktoru Stefan Klebertin sözlərinə görə, azalma tendensiyasını dayandırmaq çətin olacaq.

“Bloomberg” yazır ki, Almaniyanın sənaye sisteminin əsasları “domino kimi çökdü”: “ABŞ Avropa müttəfiqlərindən uzaqlaşır və onlarla rəqabət etməyə başlayır; Çin Almaniyadan idxalı azaldır və daha ciddi bir rəqibə çevrilir. Agentlik bəzi ağır sənaye istehsalçıları üçün Rusiyadan ucuz təbii qaz tədarükünün dayandırılmasını “son zərbə” adlandırır. “Bloomberg” qeyd edir ki, tənəzzülün əsas katalizatoru 2022-ci ilin yayında enerji böhranı oldu. Qışda evlərdə istilik olmaması və ya normal qaz istehlakının tətbiqi ilə ən pis ssenarilərin qarşısını almaq mümkün oldu, lakin Almaniyada elektrik enerjisinin qiyməti Avropanın digər ölkələrinə nisbətən daha çox artdı. Bu da nəinki xərcləri artırır, həm də bu sahədə problemin həllini çətinləşdirir.

Ən çox ucuz Rusiya qazının itkisindən Almaniyanın kimya sənayesi zərər görür. Sektor Assosiasiyasının bu yaxınlarda apardığı sorğuya əsasən, demək olar ki, hər onuncu şirkət hidrogenin enerji daşıyıcısı kimi istifadəsinə keçid müddətinin qeyri-müəyyən olması səbəbindən istehsal proseslərini dayandırmağı planlaşdırır. Dünyanın ən böyük kimyəvi konserni BASF 2600 iş yerini, Lanxess şirkəti isə işçilərin 7 faizini azaltmaq niyyətindədir. Sənaye istehsalının payına Almaniyanın ÜDM-in təxminən 20 faizi düşür ki, bu da ABŞ-a nisbətən iki dəfə çoxdur. Maliyyə naziri Kristian Lindner əvvəllər bildirmişdi ki, iqtisadi artımın olmaması fonunda Almaniya iqtisadiyyatı rəqabətsizləşir, ölkənin özü isə sürətlə yoxsullaşır: “Biz artıq rəqabət qabiliyyətli deyilik. İqtisadi artım olmadığı üçün yoxsullaşırıq”. Onun sözlərinə görə, bu gün hər kəsə aydın olur ki, Almaniyanın bütün sosial faydaları və perspektivli ekoloji layihələri yalnız “iqtisadi çiçəklənmə” hesabına təmin edilə bilər.

Bununla belə, Bundesbankın (Almaniya Mərkəzi Bankı) sentyabr hesabatından belə görünür ki, sənaye istehsalının azalması tədricən baş verərsə, bu, narahatlıq doğurmayacaq. 2023-cü ilin nəticələrinə görə, Almaniyanın ÜDM-nin 0,3 faiz azaldığı vurğulanır. Bununla yanaşı, Almaniyada sənaye istehsalının həcminin 2023-cü ilin nəticələrinə görə əvvəlki göstəriciyə nisbətən 2 faiz azaldığı bildirilir. Artımın avtomobillərin və nəqliyyat avadanlıqlarının istehsalında, azalmanın enerji daşıyıcılarının qiymət dəyişkənliyinə daha həssas olan sahələrdə, o cümlədən kimya və metallurgiya sənayesində qeydə alındığı qeyd olunur.

**S.ELAY**
**XQ**

# NATO Rusiya ilə uzun qarşıdurmaya doğru

**NATO-nun Baş katibi Yens Stoltenberq “Welt” nəşrinə açıqlamasında deyib ki, Prezident Vladimir Putin ölkəsinin iqtisadiyyatını uzunmüddətli müharibəyə hazırlayır. Bu barədə “Euronews” agentliyi məlumat yayıb.**

Baş katibin sözlərinə görə, alyans Rusiya ilə müharibə axtarmır: “Ancaq biz onilliklər davam edə biləcək bir qarşıdurmaya hazırlaşmalıyıq”. O, həmçinin NATO müttəfiqlərini silah sənayesini daha sürətlə genişləndirməyə çağırıb: “Əgər Putin Ukraynada qalib gəlsə, Rusiya təcavüzünün başqa ölkələrə yayılmayacağına zəmanət yoxdur”.

Stoltenberq sonra vurğulayıb ki, hazırda ən yaxşı müdafiə Ukraynanı dəstəkləmək və NATO-nun hərbi imkanlarına sərmayə qoymaqdır: “Biz sənaye bazamızı daha tez bərpa etməli və genişləndirməliyik ki, Ukraynaya tədarükləri, eyni zamanda, öz ehtiyatlarımızı artıraq. Bu, sülh dövründə zəif surətli istehsaldan münaqişə zamanı zəruri olduğu kimi sürətli istehsala keçmək deməkdir”.



NATO-nun Baş katibi açıqlamasının sonunda bir daha “Rusiya bütün iqtisadiyyatını müharibəyə yönəldir, biz də təhlükəsizliyimiz üçün daha çox şey etməliyik”, -deyə bildirib.

**XQ**

# Britaniya Şimali Avropada kimə güc göstərir?

**Britaniya Rusiyanın qarşısını almaq üçün Şimali Avropada hərbi varlığını artırmağı planlaşdırdığını açıqlayıb. Böyük Britaniyanın müdafiə naziri Qrant Şapps ilk mərhələdə “Steadfast Defender 24” təlimində iştirak etmək üçün Britaniya ordusu və Kral Hərbi Hava Qüvvələrindən (HHQ) 20 min hərbi qulluqçunun bütün Avropaya yerləşdiriləcəyini, daha sonra bu hərbi qulluqçuların Şimali Avropanın müxtəlif nöqtələrinə yerləşdiriləcəyini açıqlayıb.**



Britaniya Müdafiə Nazirliyindən verilən açıqlamada iyun ayında başa çatacaq təlimə Britaniyanın Quru Qoşunlarından əlavə aviadaşıyıcı hücum qrupu, F35B döyüş təyyarələri, kəşfiyyat təyyarələri və helikopterlər də göndərəcəyi bildirilib.

**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 30 (30434) 11 fevral 2024-cü il, bazar

# Bakıxanov yaddaşlarda

**Azərbaycanın ilk tarixiçisi, şair, yazıçı, alim və mütəfəkkir Abasqulu ağa Bakıxanov (1794-1847) şərəfli ömür yolu keçib. Onun ictimai-siyasi, şəxsi həyatında baş verən bəzi əhvalatların oxucularımız üçün maraqlı olacağını düşünürük.**



### Çarın, yoxsa Allahın əmri?

Abbasqulu ağa Bakıxanov Peterburqda olduğu vaxt çar I Nikolayın qonaqlıq məclisinə dəvət olunur. Çara və xanımına çatdırırlar ki, Qafqazdan gələn qonağın ömründə dilinə içki dəyməyib. Nikolayın arvadı çox qürrəli halda söyləyir ki, mən Abbasqulu ağaya ilk dəfə şərab içirdərəm.

O, bir qədəh şərabı qızıl siniyə qoyur və özü gətirib Bakıxanova təqdim edir. O vaxt padşahın zövcəsini qonağa şərab təqdim etməsi ən yüksək hörmət sayılırdı. Abbasqulu ağa ayağa qalxaraq, badəni götürür və üzünü I Nikolaya tutaraq deyir:

– Ey mənim həşəmətli hökmdarım, siz deyirsiniz ki, bu şərabı içim, Allahım isə deyir, içmə! Hansınızın sözünə baxım?

Çox dindar olan çar I Nikolay ani cavab verir:

– Əlbəttə, Allahın!

Abbasqulu ağa əlindəki şərab qabını qaytarıb siniyə qoyur. Nikolayın xanımı isə .. qayıdıb yerində oturur.

### Məkkədə son dilək

Belə rəvayət edirlər ki, Abbasqulu ağa Qüdsi Məkkəyə Həcc ziyarətinə gedəndə Quba qazisi Hacı Molla Abdullanı da özü ilə aparıbmış. Qüdsi ziyarətini başa çatdırdıqdan sonra üzünü səmaya, Haqqın dərgahına tutub deyir:

– Ey pərvərdigar! Hər padşahdan mənə bir nişanə verilibdir. Səndən də bir nişanə istəyirəm ki, o mənim son nişanəm olsun.

Hacı Molla Abdulla Qüdsidən nişanə–muradının nə olduğunu soruşur. Abbasqulu ağa deyir:

– O nişanə bu müqəddəs məkanda ölməkdir.

Bu söhbətdən 3 gün sonra, 1847-ci ilin fevralında Abbasqulu ağa Bakıxanov təsadüfən vəba xəstəliyinə tutularaq dünyasını dəyişir. Onu Məkkə ilə Mədinə arasında "Fatimə vadisi" adlanan yerdə dəfn edirlər.

***Z.HÜSEYNLİ***
***XQ***

# Azərbaycan pianoçusu Nyu-York səhnəsində



**Nyu-Yorkda yerləşən dünyaca məşhur "Carnegie Hall" konsert mərkəzində Azərbaycanın Əməkdar artisti, professor, tanınmış pianoçu Nərgiz Əliyarovanın solo konserti keçirilib.**

Konsert proqramı dünya şöhrətli bəstəkar, Azərbaycanın Xalq artisti, Dövlət mükafatı laureatı, akademik Arif Məlikovun 90 illik yubileyinə həsr olunub.

N.Əliyarova konsertdə bəstəkarın "Məhəbbət əfsanəsi" baletindən fortepiano üçün işlənmiş parçaları ifa edib. Pianoçu baletin süjet xəttindən danışıb, bu əsərin Məlikovun yaradıcılığındakı mühüm rolundan söz açıb, baletin dünyanın onlarla müxtəlif səhnələrində qoyulduğunu vurğulayıb.

Gecədə pianoçu A.Məlikovun musiqisi ilə yanaşı, dahi bəstəkarlar Bethovenin, Şopenin və Debussinin əsərləri də ifa edilib. N.Əliyarovanın ifasında Şopenin valsı gecəyə xüsusi rəng qatıb. Çıxışının sonunda qonaqlar pianoçunu ayaqda alqışlayaraq yenidən səhnəyə dəvət ediblər.

**XQ**

# "Qarabağ" 3, "Neftçi" 29 addım dünyaya doğru...

**Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyaları (İFFHS) klubların yeni reytinqini açıqlayıb. 403 komandadan ibarət siyahıya ölkəmizin iki təmsilçisi düşüb.**

Ötən ay 73-cü pillədə qərarlaşan "Qarabağ" (146,5 xal) 70-ci sıraya yüksəlib. "Neftçi" (57,5 xal) ilə 469-cu yerdən 398-ci mövqeyədək irəliləyib.

Qeyd edək ki, dünya reytinqinə İngiltərə Premyer Liqasının və UEFA Çempionlar Liqasının son qalibi "Mançester Siti" (359 xal) başçılıq edir. İspaniya təmsilçisi "Real" (332 xal) 2-ci, İtaliyanın "İnter" (281 xal) kollektivi 3-cüdür.

***XQ***



## Poeziya köşkü

# Kövrək duyğular, işıqlı düşüncələr

**Hörmətli oxucu! Bu gün sizə istedadlı şair Həzi Həsənlinin 2 yeni şeirini təqdim edirik. Bu poetik yarpaqlar şairin qəlbindəki kövrək duyğulardan, işıqlı düşüncələrdən doğulub. Onlar təzə, tər və təravətlidir. Gəlin, birlikdə şairin şeir rübabının həzin sədalarını dinləyək...**



### De, gözlərin nədən doldu?!

**Gözdolusu göz yaşın var,**
**Ağlamağın nədən oldu?**
**Yoxsa, qorxu, təlaşın var,**
**De, gözlərin nədən doldu?!**

**Ağ göyərçin əllərin var,**
**Əl dəyməmiş tellərin var,**
**Necə zərif güllərin var,**
**Niyə soldu, nədən soldu?..**

**Sirrini sirdaşınla böl,**
**Eşqi könüldaşınla böl,**
**Sevinci göz yaşınla böl,**
**Sevinməyin dadı baldı.**

**Demə, sənə qıyan olar,**
**Çaylar sənə həyan olar,**
**Sular səni duyan olar,**
**Sularda göz yaşı boldu...**

### Könlün yenə yaz istəyir

**Könlün yenə yaz istəyir,**
**Bir qaranquş qanadında,**
**Elə bir avaz istəyir...**
**Dönməyirsən inadından.**

**Heyif, ömrün cavan çağı,**
**Ürəyində bala dağı...**
**Sən qoruyan od - ocağı,**
**Qoruyammaz hər qadın da...**

**Gözün elə nəm çəkib ki,**
**Qəlbin elə qəm çəkib ki,**
**Sən çəkəni kim çəkib ki,**
**Kimin də qalsın yadında?!**

## SAĞLAMLIQ



# Quşarmudunu yesən – təzyiqi endirərsən!

**Kardioloq Qrant Şexan arterial təzyiqi tez salan 2 giləmeyvə barədə açıqlama verib. Bildirib ki, nar və quşarmudu (aroniya) birbaşa təzyiqə təsir edir. Bu meyvələr unikal hipotonik təsirə malikdir.**

Quşarmudunun və narın o qədər güclü təzyiqsalıcı təsiri var ki, həkimlər həmin meyvəni aşağı təzyiqi olanlara qəti qadağan edirlər.

Bu meyvələrdə angiotenzini deaktivə edən, damarları daraldan maddə var. Təzyiqi salma təsirinə malik digər meyvələr – C vitamini ilə zəngin sitrus meyvələridir. C vitamini damarların elastikliyini bərpa edir, qanı durulaşdırır, nəticədə qan damarlarda yaxşı dövr edir və təzyiq normallaşır.

Kardioloq, həmçinin bildirib ki, kalium və maqneziumla zəngin ispanaq və çuğundur da damar funksiyalarına yaxşı təsir edir. Təzyiq problem olanların müalicəsi mütləq həkim tərəfindən təyin olunmalıdır.

***Z.BAYRAM***
***XQ***



# Bu gün də yağmursuz və dumanlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən fevralın 11-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 5-9°, gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.Havanın temperaturu gecə 5-10°, gündüz 18-23° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti olacaq.

**Q. QASIMOV**
**XQ**

# İspaniyada "qan" batareyası

**İspaniyada aparılan bir araşdırmada Kordoba Universitetinin alimləri qırmızı qan hüceyrələrinin əsas komponenti olan hemoqlobini batareyaya daxil edərək 20-30 gün işləyən prototip hazırlayıblar.**



Kimyəvi reaksiya ilə işləyən batareyalar kompüterlərdən tutmuş elektrikli nəqliyyat vasitələrinə qədər hər şeyi gücləndirə bilir. Batareyaya hava çəkildikdə, oksigen katodda suya çevrilir və anodda isə sinki oksidləşdirən elektrodlar buraxılır.

Bu reaksiyanı davam etdirmək üçün spesifik xüsusiyyətlərə malik katalizator lazım olduğundan tədqiqatçılar hemoqlobinin yaxşı bir seçim olduğuna qərar veriblər. Bildirilib ki, oksigenin azaldılması reaksiyasında katalizatorun iki xüsusiyyətə malik olması şərtdir. Bu xüsusiyyətlərdən birincisi oksigen molekullarını sürətli şəkildə udması, digəri isə nisbətən asanlıqla su molekullarını əmələ gətirməsidir.

**Rizvan FİKRƏTOĞLU**
**XQ**




# "Sənsiz" milli teatra qayıdıb

**Bu gün Akademik Milli Dram Teatrının səhnəsində "Sənsiz" adlı tamaşa yenidən teatrsevərlərə təqdim ediləcək. Şıxəli Qurbanovun eyniadlı dramı əsasında təqdim olunan səhnə əsərinin quruluşçu rejissoru Nihad Qulamzadədir.**

Tamaşada rolları Xalq artisti Mehriban Zəki, Əməkdar artist Füzuli Hüseynov, aktyorlar İlahə Həsənova, Elçin Əfəndi, Elsevər Rəhimov və Lalə Süleymanova ifa edir.

"Sənsiz" repressiyaya məruz qalan, həyatdan və ailəsindən qoparılmış insanların hekayəsindən bəhs edirlər.

**XQ**

## ALLAH RƏHMƏT ELƏSİN

Bakı Dövlət Universiteti Türk xalqları tarixi kafedrasının kollektivi iş yoldaşları, dosent İqbal Ağayevə anası

**KUBRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3449
SİFARİŞ 289
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00